www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 may 2016-cı il Çərşənbə axşamı № 112 (6433) Qiymətı 60 qəpik

## Xəbər

### Bakıda məşhur şirkətin sahibi özünü güllələyib öldürdü

yazısı səh.2-də

## Gündəm

### Azərbaycan və Türkiyə prezidentləri Qarabağ məsələsini müzakirə etdilər



İlham Əliyev qardaş ölkədə keçirilən Dünya Humanitar Sammitində çıxışında mühüm məqamları açıqladı; "Ermənistan Azərbaycan əhalisinə qarşı kimyəvi silahdan istifadə edib"

yazısı səh.3-də

### "Parabank"ın həbs etdirdiyi adam türmədə öldü

yazısı səh.4-də

### Cümhuriyyətin 100 illiyində Rəsulzadəyə heykəl qoyula bilər

yazısı səh.5-də

### Türkiyədə 7-ci baş nazir, bizdə isə hələ də Rasi-Zadə...

yazısı səh.7-də

*Mirvari Qəhrəmanlı:*

### "10 minədək məhbusa şamil olunan amnistiyanı pisləmək olarmı?"

yazısı səh.3-də

### Vyana görüşü-müharibə faktoru aradan qalxdımı...

yazısı səh.7-də

### Əməkdaşımız Türkiyə ələvilərinin dini mərasimindən yazır

yazısı səh.10-da

*Natiq Əliyev:*

### "Bu il neftin qiyməti 60 dolları keçməyəcək"

yazısı səh.7-də

*Şəhid əsgər Natiq Tahirlinin atası:*

### "Oğlumla bağlı başqa xəyallar qurmuşduq..."

yazısı səh.12-də

### Maliyyə Bazarlarına Nəzarət Palatası dollar kreditlərinə güzəşt edəcəkmi...

yazısı səh.15-də

### Türkiyədə növbəti anti-İŞİD əməliyyatı - azərbaycanlılar həbs olundu

yazısı səh.2-də

## Qafqazın ən üzücü münaqişəsinin həllində ilginc ssenari

# NATO RUSİYA İLƏ MÜHARİBƏYƏ HAZIRLAŞIR - QARABAĞIN QURTULUŞU ÜÇÜN BÖYÜK FÜRSƏT!

Hərbi ekspertlərin ardınca britaniyalı general da toqquşma barədə xəbərdarlıq etdi; Azərbaycan üçün unikal şans pəncərəsi açıla bilər; işğalçıya apreldəkindən də sarsıdıcı zərbə vurmaq üçün güc və hazırlığımızı hər an artırmalıyıq...




yazısı səh.8-də

## Deputat Cavanşir Paşazadə həbsdəki şərikinin ittihamları qarşısında susdu

Müğdət Həşimovla Paşazadələrin imzaladığı şəriklik müqaviləsi ortaya çıxdı; sənəd şərikə faiz borcu ödətdirilməsini də nəzərdə tutur!

yazısı səh.5-də



*Cavid Qurbanov:*

### "AKP-nin qurultayına İstanbulda səfərdə olarkən dəvət edildim"

yazısı səh.6-da



Nicat Abdullayev

### "Avtoş"un məmur atasının işdən qovulacağı gözlənilir

yazısı səh.4-də



*Namiq Həsənov:*

### "Cənab nazirlə açıq söhbətimiz oldu..."

yazısı səh.11-də



# Türkiyədə növbəti anti-İŞİD əməliyyatı - azərbaycanlılar həbs olundu

**Türkiyədə İŞİD terror qruplaşmasına qoşulmaq istəyən şəxslər saxlanılıb və çox sayda silah-sursat ələ keçirilib. ANS PRESS-in məlumatına görə, antiterror əməliyyatları ölkənin Qaziantep şəhərində keçirilib.**

Hüquq-mühafizə orqanlarının əməkdaşları şəhərdə yerləşən evlərə baxış keçiriblər. Baxış zamanı oradan müxtəlif növ partlayıcı maddələr, "Kalaşnikov" silahı, kustar üsullarla hazırlanan tüfənglər, mərmilər və bomba hazırlamaq üçün lazım olan ləvazimatlar ələ keçirilib.

Həmçinin əməliyyatlar zamanı bomba hazırlamağı öyrətmək üçün nəzərdə tutulan videolar müəyyən edilib. Qrup Türkiyədə böyük terror hadisələri törətməyi planlaşdırıb.

Polis həmçinin sərhəddən Suriyaya keçməyə hazırlaşan 10 nəfəri həbs edib. Onlardan 9 nəfəri xarici ölkə vətəndaşıdır. Həbs olunanlar arasında Azərbaycan vətəndaşları da var. Həmçinin İran, Tacikistan və Qırğızıstan vətəndaşları da Suriyaya keçməyə hazırlaşarkən saxlanılıb.

Aprelin 1-də isə Türkiyədə terror törətmək istəyən 5 İŞİD terrorçusu müəyyən edilmişdi. Onlardan biri Azərbaycan əsilli olsa da Rusiya vətəndaşı olub. İsa Tupolovun hələ də Suriyanın Rai şəhərində olduğu deyilirdi.

Həmin vaxt onların Türkiyə ilə yanaşı Azərbaycanda da terror aktları törətməyi planlaşdırdığı barədə məlumat yayılmışdı. Amma məlumat öz təsdiqini tapmadı.

# Parlamentin növbədənkənar sessiyası çağırılacaq

**Milli Məclisin yaz sessiyasının son iclası mayın 31-də keçiriləcək. Daxili Nizamnaməyə uyğun olaraq, Milli Məclisin yaz sessiyası may ayında keçirilən sonuncu iclasla (31 may tarixli) yekunlaşacaq.**

Lakin son illər parlamentin yaz sessiyası başa çatdıqdan sonra iyun ayında növbədənkənar iclas çağırılır. Bu il də istisna deyil.

Milli Məclisdən modern.az saytına verilən məlumata görə, iyun ayında parlamentin növbədənkənar sessiyası çağırılacaq. Növbədənkənar sessiyada parlamentin bir iclasının keçirilməsi nəzərdə tutulub. Tarix isə hələ dəqiq bəlli deyil.

Konstitusiyaya görə, parlamentin növbədənkənar sessiyalarını Milli Məclisin sədri Azərbaycan Prezidentinin və ya qanunverici orqanın 42 deputatının tələbi əsasında çağırır. Növbədənkənar sessiyanın gündəliyini müvafiq olaraq onun çağırılmasını tələb edənlər müəyyənləşdirir.

Bu gündəlikdəki məsələlərə baxıldıqdan sonra növbədənkənar sessiyanın işi bitir.

Deputatlar iyul ayının 15-dən avqustun 30-dək tətilə buraxılırlar. Tətil dövründə Milli Məclisin deputatları məzuniyyətdə sayılırlar.

Qeyd edək ki, Milli Məclisin 2015-ci ilin yaz sessiyasında son iclası mayın 31-də baş tutacaq. İclasın gündəliyinə 12 məsələ daxildir. Bunlar H. Səlimovun Şəki Apelyasiya Məhkəməsinin hakimi vəzifəsindən azad edilməsi barədə sənəd, Cəzaların İcrası, Cinayət məcəllələrində və bir sıra qanunlarda dəyişikliklərdir.

❑ ELŞAD

# Bakıda kütləvi davaya qadın da qoşuldu - yaralananlar var

**Bakıda kütləvi dava olub. Sabunçu Rayon Polis İdarəsinin 14-cü Polis Bölməsindən APA-ya verilən məlumata görə, hadisə Bilgəh qəsəbəsində qeydə alınıb. Bakı şəhər sakinləri - 1973-cü il təvəllüdlü Seymur Kamil oğlu Babayev, 1993-cü il təvəllüdlü İxtiyar Yusif oğlu Məmmədov, 1991-ci il təvəllüdlü Tərlan Şamil oğlu Quliyev və 1975-ci il təvəllüdlü Gülnarə İbrahim qızı Babayevanın iştirak etdiyi davada onlar bir-birilərinə xəsarət yetiriblər.**

Dava iştirakçılarından T. Quliyev və İ. Məmmədov xəstəxanaya yerləşdirilib.

Faktla bağlı araşdırma aparılır.

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# "Status-kvo" zorakılıq və ciddi hərbi toqquşmalara gətirib çıxara bilər"



**"Yenilənmiş Avropa Qonşuluq Siyasəti sabitliyi Avropa Qonşuluğunun bir çox tərəflərində ən təcili çağırış kimi irəli sürmüşdür. Sözün əsl mənasında - əsl sabitləşməni təcili təhlükəsizlik çağırışlarına müraciət etmədən, daha dəqiqi, Şərq Tərəfdaşlığı coğrafiyasında sabitlik və əməkdaşlığı təhdid edən həlli uzadılmış hərbi münaqişələrin nizamlanmasına nail olmadan təsəvvür etmək mümkün deyildir".**

«Trend»in məlumatına görə, bunu Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündə çıxışı zaman deyib.

**Nazir deyib ki, 16 may tarixində Vyanada ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin xarici işlər nazirlərinin iştirakı ilə Ermənistan və Azərbaycan prezidentlərinin görüşü keçirildi:** "Cəhbə xəttində baş vermiş son gərginlik həyəcan təbili çaldı ki, Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasındakı "status-kvo" zorakılıq və ciddi hərbi toqquşmalara gətirib çıxara bilər. Hər bir kəs qəbul edir ki, status kvo etibarsız, davamsız və qəbuledilməzdir. Hərbsizləşdirilmə və qoşunların çıxarılması təmin olunmalıdır".

**E.Məmmədyarov deyib ki, konstruktiv danışıqlar yolu ilə bu vəziyyətdən çıxış regiona arzu olunan sülh və sabitliyi gətirə bilər:** "Buna baxmayaraq, Azərbaycanı "çirkli bombalar"la hədələyən bəyanatlar Ermənistanın bu istiqamətdə niyyətinin olmamasından xəbər verir. Bu baxımdan, biz beynəlxalq ictimaiyyəti Ermənistanın kütləvi qırğın silahlarının yayılmamasına dair beynəlxalq konvensiyalara müvafiq olaraq üzərinə götürdüyü öhdəliklərə əməl etməməsini diqqətlə gözdən keçirməyə çağırırıq. Bu, xüsusilə Ermənistan tərəfindən radioaktiv materialların potensial olaraq üçüncü ölkələrə qeyri-qanuni dövriyyəsi ilə bağlı əvvəllər və bu yaxınlarda aşkar olunmuş bədnam cinayət halları baxımından çox vacibdir".



# Bakının bir sıra qəsəbələrində su olmayacaq

**Goradil qəsəbəsinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə qəsəbəni su ilə təmin edən nasos stansiyasında əsaslı yenidənqurma işləri aparılacaq və Ceyranbatan-Maştağa magistral xəttindən nasosxanaya yeni birləşmə veriləcək.**

Bununla əlaqədar Ceyranbatan-Maştağa magistral xətlərinin biri ilə içməli suyun verilməsi dayandırılacaqr.

Bu barədə Musavat.com-a ''Azərsu" ASC-nin mətbuat xidmətindən məlumat verilib.

Abunəçilərin diqqətinə çatdırılır ki, yenidənqurma işləri ilə əlaqədar 24 may 2016-cı il tarixdə saat 00:00-dan etibarən gün ərzində Novxanı, Fatmayı, Goradil qəsəbələrinə, bağ massivlərinə, Mehdiabad, Pirşağı, Kürdəxanı, Sabunçu və Suraxanı qəsəbələrinin bir hissəsinə içməli suyun verilməsində məhdudiyyətlər olacaq.

Yaranacaq narahatlıqla əlaqədar "Azərsu" ASC abonentlərdən üzr istəyir.



# Tələbə özünü universitetin binasından atdı

**Mədəniyyət və İncəsənət Universitetində intihara cəhd hadisəsi qeydə alınıb. AzNews.az-a verilən məlumata görə, sözügedən təhsil müəssisəsinin kulturologiya fakültəsinin 3-cü kurs tələbəsi özünü 2-ci mərtəbədən atıb. Hadisə nəticəsində sağ qalan tələbə başından ağır travma alaraq xəstəxanaya yerləşdirilib. İntihara cəhd olayının arxasında bəzi müəmmaların dayandığı bildirilir. Belə ki, guya həmin tələbə sevdiyi qızdan "yox" cavabı alıb. Buna görə də o, yaşamaq istəməyib. Bu üzdən də intihar etmək istəyib.**

Başqa bir mənbə isə tələbənin kəsirlərinin olduğunu və buna görə tələb olunan "haqqı" ödəyə bilmədiyindən intihara əl atdığını deyir.

Mədəniyyət və İncəsənət Universitetindən isə aznews.az-a hadisənin tamam "başqa səbəbdən" baş verdiyi deyilib: "Heç bir intihar söhbəti yoxdur. Həmin tələbə əyilib ki, "selfie" çəkdirsin, ayağı burxulub və yıxılıb. Bir gün xəstəxanada qalıb, başına tikiş atıblar, hazırda evdə müalicə olunur. İntihar etmək istəyən tələbə özünü ikinci deyil, beşinci mərtəbədən atar".

Qeyd edək ki, faktla bağlı Yasamal Rayon Prokurorluğunda araşdırma başlanılıb. Prokurorluqdan belə bir hadisənin baş verdiyini təsdiqləsələr də, əlavə məlumat verilməyib.

# "Sovetski"də 21 tarixi yaşayış evi və 2 mədəniyyət abidəsi söküləcək

**Bakı şəhərinin Baş Planına əsasən "Sovetski" adlanan ərazidə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısında yer almış 21 yaşayış evi və 2 abidə söküləcək. APA-nın məlumatına görə, bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin əhəmiyyət dərəcələrinə görə bölgüsünün təsdiq edilməsi haqqında" qərarında etdiyi dəyişiklikdə əksini tapıb.**

Dəyişikliyə əsasən, söküləcək yaşayış evləri və mədəniyyət abidələri "Yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısı"ndan çıxarılıb.

Sökülməsinə qərar verilmiş abidələrdən biri M. Muxtarov küçəsi, 83 ünvanında yerləşən, 1888-ci ildə tikilmiş hamamdır. Həmin hamamın binasında Dövlət Yuğ Teatrı yerləşib. Digər abidə isə Bakının Nərimanov rayonunda S.Rəhimov və A.Şaiq küçələrinin tinində yerləşən, XIX əsrin sonunda tikilmiş Şollar su kəmərinin su yayma qülləsidir.

Söküləcək tarixi yaşayış evləri isə Yasamal rayonunun ərazisindədir. Bu yaşayış evləri 1885-1916-cı illərdə tikilib.



# Ermənilər Ağdamın işğal olunmuş ərazilərində yanğın törətdilər

**Ermənistan silahlı qüvvələri Ağdamın işğal olunmuş ərazilərində yanğın törədiblər.**

APA-nın Qarabağ bürosunun xəbərinə görə, dünən Ermənistan silahlı qüvvələri irimiqyaslı hərbi təlimləri başa vurduqdan sonra ərazilərə od vurublar. Təlimlərdən dərhal sonra işğal altında olan yaşayış məntəqələrində güclü tüstü müşahidə olunub. Hazırda sözügedən ərazidə yanğın davam edir.

Xatırladaq ki, dünən günün ikinci yarısında erməni silahlı bölmələri nəzarət etdikləri ərazilərdəki dağ massivlərində və düzəngahlarda canlı qüvvə, zirehli texnika və artilleriya qurğularından istifadə edərək təlimlər keçiriblər.

# Bakıda məşhur şirkət direktoru özünü güllələdi

**Bakıda intihar hadisəsi qeydə alınıb. "Report"un əldə etdiyi məlumata görə, 1962-ci il təvəllüdlü Söhbət Hacıyev yaşadığı Nərimanov rayonu, A.Neymətulla küçəsi, ev 79, mənzil 48 ünvanında ov tüfəngi ilə özünə intihar məqsədi ilə atəş açıb. O, hadisə yerində ölüb.**

Faktla bağlı Cinayət Məcəlləsinin 125-ci (Özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, araşdırma aparılır.

Qeyd edək ki, S.Hacıyev "İnteryer-S" MMC-nin direktoru vəzifəsində çalışıb.

## Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016



# Azərbaycan və Türkiyə prezidentləri Qarabağ məsələsini müzakirə etdilər

## İlham Əliyev Türkiyədə keçirilən Dünya Humanitar Sammitində çıxışında mühüm məqamları açıqladı; "Ermənistan Azərbaycan əhalisinə qarşı kimyəvi silahdan istifadə edib"





**Türkiyədə mayın 23-də tarixdə ilk dəfə Dünya Humanitar Sammiti baş tutub. APA-nın məlumatına görə, BMT baş katibi Pan Gi Munun təşəbbüsü və BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin (UN OCHA) təşkilatçılığı ilə mayın 23-24-də İstanbulda keçirilən sammitdə böhrana məruz qalan insanlarla ölkə liderləri ilk dəfə bir araya gəlib. Sammitdə dünyada yaşanan humanitar problemlərin həlli yolları müzakirə edilib.**

Sammitdə Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva da iştirak edib.

"BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələri 20 ildən çoxdur kağız üzərində qalıb. Lakin digər məsələlərlə bağlı qətnamələr gün və ya saatlar içərisində yerinə yetirilir".

APA-nın məlumatına görə, bu sözləri **Azərbaycan prezidenti İlham Əliyev** İstanbulda keçirilən Dünya Humanitar Sammitində çıxışı zamanı deyib.

**O bildirib ki, belə hal Azərbaycan qarşı ikili standart siyasətidir:** "Ermənistan bu qətnamələri yerinə yetirməlidir. Hazırda regionda digər böyük təhlükə Ermənistanın Metsamor Atom Elektrik Stansiyasıdır. Ermənistanın bu stansiyanın radioaktiv tullantılarından qanunsuz istifadə etməsi ilə bağlı məlumatlar var. Ermənistanın parlament rəsmiləri, siyasətçiləri aprel ayında elan etdilər ki, ölkənin nüvə silahı - "çirkli bomba"sı var. Buna beynəlxalq ictimaiyyət tərəfindən reaksiya verilməlidir. Ermənistanın nüvə təhdidi dayandırılmalıdır".

**Azərbaycan prezidenti Ermənistanın işğalı nəticəsində evlərindən didərgin düşmüş qaçqın və məcburi köçkünlərin həyat səviyyəsini yaxşılaşdırmaq üçün ciddi işlər görüldüyünü söyləyib:** "Azərbaycan bu məqsədlə 6 milyard dollar sərf edib. Qaçqın və məcburi köçkünlər arasında yoxsulluğun səviyyəsi 75 faizdən 12 faizə düşüb. Son 12 ildə ölkədə ümumi yoxsulluq səviyyəsi 5 faizə endirilib".

**Dövlət başçısı Azərbaycanın oxşar problemlərlə üzləşən ölkələrə hər zaman yardım etdiyini vurğulayıb.**

"Azərbaycan Dünya Humanitar Sammitinin nəticələrinin dünyada yaşayan insanların yaşayış standartlarının inkişafına təsir edəcəyinə inanır" deyən İlham Əliyev qeyd edib ki, Azərbaycan da vaxtilə qaçqın və məcburi köçkün problemi ilə üzləşib. Ermənistanın həyata keçirdiyi hərbi işğal və təcavüz nəticəsində 20 ildən artıqdır Azərbaycanın 20 faiz ərazisi işğal altındadır: "Azərbaycanın 1 milyondan artıq əhalisi qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan Azərbaycana qarşı etnik təmizləmə həyata keçirib, əhaliyə qarşı soyqırım törədib. Ermənistan silahlı bölmələrinin 1992-ci il 26 fevral tarixində törətdiyi Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınıb".

**Azərbaycan prezidenti bildirib ki, Ermənistan silahlı qüvvələri bu il aprelin əvvəlində yenidən Azərbaycanın dinc əhalisinə qarşı yeni hücumlar təşkil edib:** "Ermənistanın aprel hücumu zamanı Azərbaycanın əsgər və zabitləri, o cümlədən 6 dinc sakini ölüb, 30-a yaxın sakin yaralanıb. Həmin vaxt Ermənistan silahlı birləşmələri Azərbaycan əhalisinə qarşı qadağan olunmuş kimyəvi silah olan fosforlu bombadan istifadə edib. Azərbaycan Silahlı Qüvvələri dinc əhalisinə qorumaq məqsədilə Ermənistan birləşmələrinə layiqli cavab verib və bundan sonra hücumlar dayanıb. Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf 7 rayonunu işğal altında saxlayır. Bu ölkə BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini yerinə yetirmir".

***

BMT-nin İstanbulda keçirilən I Dünya Humanitar Sammitində iştirak edən Azərbaycan prezidenti İlham Əliyev Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla da görüşüb.

APA-nın Türkiyə müxbiri xəbər verir ki, görüşdə prezident İ. Əliyev sammitin keçirilməsinin bəşəriyyət üçün çox faydalı olduğunu, sammitdə qəbul ediləcək qərarların icrasında Azərbaycanın yaxından iştirak edərək lazımi dəstəyi verəcəyini deyib.

Öz növbəsində, R. T. Ərdoğan Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində öhdəliklərinə daim əməl etdiyinə görə prezident İ. Əliyevə təşəkkür edib.

Görüşdə Azərbaycan-Türkiyə münasibətləri, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair fikir mübadiləsi də aparılıb.

ANS PRESS-in Türkiyə bürosunun məlumatına görə, İlham Əliyev sammit çərçivəsində Ukrayna dövlət başçısı ilə də görüşüb.

# Amnistiyanı pisləyənlərə reaksiyalar gəldi...

**Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın irəli sürdüyü və Milli Məclis tərəfindən qəbul olunan amnistiya aktı ictimaiyyət arasında böyük rəğbətlə qarşılanmaqla yanaşı, neqativ fikirləri olanlar da tapıldı. Müxalifət və müxalifətə yaxın olan bəzi QHT-lər amnistiyanın yetərli olmaması ilə bağlı sosial şəbəkələr və mətbuatda münasibət bildirirlər.**

Önə çəkilən əsas məsələ də amnistiyadan siyasi məhbusların kənarda qalmalarıdır. Belə ki, iyunun 15-də qüvvəyə minəcək aktın siyasilərə şamil olunmayacağı artıq dəqiqləşib. Çünki qaydalara görə, böyük ictimai təhlükə törətməyən cinayətlərə görə həbsdə olan şəxslər azad olunacaqlar. Siyasi məhbusların isə əksəriyyəti ağır maddələrlə ittiham olunurlar. Bu amil amnistiya əleyhinə olan şəxslərin meydana çıxmalarına səbəb olub.

**Təşəbbüsün lehinə olan deputat Fəzail Ağamalı akta qarşı çıxanlar barədə sərt danışdı:** "Amnistiya aktı qəbul olunarkən cənab sədrin iştirakı ilə xaricdə tədbirdə idik. Təəssüf ki, iclasda iştirak edə bilmədim. Əgər olsaydım, amnistiyaya yüksək dəyər verərək önə çəkəcəkdim. Mətbuata açıqlamamda Mehriban xanımın bu təşəbbüsünü yüksək dəyərləndirdim. Əgər 10 min məhbusa şamil olunursa, 3500-dən yuxarı şəxs azadlığa qovuşursa, bundan humanist, mərhəmətli addım varmı? Bəzi müxalif qüvvələr hər zaman olduğu kimi, yenə də belə humanist addımın əleyhinə olmaqla, ənənəvi simasını göstərməklə bir daha mərhəmətdən kənarda olduqlarını göstərdilər. Dəfələrlə demişəm, yenə də deyirəm ki, Azərbaycanda siyasi məhbus yoxdur. Ayrı-ayrı şəxslər konkret etdikləri cinayət əməllərinə görə həbs edilibllər. Siyasi məhbus məsələsi, ad çəkmədən deyirəm ki, məlum şəxslərin biznes mənbəyidir. Çox təəssüflər olsun ki, onların yaydıqları bu fikirlər Azərbaycanı istəməyən qüvvələr tərəfindən dəstəkləndi. Bundan ölkəmizə qarşı bu dəqiqə də istifadə olunur. Avropa Şurasının özü də siyasi məhbus anlayışını kənara qoyaraq, bu barədə fikirlərini səsləndirir. Bu humanist addıma şəxsi maraqlarından yanaşmaları onların dünyagörüşlərinin məhdudluğunu göstərən bir faktdır. Amnistiya aktı cəmiyyətin bəzi hər şeyi qara görən və şəxsi maraqlarından çıxış edənlər istisna olunmaqla, xalqımız tərəfindən qiymətləndirilir. Bu cür fikirlər əminəm ki, amnistiya aktının dəyərinə, humanistliyinə kölgə salmayacaq. Çünki belə fikirlərin gücü yoxdur".



**Fəzail Ağamalı:** "Bu akt bəzi hər şeyi qara görənlər istisna olunmaqla, xalqımız tərəfindən qiymətləndirilir"



**Mirvari Qəhrəmanlı:** "10 minədək məhbusa şamil olunan aktı pisləmək olarmı?"

**Daim amnistiya aktını dəstəkləyən hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı bütün məhbusların ölkə vətəndaşları olduqlarını qeyd edərək, aktın əleyhinə çıxanları qınadı:** "Heç kəs əminliklə deyə bilməz ki, həbs olunanların hamısı üçün ədalətli məhkəmə keçirilib. Həbsdə olanların hamısının da günahkar olduğunu deyəcək şəxs tapılmaz. 10 minədək məhbusa şamil olunan aktı pisləmək olarmı? Axı bunların içərisində gələcək əsgərlər, gənc qadınlar, analar var. Amnistiya aktına qarşı çıxanlara heç cür haqq qazandırmaq olmaz. Sadəcə, etiraz edə bilərlər ki, siyasi məhbuslara şamil olunan maddələr amnistiyaya düşmür. Bu da, sadəcə, baxışlardan biridir. Həmin aktı hazırlayan şəxslərə qəzetiniz vasitəsilə dəfələrlə müraciətim olub. Azərbaycanın imici üçün bu vacibdir. Ayrı-seçkilik salmaq olmaz. Bu aktı hazırlayanlardan çox şey asılıdır. Siyasi məhbuslardan hansının maddəsinin amnistiyaya düşməyəcəyini kim bilə bilər ki? Düşməsələr belə, nə üçün öz ölkələrindən olan minlərlə şəxsin azadlığa çıxmasına sevinmirlər? Onların fikirləri ilə razı deyiləm. Sadəcə, bir fikirləri ilə razıyam ki, amnistiya aktı siyasilərə də şamil olunsa, çox yaxşı olardı. Amma digər məhbusların azad olunacağı amnistiya aktını pisləmək doğru deyil. Bu aktı verdiyi üçün Mehriban xanıma bir daha təşəkkür edirəm. Azad olan, həbsdə qalan, cinayətkar, siyasi məhbus da hamısı mənim millətimdir. Prezident artıq iqtisadi amnistiya verib. Hamı siyasi məhbus olmayan Azərbaycan görmək istəyir. Məni nə qədər tənqid etsələr də, amnistiya əleyhinə olanlara qarşıyam".

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016



# "Peşvoy millət"in varisi

**Samir SARI**

**Belə görünür ki, başqa cür mümkün deyil, əziz oxucular, xalqın taleyini, millətin mənafeyini, dövlətin gələcəyini düşünəndə gərək hakimiyyəti özündən sonra daha etibarlı adama verəsən.**

Ağlınız Hollandiyaya, Finlandiyaya, Norveçə, İsveçə, İrlandiyaya, İslandiyaya getməsin, bizim meridian və paralellərdə heç kəsə etibar yoxdur. Hər halda, Tacikistanın "peşvoy millət"i ("millət atası") İmomali Rahmon bunu hamıdan yaxşı bilir. Nə də olmasa, adam 22 ildir millətinin lideridir.

Hazırda xəbər saytlarında belə bir informasiya var ki, Tacikistan sülalə hakimiyyətinə doğru gedir. Bu iddia ona görə ərələ gəlib ki, srağagün Tacikistanda referendum keçirilib və qədirbilən tacik xalqı konstitusiyaya təklif edilən dəyişiklikləri, demək olar ki, yekdilliklə dəstəkləyib. İmomali Rahmon ömürlük prezident olmaq hüququ qazanıb, üstəlik, prezidentliyə namizədlərin yaş həddi 35-dən 30-a qədər azaldılıb ki, prezidentin oğlu Rüstəm 2020-ci ildə, 33 yaşı tamam olanda atasının yerini tuta bilsin.

Sonrası da Allah kərimdir, əgər Rüstəmin başına bir iş gəlsə (dünya ölüm-itim dünyasıdır, nə bilmək olar), yerində balaca qardaşı Somon (Qurbanəli) olacaq. Əslində, cənab Rahmon öz hakimiyyətini patriarxal xətt üzrə yox, matriarxal marşrutla ötürmək istəsəydi, seçim etmək imkanı daha böyük ola bilərdi. Namxuda, "peşvoy millət"in qızları çoxdur: Füruzə, Azadə, Ruhşanə, Təhminə, Pərvinə, Zərinə və Fərzanə.

Camaat "yeddi oğul istərəm, bircə dənə qız, gəlin" deyə alqış edər, arzusuna çatar, İmaməli ağa nə təhər şiddətli arzu edibsə, yeddi qızı, iki oğlu var. Amma ziyanı yoxdur. Yeddi qız yeddi kürəkən, damad deməkdir, Rahmon onların hərəsinə bir nazir vəzifəsi, komitə sədri postu, xidməti rəisi görəvi versə, dalını dağa söykəmiş kimi bir şey olar.

Tacikistanın özü isə balaca ölkədir, həm də kasıbdır. Düzdür, taciklər qürurlu xalqdır və dünyanın ən uzun bayraq sapına (bizimkindən 2 metr uzundur) malik olmaları ilə fəxr edirlər, amma kasıbçılıq olanda çox qürurlu-qürurlu guruldamaq olmur. Bəlkə ölkədəki məmur tayfası, hər yerdə olduğu kimi, hallı-pullu olduğuna görə qürur, təkəbbür sərgiləyə bilər, amma əllərindəki süpürgə, döşəməsilən, tozsoranla Moskvanın, Sankt-Peterburqun təmizlik işlərinə baxan yüz minlərlə tacik qürur-filan hayında deyil,onlara şörəkpulu lazımdır, o isə Düşənbədə, Gülabda, Xocənddə, Kurqantəpədə, İstaravşanda, Qəniabadda, Pencikənddə, Xoroqda, Tursunzadədə və o biri qəsəbələrdə, aullarda yoxdur.

Araşdırmaçı jurnalistlərin sözü olmasın, bəs görəsən, hazırda yaşı 30-a çatmayan varis, gələcək prezident, yəni yeni "peşvoy millət" nə işlə məşğuldur?

İnternet resurslarından, türkün sözü, dərləyib, dənləyib topladığımız qeydlərdən məlum olur ki, Rüstəm çox işli-güclü oğuldur. Əvvəllər Tacikistanın futbol təsərrüfatına rəhbərlik edib. Düzdür, o, ölkə futbolunu bay edə bilməyib, amma yaxşı təcrübə toplayıb. Hazırda isə Rüstəm gömrük xidməti çərçivəsində qanunsuz fəaliyyətlə mübarizə işinə baxır. Gömrükdən quş uçanda da Rüstəm bilir, postlardan maye heroin, toz kokain, yarpaq marixuana keçiriləndə də. Bundan başqa, gənc varis Tacikistanın gənclər birliyinin (müasir komsomol) sədridir. Olimpiya şurası komitəsinin Asiya ilə beynəlxalq əlaqələr üzrə departamentinə də Rüstəm rəhbərlik edir.

Bundan əvvəl o, investisiyalar və dövlət əmlakının idarə edilməsi üzrə dövlət komitəsində şöbə rəhbəri, həm də Düşənbə şəhər şurasının üzvü olub. Başqa sözlə, gənc varis dövlət işi üçün hərtərəfli yetişir, yetişdirilir. Yəqin ki, növbəti parlament seçkilərində Rüsrəm deputat seçiləcək, sonra Dariqa Nazarbayeva kimi baş nazirin müavini təyin ediləcək. 2020-ci (bəlkə də 2025-ci) ildə isə bir də eşidəcəyik ki, Tacikistanda hakimiyyət dəyişikliyi baş verib, prezident İmamali Rahmonun yerinə Rüstəm İmamali seçilib.

Beləcə, 50 il boyunca (ən azı) Tacikistanda hakimiyyətdə rahmonzadələr olacaq. O vaxta qədər Avropa ölkələrində yeddi baş nazir dəyişəcək, amma əsas məsələ ölkədə siyasi sabitliyin olmasıdır, rifah-filan boş şeydir, camaat necə olsa, başını dolandıracaq.

# "Avtoş"un məmur atasının işdən qovulacağı gözlənilir

## Prezidentin harın məmur övladlarına dözümsüz münasibəti XİN-in turizm şöbəsinin müdiri Nurpaşa Abdullayevə də şamil oluna bilər; onun yaxın günlərdə vəzifədən çıxarılacağı haqda xəbərlər yayılıb

**Xarici İşlər Nazirliyinin Turizm şöbəsinin rəisi Nurpaşa Abdullayevin oğlu, Azərbaycan Dillər Universitetinin tələbəsi Nicat Abdullayevin avtoxuliqanlıq etməsi sosial və peşəkar mediada hələ də müzakirə olunur.**

N.Abdullayev "KIA" markalı maşınla şəhərin mərkəzində "avtoşluq" edib. 20-yə yaxın yol polisi əməkdaşının təqibindən sonra onu süni tıxac yaratmaqla saxlaya biliblər. Məlum olub ki, o, sükan arxasına spirtli içki qəbul edərək əyləşib.

Mayın 20-də Nərimanov Rayon Məhkəməsinə aparılan N.Abdullayev 20 gün müddətinə inzibati həbs cəzasına məhkum edilib və DİN-in İnzibati Həbs Olunanların Saxlanma Məntəqəsinə göndərilib. Mediada N.Abdullayevin təcridxanaya göndərilərkən polislərlə dialoqu yayılıb. Gənc avtoxuliqan əməlini sıradan bir hal hesab edir.

**"Mən oğurluq etməmişəm, cibə girməmişəm. Camaat 15 il "srok" yatır. Mən də sürmüşəm, tutublar, cəzamı da çəkirəm.** Burada nə var ki?" - deyib gənc "avtoş".

Mətbuatın xəbərinə görə, Nurpaşa Abdullayev oğlu ilə saxlama yerinə görüşə gedərkən qalmaqal baş verib. Oğluna su ötürmək istəyən ata Abdullayevə deyiblər ki, su saxlanılan şəxslərə verildiyindən onun gətirdiyi suya ehtiyac yoxdur.

Bu sözdən sonra məmurun özündən çıxdığı, nəzarətçiləri hədələdiyi deyilir.

Olaydan sonra mətbuat Nurpaşa Abdullayevin kimliyini araşdırıb. Məlum olub ki, o, həm Xarici İşlər Nazirliyində şöbə rəisidir, həm də bazar sahibidi. N.Paşayev 3-cü mikrorayon bazarının sahiblərindən biridir.

Qanunla biznesmenin dövlət məmuru olması yasaqdır. Amma N.Abdullayevə münasibətdə qanunun bu tələbi keçərli olmayıb. 3-cü mikrorayon bazarının sahiblərindən biri olan N.Abdullayevi bazarkom olmasına rəğmən XİN-də işə götürüblər...

Bəs məmur-bazarkom Nurpaşa Abdullayevin aqibəti necə olacaq? Onu qanunla cəzalandıracaqlarmı? Ölkə prezidenti indiyədək övladları avtoxuliqanlıq edən xeyli məmuru işdən qovub. Bu, N.Abdullayevə də şamil olunacaqmı?

**Prezidentin həmin çıxışından sitat:**



"Harınlayırlar, qudururlar, heç kimi saymırlar! Vəzifəli şəxslərin uşaqları qudurğanlıq edirlər, insanları təhqir edirlər, özlərini apara bilmirlər. Kim onlara bu statusu verib cəmiyyətdə?! Onların, necə deyərlər, güvəndiyi adamları mən təyin etmişəm vəzifəyə, mən də çıxaracağam lazım bildikdə. Əgər bir də bilsəm ki, kiminsə ailə üzvü haradasa xuliqanlıq edir, nadanlıq edir, özünü apara bilmir, o adam həbs ediləcək, atası işdən qovulacaqdır. Bunu hamı bilsin! Şəhər küçələrini yarış meydanına çevirənlər də bilsinlər! Hamısı həbs ediləcək! Vəssalam! Daxili işlər naziri gündə mənə məlumat verəcəkdir. Avtoxuliqan, özünü apara bilməyən, ictimai asayişi pozan, qanunlara əməl etməyən, adət-ənənələrimizi yerə vuran hər bir kəs cəzalandırılacaqdır. Onu hamı bilsin!"

Prezidentin bu çıxışından sonra bir Yevlax gömrüyü rəisinin oğlu, polis əməkdaşı Tural Həsənovun və Rahib Abdulbağırovun Zığ şossesində "BMW X6" və "Lada Priora" avtomobilləri ilə saatda 240 kilometri keçən sürətlə yarışa çıxdıqlarını əks etdirən videokadrların sosial şəbəkələrdə, daha sonra saytlarda yayıldı. Ardınca DİN onların hər ikisini həbs etdi. T.Həsənov 20, R.Abdulbağırov 15 sutka azadlıqdan məhrum ediliblər.

Həmçinin T.Həsənov polis orqanlarından qovuldu, atası Əliməmməd Həsənov isə vəzifəsindən çıxarıldı.

Daha bir oxşar olay Suraxanı rayonu, Zığ şossesində baş verdi. Vüqar Abdullayevin idarə etdiyi "VAZ-2106" markalı Az 10 NB 466 nömrə nişanlı avtomobilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi QSC-nin sədr müavini Mübariz Mədətovun oğlu Xalid Mədətovun yüksək sürətlə idarə etdiyi "Mercedes-Benz G-55" markalı, Az 90 FE 007 nömrə nişanlı avtomobilə çırpıldı. Nəticədə "VAZ-2106"da olan sərnişinlər - 1959-cü il təvəllüdlü Brilyant Abdullayeva və 2008-ci il təvəllüdlü Ağasəlim Abdullayev hadisə yerində ölüb, 1950-ci il təvəllüdlü, xalq artisti Ağasəlim Abdullayev və 1984-cü il təvəllüdlü Səadət Abdullayeva isə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Bu olaydan sonra Mübariz Mədətov işdən qovuldu, oğlu Xalid Mədətov isə həbs olundu.

Sonuncu belə olaya qol qoyan Nicat Abdullayevi polis süni tıxac yaradıb saxlamasaydı, hansı nəticə olacağını düşünmək belə ağırdır. Hazırda N.Abdullayevin özünün etdiyi hərəkətlərə qiymət verməsi üçün qarşıda azı 15 günü var...

Onu da qeyd edək ki, bu, N.Abdullayevin ilk məhkumluğu deyil. Məmur-biznesmenin oğlu qonşularla davaya görə bir ay əvvəl də həbsdə olub. Məhkəmə qərarında qeyd olunur ki, valideynləri evin tək övladı olan Nicatı ərköyün böyüdüblər. O, evdə tez-tez dava salır, valideynlərindən külli miqdarda pul tələb edir, ala bilmədikdə isə özünə xəsarət yetirəcəyini deyib evdən qaçırmış. Demək olar ki, hər ay Nicatın hərəkətləri ilə bağlı qonşulardan polisə şikayət daxil olur. O, evdə valideynləri ilə mübahisə etdikdən sonra balkondan gül dibçəklərini qonşuların həyətdə park etdiyi maşınların üzərinə atıb ziyan vurur, söyüş söyüb onları narahat edirmiş. Polisə daxil olan növbəti şikayətdə isə Nicat sahə müvəkkilinə müqavimət göstərib və buna görə də aprelin 8-də Nəsimi Rayon Məhkəməsi ona bir aylıq həbs cəzası verib. Bundan əvvəl isə yanvarın 18-də də Nicat Abdullayevin 30 günlük inzibati həbsi olub. Onun ilk məhkumluğu isə 2014-cü ilin 29 oktyabr tarixində olub. Bu dəfə də o, Xəzər Rayon Məhkəməsi tərəfindən avtoxuliqanlıq etdiyi üçün sürücülük hüququ 1 il müddətinə məhdudlaşdırılmaqla 20 gün inzibati həbs cəzası ilə cəzalandırılıb.

**E.HÜSEYNOV**

# "Parabank"ın həbs etdirdiyi adam türmədə öldü

## Vəfat etmiş şəxsin adına kredit verilməsi qalmaqalı böyüdü

**"Parabank"ın iddiası əsasında həbs olunaraq məhkəməyə çəkilən Yaşar Mehdiyev saxlanıldığı Bakı İstintaq Təcridxanasında qəfildən ölüb. Y.Mehdiyev bank rəsmilərinin iddiası əsasında 3 ay əvvəl həbs olunmuşdu.**

PB PARABANK

Y.Mehdiyev "Parabank"dan yarım milyon manata yaxın vəsaiti kredit şəklində almaqda və mənimsəməkdə ittiham olunurdu. Aznews.az yazır ki, mərhum mayın 23-də Ağır Cinayətlərə Dair Məhkəmədə son söz deyəcəkmiş. Məlumat üçün bildirək ki, bir neçə ay əvvəl "Parabank"ın iddiası əsasında da həbs olunan daha bir məhkumun Bakı İstintaq Təcridxanasında ölməsi ilə bağlı məlumat yayılmışdı.

"Parabank"la əlaqəli digər xəbər isə bank rəsmilərinin bir neçə il əvvəl dünyasını dəyişmiş Bakı sakini Vaqif İbrahimova ölümündən 1 il sonra kredit verilməsi(?!) ilə bağlıdır.

Ölmüş şəxsin adına "Parabank"da kredit verilməsi ilə bağlı ortada olan bildiriş məktubunun araşdırılması üçün mərhum Vaqif İbrahimovun həyat yoldaşı Xəyalə İbrahimova hüquq-mühafizə orqanlarına müraciət edib.

**X.İbrahimovanın vəkili Əziz Qənbərov** "Yeni Müsavat"a bildirib ki, "Parabank" ASC bildiriş məktubunu texniki səhv kimi təqdim edir, amma kreditin təminatı kimi mərhumun mənzilini də ələ keçirməkdən vaz keçmir. "Vaqif İbrahimovun dünyasını dəyişəndən 1 il sonra krediti necə almasını izah etsinlər. Edə bilmirlərsə, əgər bu həqiqətən də bir səhvdirsə, onun mənzilini niyə kreditin təminatı kimi ələ keçirmək istəyirlər?"

**Ə.Qənbərov deyib ki, məsələnin texniki səhv olub olmamasının araşdırılması hüquq-mühafizə orqanlarının işidir:** "Bank rəsmiləri iddia edirlər ki, mərhum Vaqif İbrahimovun həyat yoldaşı ilə rəsmi nikahları yoxdur. Faktiki isə belə deyil. Vaqif İbrahimov Xəyalə İbrahimova ilə 1997-ci il tarixdən rəsmi nikahları var. Bank rəsmisi deyirsə ki, şəxsin subaylıq arayışı var və kredit alınarkən digər sənədlərlə yanaşı bu sənəd də banka təqdim olunub, deməli, bu məsələ də hüquq-mühafizə orqanları səviyyəsində araşdırılmalıdır".

**Qeyd edək ki, ötən saylarımızdan birində "'Parabank'" 1 il əvvəl rəhmətə getmiş şəxsə krediti necə verib? - FOTO-FAKT" sərlövhəli yazı dərc etmişdik. Bundan sonra bank rəsmiləri redaksiyamıza müraciət edərək mərhum V.İbrahimovun adına öləndən 13 ay sonra kredit verilməsini "texniki səhv"lə izah etmişdilər.**

**E.MƏMMƏDƏLİYEV**



Cavanşir Paşazadə

# Deputat Cavanşir Paşazadə həbsdəki şərikinin ittihamları qarşısında susdu

## Müğdət Həşimovla Paşazadələrin imzaladığı şəriklik müqaviləsi ortaya çıxdı; sənəd şərikə faiz borcu ödətdirilməsini də nəzərdə tutur!

**"Yeni Müsavat"ın ötən sayında Bakı İstintaq Təcridxanasında saxlanılan Müğdət Həşimovun məktubunu dərc etmişdik. "Yeni Müsavat"ın 23 may sayında dərc olunan "Allahşükür Paşazadənin adı cinayət işində!!!" sərlövhəli yazıda M.Həşimovun Paşazadələrlə şərikliyindən, ona şərik olaraq verilmiş 700 min manatın müqabilində 800 min manatı qaytarmasından və həbsin sifarişli olmasından bəhs olunurdu.**

M.Həşimov "həbsimin səbəbkarı və sifarişçisi Milli Məclisin deputatı Cavanşir Paşazadədir" iddiasını da irəli sürüb.

Məsələ ilə bağlı **Milli Məclisin deputatı Cavanşir Paşazadə** modern.az saytına yazılanların uydumadan ibarət olduğunu deyib: "Mən elə bir adam tanımıram, tanımaq və adını belə eşitmək istəmirəm".

**Cavanşir Paşazadə "axı siz Müğdət Həşimovla ortaq işləmisiniz" sözlərinə cavab olaraq əlavə şərh vermək istəmədiyini deyib:** "O çox şey deyə bilər, qanun var, qayda var. Kim nə istəyir yazsın, kim də hansı ittihamı istəyir səsləndirsin".

**Deputatın bu açıqlamasından sonra redaksiyamıza M.Həşimovla Paşazadələrin şərikliyini təsdiqləyən sənəd daxil olub. Həmin sənəddə yazılanları təqdim edirik.**

**"Birgə fəaliyyət haqqında müqavilə" adlanan sənədi 6 dekabr 2012-ci ildə Bakı şəhərinin notariusu Elmar Qəzənfər oğlu Əliyev təsdiqləyib.**

Həmin müqavilədə deyilir: Biz aşağıda imza edən: Bakı şəh. M.Nağıyev küç.ev 5-də yaşayan Paşazadə Pakizə Qənbər qızı; Bakı şəh. M.Nağıyev küç. ev 5-də yaşayan Paşazadə Məhəmməd Allahşükür oğlu, Bakı şəh.M. Nağıyev küç. dön. 1. ev 10-da yaşayan Əliyeva Kəmalə Cavanşir qızı; Bakı şəh. N.Nağıyev küç. d. 1, ev 10-da Əliyev Atiq İlyas oğlu bir tərəfdən bundan sonra bu müqavilədə birinci tərəf adlandırılacaq və bundan sonra bu müqavilədə ikinci tərəf adlandırılacaq Bakı şəh. Azadlıq pr. ev 146,mən. 2-də yaşayan Həşimov Müğdət Əhmədiyyə oğlu aşağıdakı məzmunda müqavilə bağladılar:



BIRGƏ FƏALİYYƏT HAQQINDA

MÜQAVİLƏ

Bakı şəhəri altı dekabr 2012-ci il

Biz aşağıda imza edən: Bakı şəh. M. Nağıyev küç.ev 5-də yaşayan Paşazadə Pakizə Qənbər qızı; Bakı şəh. M. Nağıyev küç. ev 5-də yaşayan Paşazadə Məhəmməd Allahşükür oğlu, Bakı şəh.M. Nağıyev küç. dön. 1. ev 10-da yaşayan Əliyeva Kəmalə Cavanşir qızı; Bakı şəh. N. Nağıyev küç. d. 1, ev 10-da Əliyev Atiq İlyas oğlu bir tərəfdən bundan sonra bu müqavilədə birinci tərəf adlandırılacaq və bundan sonra bu müqavilədə ikinci tərəf adlandırılacaq Bakı şəh. Azadlıq pr. ev 146,mən. 2-də yaşayan Həşimov Müğdət Əhmədiyyə oğlu aşağıdakı məzmunda müqavilə bağladılar.

1.1 «Aygün-C» MMC-nin təsisçiləri Paşazadə Pakizə Qənbər qızı, Paşazadə Məhəmməd Allahşükür oğlu, Əliyeva Kəmalə Cavanşir qızı, Əliyev Atiq İlyas oğlu Bakı şəh. Nəsimi r-nu, 668-ci məhəllə, Şövqiyar Abdullayev küçəsi 23 ünvanında yerləşən 1255 kv.m-dən ibarət qeyri-yaşayış sahəsində gələcəkdə tibbi klinika kimi fəaliyyət göstərmək üçün tibbi avadanlıqların alınmasına görə 700000 (yeddi yüz min) manat pul məbləğini Həşimov Müğdət Əhmədiyyə oğluna verməyi öz öhdələrinə götürürlər.

1.2. Həşimov Müğdət Əhmədiyyə oğlu isə öz növbəsində 07.01.2013-cü il tarixdən başlayaraq 06.01.2014-cü il tarixədək hər ay üçün Bank «VTB» ASC-yə 8.740.28 (səkkiz min yeddi yüz qırx manat 28 qəp) faiz borcunu, 06.01.2014-cü il tarixdən 30.11.2017-ci il tarixədək hər ay üçün 19.402.87 (on doqquz min dörd yüz iki manat 87 qəp) aylıq ödəniş etməyi öz öhdəsinə götürür.

2.Tərəflər arasında bu müqavilə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məhkəmə yolu ilə həll ediləcək.

3.Bu müqavilə imzalandığı andan qüvvəyə minir və öhdəlik tam icra olunanadək qüvvədədir.

4.Müqavilənin təsdiqi və rəsmiləşdirilməsi üzrə xərclər M.A. Paşazadə tərəfindən ödənilir.

5.Bu müqavilə Azərbaycan dilində hər biri eyni hüquqi qüvvəyə malik olan 7 nüsxədə tərtib olunmuşdur. Həmin nüsxələrdən biri notariat kontorunda saxlanılır, digərləri isə tərəflərə verilir.

BİRİNCİ TƏRƏF: Paşazadə, Əliyeva

İKİNCİ TƏRƏF:

1.1 «Aygün-C» MMC-nin təsisçiləri Paşazadə Pakizə Qənbər qızı; Paşazadə Məhəmməd Allahşükür oğlu, Əliyeva Kəmalə Cavanşir qızı; Əliyev Atiq İlyas oğlu Bakı şəh. Nəsimi r-nu, 668-ci məhəllə, Şövqiyar Abdullayev küçəsi 23 ünvanında yerləşən 1255 kv.m-dən ibarət qeyri-yaşayış sahəsində gələcəkdə tibbi klinika kimi fəaliyyət göstərmək üçün tibbi avadanlıqların alınmasına görə 700000 (yeddi yüz min) manat pul məbləğini Həşimov Müğdət Əhmədiyyə oğluna verməyi öz öhdələrinə götürürlər.

1.2. Həşimov Müğdət Əhmədiyyə oğlu isə öz növbəsində 07.01.2013-cü il tarixdən başlayaraq 06.01.2014-cü il tarixədək hər ay üçün "Bank «VTB» ASC-yə 8.740.28 (səkkiz min yeddi yüz qırx manat 28 qəp) faiz borcunu, 06.01,2014-cü il tarixdən 30.11.2017-ci il tarixədək hər ay üçün 19.402.87 (on doqquz min dörd yüz iki manat 87 qəp) aylıq ödəniş etməyi öz öhdəsinə götürür.

2. Tərəflər arasında bu müqavilə ilə tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məhkəmə yolu ilə həll ediləcək.

3. Bu müqavilə imzalandığı andan qüvvəyə minir və öhdəlik tam icra olunanədək qüvvədədir.

4.Müqavilənin təsdiqi və rəsmiləşdirilməsi üzrə xərclər M.A.Paşazadə tərəfindən ödənilir.

5. Bu müqavilə Azərbaycan dilində hər biri eyni hüquqi qüvvəyə malik olan 7 nüsxədə tərtib olunmuşdur. Həmin nüsxələrdən biri notariat kontorunda saxlanılır, digərləri isə tərəflərə verilir.

**Bu sənəd artıq heç bir şərhə ehtiyac qoymur...**

❑ **E.HÜSEYNOV**

**P.S.** *Yazıda adı çəkilən hər kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Cümhuriyyətin 100 illiyində Rəsulzadəyə heykəl qoyula bilər

## Qarşıdakı illərdə Bakının mərkəzi yerlərinin birində AXC-nin qurucusunun abidəsini görmək olar



**Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinə iki il qalır. Hər 28 may ərəfəsində Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadəyə Bakıda heykəl qoyulmaması ciddi müzakirə mövzusu olur. Yenə də məsələ gündəmdədir...**

Belə iddialar var ki, 2018-ci ildə, yəni Cümhuriyyətin 100 illiyində görkəmli dövlət xadiminə Bakının mərkəzində heykəl ucaldılacaq. Hazırda yeganə abidəsi doğulduğu Novxanı kəndində olan Rəsulzadənin paytaxtda heykəlinin olmasına qarşı çətin ki, Azərbaycanda kimsə tapılsın. Əvvəlki illərdən fərqli olaraq, Cümhuriyyət banisinə hakimiyyətin də münasibətinin müsbətə doğru dəyişdiyini nəzərə alsaq, səsləndirilən iddialara inanaraq, qarşıdakı illərdə Rəsulzadənin Bakının mərkəzi yerlərinin birində abidəsini görmək olar.

**İqtidaryönlü deputat Zahid Oruc Rəsulzadə ilə bağlı daim müsbət fikirlər səsləndirən şəxslərdən biri olduğunu söylədi:** "Söhbət burada əsasən, Rəsulzadə və Cümhuriyyətin 100 illiyi ilə bağlı başqa hansı addımların atılacağı ilə bağlıdır. Düşünürəm ki, Cümhuriyyətin yaşadılması, həmin respublikanı quranların tarixini, kitablarını oxumaq hər bir halda heykəldir, əbədi xatirədir. Öncəliklə bunu belə qəbul etməliyik. Baxmayaraq ki, Azərbaycanda bu məsələ ətrafında daim problemlərin olması ilə bağlı fikirlər söylənilir. Belə fikirlər səsləndirənlər düşünürlər ki, Rəsulzadəyə qarşı hansısa bir qısqanclıq var. Amma bu mövzuda danışanlardan biri olmuşam. Fikirlərimi indi də təkrar söyləmək istəyirəm ki, o dövrdə gerçəkdən bu fədakar insanlar Azərbaycanın istiqlaliyyəti üçün təmənnasız, eyni zamanda mərd, mübariz bir fəaliyyət apardılar və Azərbaycan sadəcə coğrafi məkan deyil, beynəlxalq hüququn təmsilçilərindən biri kimi meydana çıxdı. Bu, o şəxslərin xidmətləri idi. Bunu heç kəs dana bilməz, inkar etməyə gücü çatmaz. Buna əlavə söz artıq olar. Lakin hər kəs bilməlidir ki, Cümhuriyyətin süquta uğraması nə indiki, nə də bundan əvvəlki hakimiyyətlərin günahı olmayıb. Bizim sovetin tərkibinə keçməyimizi, ölkəmizdə bolşevik ideyalarının yayılmasını heç kim Cümhuriyyət qurucularının fəaliyyətlərinin davamı kimi qəbul edə bilməz. Birinin simvolu çəkic və oraqdan, digərinki isə üçrəngli bayraq və 8 guşəli ulduzdan ibarət idi. Şərqdə ilk demokratik dövləti həmin şəxslər qurublar. Rəsulzadə və silahdaşları barədə danışanda deyirəm ki, o dövləti onlar qurublar, indiki dövlətimizi isə Heydər Əliyev qurub. Bu açıq şəkildə belədir. Tarixdə bu böyük insanlar arasında mübahisə yoxdur. Heç kəs bu tarixi adlara subyekt olaraq, iddia edə bilmir. Bunlar artıq tarixi kateqoriyalardır. 1993-cü ildəki xaosa görə bəzi müxalif nöqtələr saxlanılmalı oldu. Heydər Əliyev dövləti qurarkən sadəcə atributlara söykənmədi. O dövrdə elə bir dövlətimiz əleyhinə olan amillərin qarşısını aldı ki... Bu gün əminliklə deyirik, yalnız bayraqla dövlət qurula bilməzdi. Rəsulzadəyə heykəl qoyulub və ya qoyulmaması dövlət və parlamentin bir nömrəli vəzifəsi olmaqdan daha çox onların yaşadılması önəmli olmalıdır. Əlbəttə, onların adlarının əbədiləşdirilməsi üçün daha çox tədbirlər görülə bilər. Cümhuriyyətimizin xatirinə qoyulmuş məlum abidə onların hər birinə olan ehtiramı özündə ehtiva edir. Konkret şəxslərə yönəlik qərarlar dövlət tərəfindən verilə bilər. 27 may tarixində "Buta" şadlıq sarayında Cümhuriyyətin yaradılmasının növbəti ili geniş şəkildə qeyd olunacaq. 2018-ci ilə kimi daha geniş tədbirlər reallaşdırılacaq. Əsas olan indiki müstəqilliyimizin qurban verilməməsidir. Mənə elə gəlir ki, Rəsulzadə də bu dövrə həmin illərdəki yanaşmalarından yanaşaraq, belə qiymət verərdi".

**Tarixçi alim Mehriban Vəzir Rəsulzadəyə heykəl qoyulacağına ümid etmir:** "Düşünmürəm ki, indiki hakimiyyətin olduğu sürəcdə Rəsulzadəyə həqiqi qiymət verilsin. Həqiqi qiymət təkcə heykəl qoymaqla deyil. Bu bütöv sistemdir. Çox ciddi bir məsələdir. Dövlətin əsas siyasətlərindən birinə çevrilməlidir. İndiki hakimiyyətin nümayəndələri yalnız xaricdə olanda Cümhuriyyətlə fəxr edirlər. İlk dəfə müsəlman aləmində, Şərqdə respublika qurulması ilə öyünürlər. Ölkənin daxilində isə tamam başqa cür fikirlər səsləndirilir. İkili bir siyasət yürüdülür. Rəsulzadə ilə hazırkı hakimiyyət sistem olaraq biri-birilərinin əksidir. Bu baxımdan, ümidli deyiləm. Rəsulzadənin əslində qiyməti verilib. Sizin sual verməyiniz, mənim cavablarım, ictimai müzakirələrdə bu məsələnin səslənməsi, insanların axın-axın onu yad etmək üçün Novxanıya getmələri əslində verilən qiymətdir. Sadəcə, xalqın qiymətidir. Amma Rəsulzadəyə siyasi qiymətin verilməsi, görünür, gələcəyə bağlıdır".

❑ **Cavanşir ABBASLI**

# İqbal Ağazadənin hələlik 5 rəqibi var



İqbal Ağazadə

**90 saylı Ağdaş dairəsindən Milli Məclisə təkrar seçkiyə qatılan Ümid Partiyasının sədri İqbal Ağazadənin namizədliyi qeydə alınıb. Mərkəzi Seçki Komissiyasının sözçüsü Şahin Əsədli mayın 23-də transparency.az-a bildirib ki, dairədə daha 5 namizəd var: "Qeydə alınan digər namizədlər Yeni Azərbaycan Partiyasından Cavid Osmanov, müstəqil namizədlər Əli Haqverdiyev, Anar İbrahimli, Rəşid Gözəlov, Rəşad Abdullayevdir".**

Azərbaycanda son parlament seçkisi 2015-ci ilin noyabrında 125 dairə üzrə keçirilib. Milli Məclisə 124 nəfər seçilib. 90 saylı Ağdaş seçki dairəsi üzrə seçkinin nəticəsi ləğv olunub.

Aprelin 12-də prezident İlham Əliyev 90 saylı dairə üzrə Milli Məclisə təkrar seçkinin keçirilməsi barədə sərəncam imzalayıb. Seçki bu il iyunun 18-nə təyin edilib.

İqbal Ağazadə 2015-ci ilədək Milli Məclisin üzvü olub. O, 2000-ci ildə 10 saylı Xətai dairəsindən mandat alıb, 2005, 2010-cu illərdə 35 saylı Xətai dairəsindən deputat seçilib. Ötən il noyabrın 1-də İqbal Ağazadə yenidən həmin dairədən namizəd olub, amma seçki yarışından ASDP sədri Araz Əlizadə qalib çıxıb.

İqbal Ağazadə 1969-cu ildə Füzulidə doğulub. Bakı Dövlət Universitetinin şərqşünaslıq, Kiyev Dövlət Universitetinin hüquq fakültələrini bitirib. 2002-ci ilin dekabrından Ümid Partiyasının sədridir.

90 saylı Ağdaş dairəsindən Milli Məclisə təkrar seçkiyə qatılan iddiaçıların qeydə alınmaq üçün sənədləri təhvil vermə müddəti mayın 19-da bitib, namizədliyi təsdiq olunan 14 nəfərdən 11-i imza vərəqələrini geri qaytarıb. Dairə seçki komissiyasında imzaların yoxlanması prosesi davam edir. Mayın 26-da isə seçkiqabağı təşviqat prosesinə start veriləcək.



# De-Fakto başqanlıq sistemi Türkiyəyə nə vəd edir?

**Hüseynbala SƏLİMOV**

**Ayın son günlərinin narahatlığına bir məsələ də qarışmışdı - Türkiyədə yenə də hökumət məsələsi meydana çıxmışdı. Düzdür, bu, daha bir hökumət böhranı deyildi, çünki hər şey bir partiyanın çərçivəsində həll olunacaqdı. O partiyanın ki, onun təkbaşına hökumət qurması üçün parlamentdə kifayət qədər resursları var. Ona görə də məsələ daha çox Türkiyənin daxili üçün önəmli idi...**

Amma onu xaricə də inversiya etmək cəhdləri oldu. Məsələn, belə sual yarandı ki, görən, bunun Azərbaycan üçün hansı nəticələri olacaq? Belə hesab edirik ki, bu sual daha çox ritorik məzmun kəsb edir. Ona görə ki, indi faktiki olaraq R.T.Ərdoğan hakimiyyətinin güclənməsi prosesi gedir. Onun isə Azərbaycana münasibəti bəlli...

Elə bu səbəbdən də Azərbaycan üçün narahatlıq keçirmir, vurnuxmuruq. Düşünürük ki, bu prosesin bəlkə də bölgə və yaxud da dünya üçün hansısa nəticələrindən danışmaq olar, amma Azərbaycan üçün bir o qədər də aktual deyil. Olsa-olsa, bizim məmurlarımızın hansısa birinin mövqeləri möhkəmlənə bilər, çünki iki ölkə arasındakı münasibətlər o qədər yaxınlaşıb ki, müvafiq nazirlər biri-birilə tez-tez görüşür və beləcə, ünsiyyət və əlaqə yaranır...

Dünya məsələsinə gəldikdə isə, hamı Türkiyədəki avtroirtarlaşma meyllərindən narahatdır - yeni baş nazir prezidentdən daha asılı olacaq.

Hətta B.Yıldırım dedi ki, onun komandası prezidentlə daha sıx işləyəcək. Bəlli məsələdir ki, Ərdoğan başqanlıq sisteminin bərqərar olmasına və hakimiyyətinin güclənməsinə, hökumətin faktiki olaraq öz əlinə keçməsinə cəhd edir. Təbii ki, bu məsələ ölkədə keçiriləcək refendumda çözülə bilər. Amma Ərdoğanın səbri çatmır. O, böyük hakimiyyətə və böyük səlahiyyətlərə bir növ alışıb. Həm də prosesi sürətləndirməyə cəhd edir. Ə.Davudoğlu bu məqsədlər üçün bir o qədər də uğurlu lider deyildi, ona görə ki, o, özü də lider idi... Ərdoğan isə baş nazirdən yalnız məmurluq tələb edir. B.Yıldırım bu missiya üçün daha uğurludur. Ona görə də seçim onun üzərində dayanmışdı. Həm siyasi liderlik, həm də ki, ideoloqluq cəhətləri olan Ə.Davudoğlu prezidentin, necə deyərlər, "qoltuğu"nun altına sığmırdı. Elə ona görə də kənara çəkilməli idi...

Təbii ki, Ərdoğan güclü liderdir. Amma dəfələrlə yazmışıq ki, o, avtoritar liderdir. Bunun hansı fəsadlar törədəcəyi, Türkiyə üçün hansı nəticələrə gətirib çıxaracağı artıq müzakirə predmetidir...

Məsələn, mənim üçün maraqlısı odur ki, niyə parlament idarəçilyi Böyük Britaniya üçün uğurludur? Niyə Almaniya bundan əl çəkmir? Belə hesab edirik ki, başqanlıq sisteminə keçid məsələsi daha çox Ərdoğanın şəxsi canatım və simpatiya məsələsidir...

Türkiyədəki bugünkü demokratiya müəyyən mənada parlament idarəçiliyinin nəticəsi idi. Yox, demirik ki, prezindent idarəçilik üsulu daha yöndəmsizdir və demokratiyanı boğur. Amma bu sistem daha çox avtoritarlığa aparır...

Məsələn, mənə Türkiyənin siyasi həyatında ən çox ləzzət edən, bilirsiniz, nə idi? Hər dəfə parlament seçkisi olanda telekanallar, bu kanallardakı mahir təhlilçilər çox böyük şövqlə seçkilərin gedişini və nəticələrini şərh edirdilər...

İndi bu da bir az mübahisəli görünür. Düzdür, prezident respublikalarında prezident seçkiləri də böyük hadisədir. Həm də başqanlıq sistemi hələ konstitusion olaraq təsbit olunmayıb. Hətta məlum deyil ki, Ərdoğan bu məqəsdini həyata keçirə biləcəkmi?..

Amma bütün hallarda bizim simpatiyamız parlament idarəçiliyinin tərəfində qalır. Hətta belə hesab edirik ki, o, bizi iki dəfəlik məhdudiyyət prinsipindən məhrum olan prezidentlik idarəçiliyinin yaratdığı mənəvi iztirablardan qurtara bilərdi, çünki parlament idarəçiliyində baş nazir üçün məhdudiyyət olmaya da bilər, bir adam bir neçə dəfə seçilə bilər...

Hesab edirik ki, bu, indiki vəziyyətdən daha uğurlu olardı. Amma nə etmək olar? Bu da həyatdır. Həm də söhbət Azərbaycandan getmirdi, ən azı ona görə ki, onun "demokratiyası" hamıya bəllidir...

Bəli, söhbət Türkiyədən gedir. Orada müəyyən qədər demokratiya var və adam da onun itirilməsindən qorxur. Amma izafi qədər bədbin də olmayaq. Bəlkə hər şey daha yaxşı olacaq?

İndi biz daha çox bir partiya hökumətinin yaratdığı "incəlik"lərin şahidiyik, onları müzakirə və müşahidə edirik...

Ümid edək ki, hər şey çox yaxşı sonluqla bitəcək. Çox güman ki, belə də olacaq...



# "AKP-nin qurultayına İstanbulda səfərdə olarkən dəvət edildim"

## AKP-nin qurultayında iştirak edən Cavid Qurbanov İstanbuldan "Yeni Masavat"a danışdı

## "Azərbaycan Dəmir Yolları" QSC-nin rəisi: "Türkiyənin yeni baş naziri Binəli Yıldırımla ailəvi dostuq, çox yaxın münasibətimiz var"

**Türkiyənin hakimiyyətdə olan Ədalət və İnkişaf Partiyasının (AKP) mayın 22-də Ankarada keçirilən qurultayında ölkəmizdən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin sədri, deputat Cavid Qurbanov iştirak edib. Mayın 23-də İstanbulda olan Cavid Qurbanovla telefon əlaqəsi yaratdıq. "Yeni Müsavat"a müsahibəsində Cavid Qurbanov AKP-nin qurultayı, Binəli Yıldırımla şəxsi dostluğu, baş nazir dəyişikliyinin Türkiyə və Azərbaycan üçün əhəmiyyəti və digər məsələlər barədə maraqlı açıqlamalar verib.**

**- Cavid bəy, AKP-nin qurultayı necə keçdi, təəssüratlarınız necədir?**

- Türkiyənin hakim partiyasının qurultayı çox yüksək səviyyədə keçdi. Çox möhtəşəm bir qurultay oldu. Təəssüratlarım həddən artıq yüksəkdir. Binəli Yıldırıma AKP-nin, AKP deputatlarının çox böyük sevgisinin olduğunu gördüm. 146 deputatdan 140-ı Binəli Yıldırımın baş nazir olmasına səs verdi. Qurultayda böyük bir coşğu var idi. AKP üzvlərinin seçimlərinin Türkiyəyə və AKP-yə daha böyük uğurlar gətirəcəyinə əminəm.

**- Binəli Yıldırım uzun illər Türkiyənin nəqliyyat, dənizçilik və kommunikasiya naziri işləyib. Onunla demək olar ki, həmkar olmusuz. Dostluq münasibətləriniz var?**

- Binəli Yıldırımla bərabər işləmişik. Ailəvi dostluğumuz var. Binəli bəy Azərbaycana çox böyük sevgisi olan gözəl bir insandır. Şübhəsiz ki, Türkiyə Cümhuriyyəti Azərbaycanın yaxın dostudur. Cənab prezidentimizlə Türkiyənin cümhurbaşqanı arasında yaxın dostluq münasibətləri var. Binəli Yıldırımla da hörmətli prezidentimiz dostdurlar. Əsas bunlardır. Bütün bunlara görə əminəm ki, yeni baş nazirin gəlişi iki qardaş ölkə arasında əlaqələri daha da möhkəmləndirəcək. Türkiyə həmişə Azərbaycanın yanındadır və bundan sonra da yanında olacaq.

**- Siz Azərbaycandan tək şəxs idiniz AKP qurultayında iştirak edirdiniz? Söhbət rəsmi şəxs olaraq iştirakdan gedir.**

- Türkiyəyə işgüzar səfərə gəlmişdim. İstanbula qurultayda iştirak üçün gəlməmişdim. Mən İstanbula gələndə Binəli Yıldırım nazir idi və onunla görüşüm oldu. Xahiş etdi AKP-nin qurultayında iştirak edim. Gördüm ki, vaxtım var, iştirak etdim. Məni özünün yanında otuzdurmuşdu. Çox sağ olsun. Bizi çox hörmətlə qarşıladılar. Qonaqların təqdimatında sıra bizə çatanda kürsüdən bəyan edildi ki, burada can Azərbaycandan qonaqlarımız iştirak edir. Bu, Türkiyənin Azərbaycana olan sevgisinin göstəricisidir. Onlar əksər vaxt can Azərbaycan deyirlər bizim ölkəyə. Bu da bizə özəl münasibətin, sevginin, sayğının izharıdır.

**"Qurultayda qonaqların təqdimatında sıra bizə çatanda kürsüdən bəyan edildi ki, burada can Azərbaycandan qonaqlarımız iştirak edir. Bu, Türkiyənin Azərbaycana olan sevgisinin göstəricisidir"**

**- Cavid Qurbanovun yaxın dostu və həmkarı Türkiyə kimi böyük bir dövlətin baş naziri oldu. Bu hadisədən şəxsi və ümumi planda nə gözləyirsiniz?**

- Burada nə var ki? Gürcüstanın nəqliyyat və infrastruktur naziri bu yaxınlarda baş nazir oldu. Onunla da yaxın dostuq. Mən dostlarımın yaxın qonşu və dost ölkələrdə baş nazir postunda təmsil olunmalarına çox müsbət yanaşıram. Amma əsas məsələ cənab prezidentimizin həmin ölkələrin rəhbərləri ilə dostluq, əməkdaşlıq münasibətlərinin yüksək olmasıdır.



**- Biz o baxımdan dostluq münasibətləri faktorunu qabartdıq ki, şəxsi münasibətlər dövlətlərarası münasibətlərdə çox ciddi rola malikdir.**

- Bilirsiniz ki, dövlətlərarası münasibətləri cənab prezident müəyyən edir. Biz, sadəcə, icraçılarıq.

Mən bugünlərdə İstanbulda görüşlər keçirdim. Həmin görüşlərdən biri də Almaniyanın nəhəng beynəlxalq daşımaçılıq şirkəti olan DHL-nin Çin üzrə rəhbərləri Stiven Hank və Kərəm İnanc ilə oldu. Onlarla protokol imzaladıq. İlkin razılaşmaya əsasən DHL tranzit yükləri Azərbaycan üzərindən daşısın. Bakıdan keçməklə Avropaya, Asiyaya, Rusiyaya və başqa yerlərə yüklər daşınsın. Bizim əsas məqsədimiz odur ki, Bakını bir mərkəzə çevirək, bütün yüklər Bakıya toplansın və burdan paylansın. Əsas məsələlərdən biri də Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişinin başa çatdırılmasıdır. Bu, vaxtında gözəl düşünülmüş bir böyük siyasətdir. Bakı-Tbilisi-Qars layihəsi cənab prezident İlham Əliyevin Azərbaycana bəxş elədiyi çox böyük iqtisadi qan damarlarından olmaqla yanaşı, Azərbaycanın neftsiz inkişafının sütunlarından birinə çevriləcək. Biz bunun üzərində işləməliyik. Biz bu işi həyata keçirməliyik. Mən Rusiya Federasiyasının Dəmiryolları İdarəsinin vitse-prezidenti Pavel İvanovla görüşəndə o dedi ki, bizim də gözümüz Bakı-Tbilisi-Qars dəmir yolu xəttindədir, buradan istifadə etmək istəyirik. Belə bir fikri ilk dəfə idi ki, ruslardan eşidirdik. Mən İvanova dedim ki, Azərbaycanla Ermənistanın daha bir fərqi ondadır ki, biz istəyirik Türkiyə ilə Rusiyanı dost edək, Ermənistan istəyir ki, Türkiyə ilə Rusiyanı düşmən etsin.

**"Almaniyanın nəhəng daşımaçılıq şirkəti DHL-in Çin üzrə rəhbərləri ilə görüşdüm, protokol imzaladıq. Şirkət beynəlxalq yüklərin müəyyən hissəsinin Azərbaycan üzərindən çatdırılmasını həyata keçirmək istəyir"**

**- Binəli Yıldırımın baş nazir olması Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin çəkilişinin yekunlaşmasına bir təkan olacaqmı?**

- Əlbəttə, yüz faiz olacaq. Çünki Binəli Yıldırım əvvəldən bu məsələnin içindədir, bu işlərin həyata keçməsi işi ilə birbaşa məşğul olmuş adamdır. Ümumiyyətlə, Binəli Yıldırım əsl təsərrüfat adamı, gözəl təşkilatçıdır.

**- Elə biz də bu məsələyə gəlmək istəyirdik. Əhməd Davudoğlu təsərrüfat adamı deyildi, ideoloji bir şəxs idi. İdeoloji baş nazirin təsərrüfatçı baş nazirlə əvəz edilməsi Türkiyə iqtisadiyyatına, sizcə, nə verəcək?**

- Türkiyənin onsuz da xarici və daxili siyasətini preziden Rəcəb Tayyib Ərdoğan aparır, müəyyən edir. İqtisadiyyatın inkişafı üçün isə təsərrüfatçı bir şəxsin baş nazir olması hesab edirəm ki, daha sərfəlidir.

**- Yəni baş nazir postu siyasi postdan daha çox iqtisadi, təsərrüfat postuna çevrilir?**

- Bunu dəqiq deyə bilmərəm. Sadəcə, bir faktı söyləyə bilərəm ki, Binəli Yıldırım qurultayda çıxışında konstitusiya dəyişikliyi və ölkənin prezident üsul-idarəçiliyinə keçməsinə çalışacağını dedi. Necə olacağını isə zaman göstərəcək.

❑ Azər AYXAN,
❑ Etibar SEYİDAĞA

**"Rusiya Dəmiryolları İdarəsinin vitse-prezidenti Pavel İvanov mənə dedi ki, bizim də gözümüz Bakı-Tbilisi-Qars dəmir yolu xəttindədir, buradan istifadə etmək istəyirik"**

**Türkiyədəki baş nazir dəyişikliyi Azərbaycanda ənənəvi olan bir məsələni yenə aktuallaşdırıb. 20 ildir Azərbaycanın baş naziri postunda əyləşən 81 yaşlı Artur Rasi-Zadə ilə hakimiyyətin hələ də vidalaşmaması bir daha gündəmə gəlib.**

# Türkiyədə 7-ci baş nazir, bizdə isə hələ də o...

## Ən yaşlı və uzunömürlü Rasi-Zadə nə zaman gedəcək?

Təsadüfi deyil ki, Rasi-Zadənin baş nazirliyi dönəmində qardaş Türkiyə 7 dəfə ikinci postunda olan şəxsi dəyişib. Qonşu ölkələr içərisində ən yaşlı baş nazir olmaqla yanaşı, eyni zamanda Artur müəllim ən uzunömürlü baş nazirdir. Bu şəxsi hakimiyyət üçün dəyişməz edən səbəblər müəmmalı olaraq qalmaqdadır. Doğrudur, ölkənin ikinci şəxsini bir anda dəyişmək istənilən hakimiyyət üçün asan məsələ deyil. Amma ən azından son 20 ildə buna cəhdlər edilə bilərdi. Bunu biz görmədik.

20 ildir iqtidarın dəyişməz kadrı olan, bəzən aylarla üzdə görünməyən Rasi-Zadənin yerinə iddiaçı olan şəxslər də zaman-zaman olub. Amma heç biri bu postu tuta bilməyib. Hətta baş nazirliyə iddiaçı şəxslərin "vurulması" proseslərinin də şahidi az olmamışıq son 20 ildə...



Hansı şəxsin baş nazir olacağı barədə xəbər yayılan kimi ya ölkə daxilindən, ya da xaricindən gözəgörünməyən qüvvə həmin şəxsi sıradan çıxarır. Son olaraq, bunu maliyyə nazir Samir Şərifovun timsalında gördük...

**Ümid Partiyasının sədri İqbal Ağazadə hesab edir ki, baş nazir postunda iqtidara Rasi-Zadə kimi şəxs lazımdır:** "Lazım olmayacağı təqdirdə, Artur Rasi-Zadəni uzaqlaşdırmaq hakimiyyət üçün elə də çətin olmayacaq. O çıxanda ölkədə heç bir siyasi kataklizmlər baş verməyəcək, iqtisadiyyata ciddi zərbə vurulmayacaq, yeni inflyasiya dalğası yaranmayacaq. Sadəcə, indiki şəraitdə hakimiyyətə bu şəxs lazımdır. Onun vəzifədə qalması da, getməsi də mümkündür. Bu, hakimiyyətin istəyinə bağlıdır. İradədən çox şey asılıdır. Qonşu ölkələrlə Azərbaycan arasında ciddi fərqlər var. İstər baş nazir, istərsə də parlamentin funksiyaları ilə bağlı. Tutaq ki, mayın 22-nə qədər Türkiyədə baş nazir vəzifəsi hakimiyyətin ən ciddi qollarından biri idi. Davudoğlunun istefası və Binəli Yıldırımın gəlişi bu sindromu tamamən qırdı. Hamıya aydın oldu ki, orada baş naziri parlament yox, prezident təyin edir. Onun baxışlarına, istəyinə uyğun gəlməyən istənilən şəxsi baş nazirlikdən də, partiya sədrliyindən də çıxara bilər. Bu yaxşı tendensiya deyil. Çünki hakimiyyətin bölünməsi demokratiyanın göstəricilərindən biridir. Türkiyədə son seçimlərdə buna xələl gəldi. Gələcək baxımından müsbət sonucları olmayacaq. Azərbaycanda isə baş nazirliyin elə də ciddi funksiyası yoxdur. Sadəcə, icraedici orqanın zəif bir qoludur. Bu baxımdan Artur Rasi-Zadənin dəyişib-dəyişməməsinin elə də böyük rolu yoxdur".

**Ümid sədri hakimiyyətin baş nazirlikdə kimin olması ilə bağlı "kadr qıtlığı" yaşamadığını düşünür:** "İqtidar bu məsələdə kadr yoxluğu yaşadığını düşünmürəm. Çünki Rasi-Zadə indi necə fəaliyyət göstərirsə, onu əvəzləyəcək şəxs də o cür fəaliyyət göstərəcək. Çünki bu post aparıcı institut deyil ki, xüsusi istedada malik şəxs olsun. Bu baxımdan "kadr qıtlığı" ola bilməz. Hakimiyyət belə istəyir. Necə sərfəlidirsə, o cür də hərəkət edilir".

❑ **Cavanşir ABBASLI**

# Vyana görüşü-müharibə faktoru aradan qalxdımı?

## Qərb neft kəmərlərinə görə müharibə istəmir; **Elxan Şahinoğlu:** "Azərbaycanla Qərbin maraqları kəsişir"

**Azərbaycan və Ermənistan prezidentləri arasında ABŞ, Rusiya, Fransanın xarici siyasət idarələri başçıları və ATƏT-in Minsk Qrupunun iştirakı ilə baş tutan Vyana görüşündən sonra müharibə faktorunun aradan qaldırıldığı barədə fikirlər dolaşır. Xüsusilə atəşkəs pozulan zonalarda kameraların quraşdırılması qərarının verilməsi bu fikirləri daha da möhkəmləndirib.**



Vyana görüşündən sonra belə iddialar var ki, Rusiya və havadarı olduğu Ermənistandan daha çox Qərb regionda müharibənin olmasını istəmir. Əksər ekspertlər buna səbəb kimi neft kəmərlərini və Qərbin marağında olan digər sahələri göstərirlər. Çünki ABŞ başda olmaqla, Avropa dövlətləri yaxşı bilirlər ki, müharibə başlasa, ilk növbədə, neft kəmərlərinə təhlükə yaranacaq.

**Politoloq Elxan Şahinoğlu** hesab edir ki, Vyana görüşü müharibə faktorunu aradan qaldırmayıb: "Növbəti görüşə qədər bu proses davam edəcək. Yəni hər iki tərəf atəşkəsə əməl edəcək. Gələn aydakı görüş nəticəsiz qalsa, Vyana görüşünün əhəmiyyəti itəcək. İyunun sonundakı növbəti görüşü gözləməliyik. Qərb dövlətləri Cənubi Qafqazda müharibə olmasında maraqlı deyillər, sabitlik istəyirlər. Çünki regionda gərginlik onlara da sərf etmir. Enerji və digər resurslar burada mühüm rol oynayır. Apreldəki döyüşlər bunu sübut etdi. Amma Azərbaycanın enerji layihələrindən daha çox torpaqlarının işğaldan azad edilməsində israrlıdır. Qərbin hazırda problemləri çoxdur. Onsuz da İraq, Suriya və digər yerlərdə müharibə ocaqları var. Cənubi Qafqazda da bir müharibə ocağı yaransa, Qərb üçün asan olmayacaq. Azərbaycan və Ermənistan arasındakı müharibənin nə ilə nəticələnəcəyini indidən düşünmək elə də çətin deyil. Çünki bu proseslərdə Rusiyanın marağı daha çox olacaq. Bu baxımdan Qərb müharibə istəmir və münaqişənin dondurulmasının tərəfdarıdır".

**Politoloq Azərbaycanla Qərbin maraqlarının üst-üstə düşdüyünü də qeyd etdi:** "Əslində Azərbaycanla Qərbin maraqları kəsişir. Biz də uzunmüddətli atəşkəsə razıyıq, amma torpaqlarımız işğaldan azad olunduqdan sonra. Amma bu şəkildə davam edə bilməz. Torpağın işğalda qalsın, uzunömürlü sabitliyə razı ol, bu mümkün deyil".

❑ **Cavanşir ABBASLI**

# "Neftin bahalaşması üçün siyasi əsaslar yarana bilər"

## Ekspertlərin neft bazarı ilə bağlı proqnozları fərqlidir; **Natiq Əliyev:** "Bu il neftin qiyməti 60 dolları keçməyəcək"

**Dünya bazarında neftin proqnozlaşdırılan qiyməti ətrafında aparılan müzakirələr davam etməkdədir. Əksər ekspertlər neftin qiymətinin artmayacağını vurğulasalar da, bəziləri "qara qızıl"ın bahalaşacağını ehtimal edirlər. Son olaraq Azərbaycanın energetika naziri Natiq Əliyev ANS-ə müsahibəsində bildirib ki, dünya bazarında neftin qiyməti bu il ərzində 60 dollar/barel həddini keçməyəcək. "Dohada neft hasilatının müəyyən səviyyədə dondurulması ilə bağlı keçirilən görüşdə heç bir qərarın qəbul olunmamasına baxmayaraq, neftin qiyməti qalxmağa başladı və 49 dollar/bareli keçib. Hesab edirəm ki, qiymət ilin axırına kimi bir az artacaq. Amma bu il neftin qiyməti 60 dollar (bareli keçməyəcək. Çünki 60 dollar) bareli keçən kimi yenidən başqa proseslər baş verəcək və artıma imkan verməyəcək",- deyə N.Əliyev qeyd edib (report). Nazir əlavə edib ki, bu il neftin qiymətinin kəskin surətdə artımı gözlənilmir. N.Əliyev 2017-ci ildə neftin qiymətinin daha 5-10 dollar bahalaşa biləcəyini hesab edir.**



ABŞ-da neft qiymətlərinin OPEC üzvlərinin hasilatında artım və şist nefti istehsalının yaxşılaşmasına bağlı olaraq 2020-ci ilə qədər 50-60 dollar/barel intervalında qalmasını gözlədiyini bildirib.

**Qeyd edək ki, bir neçə gün əvvəl "Goldman Sachs" şirkəti açıqlama yayaraq bildirib ki, şist nefti istehsalı qiymətlərin yüksəlməsini əngəlləyəcək:** "Buna görə neftin qiymətinin 2020-ci ilə qədər 50-60 dollar/barel aralığında qalacağını düşünürük". Beynəlxalq Enerji Agentliyinin baş direktoru Fatih Birol isə neft qiymətlərində artım proqnozlaşdırır: "Cari ilin yanvar ayında neft qiymətləri 30 dollar ətrafında dəyişirdi, lakin hazırda 50 dollara yaxınlaşıb. Yeni vəziyyət bizim proqnozlaşdırdığımız kimidir". Neftin bahalaşmasının səbəblərinə toxunan baş direktor bildirib: "Buna səbəb anbarlarda, xüsusən də ABŞ "stock"larında neft ehtiyatlarının azalmasıdır. Başqa sözlə, bazarda olan neftin həcmi azalıb, tələb isə artıb. Bundan başqa, Kanadada neftlə zəngin olan ərazilərdə yanğının baş verməsi və Nigeriyada neft platformalarına terrorçuların silahlı hücumu nefti bahalaşdırır". **F.Birol qeyd edib ki, 2017-ci ildə neftin daha da bahalaşacağını proqnozlaşdırır:** "Əlbəttə, bu, bir çox neft hasil edən ölkələr üçün yaxşı xəbərdir. Təbii ki, hazırkı qiymətlər bir çox ölkələr, məsələn, Rusiya üçün yetərli deyil. Lakin son 3-4 ay ərzində baş verən 20 dollarlıq bahalaşma onlar üçün yaxşı xəbərdir".

**Ekspert Qubad İbadoğlu isə məsələ ilə bağlı musavat.com-a bildirib ki, neftin qiyməti 2016-cı ildə kəskin bahalaşmayacaq, çünki bunun üçün səbəblər yoxdur:** "Qiymətlər təbii ki, indiki səviyyədə qərarlaşacaq. Bu ətrafda qiymətdə müəyyən dəyişikliyi müşahidə etmək mümkündür, dəyişiklik qiymət azalması istiqamətində ola bilər. Proqnozlar var ki, neftin qiyməti yüz dollar, yaxud hətta iki yüz dollar ola bilər, bu fikirləri bölüşmürəm. Əsas da yoxdur. Neftin qiymətinin bahalaşması üçün siyasi əsaslar yarana bilər. Bir anda da baş verə bilər. Həm regiondakı vəziyyətin gərginləşməsi şərtləri dəyişə bilər. Amma istənilən halda digər şərtlər dəyişmir, indiki şərtlər daxilində neft 50-60 dollar ətrafında, o da ən yaxşı halda dəyişə bilər".

Qeyd edək ki, Böyük Britaniyanın "Financial Times" qəzeti dünya bazarında neftin qiymətinin artıb-azalması barədə beş faktoru açıqlayıb. Birinci faktor ondan ibarətdir ki, Nigeriyada terrorçular neft mədənlərini və neft kəmərlərini dağıdıblar. Neft hasilatı 40 faiz aşağı enib. Xaricə neft ixracı isə minimum həddə çatıb. Venesuelada isə fövqəladə vəziyyət elan edilib. İkinci faktor Kanadada baş verən meşə yanğınlarıdır. Meşə yanğınları nəticəsində neftçilərin düşərgəsi tam məhv olub. Neft hasilatı və ixracı kəskin şəkildə aşağı düşüb. Üçüncü faktor odur ki, böyük neft ehtiyatlarına malik olan Səudiyyə Ərəbistanında neft hasilatı və ixracı maksimum artıb. Lakin yay fəslinin gəlməsi ilə əlaqədar ölkədə elektrik enerjisinə tələbat yüksək dərəcədə artıb. Dördüncü faktor ABŞ-ın Energetika Nazirliyinin proqnozu olub. Proqnoza görə, ABŞ neft hasilatını hər gün 9,4 milyon barel azaldıb. 2017-ci ildə isə neft hasilatı hər gün 8,2 milyon barel azaldılacaq. Beşinci faktor fond və birjalarla bağlıdır. 2016-cı ilin yanvar ayında neftin bir barelinin qiyməti 30 dollardan da aşağı düşmüşdü.

Küveytin neft naziri Anas əl-Saleh isə bildirib ki, 2016-cı ilin sonlarında dünya bazarında neftin qiyməti balanslaşdırılacaq və bir bareli 50 dollara satılacaq. Küveyt hökuməti rəsmiləri ilin 3-cü və 4-cü rüblərində neftin qiymətinin 50 dolları keçəcəyini söyləyib. Bunun səbəbi kimi neft xammalına olan tələb və təkliflərin tərəddüdlü qiymət dəyişməsini göstərilib. "Bloomberg"in xəbərinə görə, Anas əl-Saleh qeyd edib ki, Küveyt hökuməti neft hasilatını artırmağa davam edəcək. Nazirin fikrincə, 2016-cı ilin sonuna kimi neftin qiyməti 50 dollardan aşağı düşməyəcək. Nazir bazardakı "qara qızıl"ın qiymətlərindən razı olduğunu, bunun ölkəsi üçün əlverişli vəziyyət yaratdığını deyib. Qiymətin artmağına səbəb kimi Kanada, Liviya və Nigeriyada istehsalın azalması, bazarda isə neft ehtiyacının çoxalmasını göstərib.

❑ **Röya RƏFİYEVA**

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016

# Bütün Kurskun şeyxi



Zamin HACI
zaminhaci@gmail.com

**Manaf Süleymanovun "Eşitdiklərim, oxuduqlarım, gördüklərim" adlı maraqlı tarixi əsəri var. Orada bir epizod şeyxülislam mövzusunda zarafatla bağlıdır. Zarafat haqda az sonra, indilik bu əsərdə, ümumən tariximizdə müəyyən məsələlərə münasibətdə hiss elədiyim bir neqativ haldan bəhs edəcəyəm.**

Bəlkə çoxları bilmir, Süleymanovun bu əsəri ilk dəfə 1984-cü ildə, "Azərbaycan" jurnalında dərc edilib. O üzdən, sovet senzurasının bir çox detalları çapa buraxması maraqlıdır, misal üçün, əsərdə inqilabdan öncəki Bakının, bəzi milyonçuların müsbət obrazları, xalq üçün gördükləri işlər təsvir edilib. O vaxtlar hələ yenidənqurma başlamamışdı, "Böyük Oktyabr Sosialist İnqilabı"ndan qabaqkı dövrü isə tamamilə zülmət adlandırmaq dəbdə idi. Ancaq yenə də Süleymanov ADR hakimiyyəti dövrünü xeyli qaralamışdır. Bununla işim yox - dövr belə tələb edirdi. Sadəcə, maraqlıdır ki, bütün sovet dövrü yazıçıları və tarixçiləri Azərbaycan Demokratik Respublikasını adətən qiyabi, indiki terminlə desək, virtual üsullarla tənqid edirdilər. Müsavatçıları söyürdülər, ancaq respublikanın adını çəkmirdilər! Rəsulzadəni təhqir edirdilər, ancaq bu adamın kimliyini, nə iş gördüyünü açmırdılar. Çünki insanların belə-belə həqiqəti öyrənəcəyindən qorxurdular. Yeri gəlmişkən, rejissor Əjdər İbrahimovun 1971-ci ildə çəkdiyi, ancaq yenidənqurma dövründə kinoteatrlara buraxılan "Ulduzlar sönmür" filmində üçrəngli Azərbaycan bayrağının təsvirləri var. Bəlkə elə bu üzdən film qeyri-rəsmi qadağan edilmişdi.

Əlbəttə, adamların mövqeyinə yer vermədən tənqid, təhqir eləmək bütün avtoritar rejimlərin mahiyyətində var. Sovet dövründə bu temada məşhur söhbət var idi: Engelsin "Anti Dürinq" əsərini hamıya zorla tədris edirdilər, ancaq bu Dürinq kim olub, heç kim bilmirdi. Elə indiki Azərbaycanda da yapistlər müxalif fikri boğmaq siyasətində bu cür senzuradan yararlanır. Tarixi saxtalaşdırır, özlərinə sərf etməyən adamların adlarını, bütöv siyasi qurumları kitablardan "silirlər".

Qayıdıram Süleymanovun əsərindəki zarafata. Yazır ki, Bakının neft milyonçuları qəfil sel kimi gələn pullardan çox qudurub Kursk şəhərindən Rayev soyadlı bir mer gətirib şəhərə rəhbər qoyubmuşlar. O vaxt Rusiyanın Qafqaz canişini oturan Tiflisin meri ildə 4 min manat, Bakı meri isə 20 min manat maaş alırmış! Təsəvvür edin, o vaxt hətta Rusiya imperiyasının nazirlərinin illik maaşı 15 min manat imiş. Rayev də bu səfeh milyonçular şəhərini qaz kimi yolurmuş - Bakıya lazım olan hər şeyi Kursk zavodlarına - öz yerlilərinə çox baha qiymətə sifariş verirmiş. Qohum-əqrəbasını yığıb gətirib hərəsinə bir yüksək maaşlı avara vəzifə veribmiş. (Necə tanış mənzərədir - Z.H.) Bir gün Bakı bələdiyyəsində şəhər ictimai tualetləri üçün aftafaların hardan, neçəyə alınması müzakirə ediləndə bələdiyyə üzvü Kərbəlayı İsrafil Hacıyev deyir: "Cənab Rayev, yaxşı olar aftafaları Kursk zavodlarına sifariş verəsiniz. Bir də 4 aydır müsəlmanların şeyxülislamı vəfat edib, yeri boşdur, mümkündürsə xahiş edirik onun yerinə də Kurskdan bir şeyxülislam gətizdirəsiniz".

Dünən bizim media lentində şeyxülislamımız, hörmətli Allahşükür Paşazadə haqda növbəti "cinayət işində adı keçir, qohumları alverdə pul atıblar, yeznəsi filankəslə şərikdir, qardaşı behmənkəsi bulağa susuz aparıb gətirir, biznesi inkişaf edib" tipli məqaləni gördüm. Fikirləşdim ki, ey dadi-bidad, görəsən, biz haçansa şeyxin ruhani məsələlərlə yanaşı da adını oxuya biləcəyikmi? Yoxsa elə həmişə bu tip alver, kriminal, siyasət, repressiya, məddahlıq söhbətləri olacaqdır? Təsəvvür eləməyə çalışdım ki, Allahşükür bəy insanları düzgünlüyə, yalan danışmamağa, şərə boyun əyməməyə çağıran bir nitq irad edir.

Alınmadı. Ancaq Kurskdan təzə şeyx gətirməyimizi çox asanlıqla təsəvvür elədim.

# Qafqazın ən üzücü münaqişəsinin həllində ilginc ssenari

**Krımın ilhaqına görə Qərblə, özəlliklə də NATO ilə Rusiya arasında gərginlik üçüncü ildir davam edir. Vəziyyəti tündləşdirən məsələlərdən biri də şimal qonşumuzun vaxtaşırı NATO üzvü olan həmsərhəd Baltikyanı ölkələr və Polşanın hava məkanını özünün hərbi təyyarələri ilə nümayişkaranə şəkildə pozmasıdır.**




# NATO Rusiya ilə müharibəyə hazırlaşır - Qarabağın qurtuluşu üçün böyük fürsət!

Hərbi ekspertlərin ardınca britaniyalı general da toqquşma barədə xəbərdarlıq elədi; Azərbaycan üçün unikal şans pəncərəsi açıla bilər; işğalçıya apreldəkindən də sarsıdıcı zərbə vurmaq üçün güc və hazırlığımızı hər an artırmalıyıq...

Təhlükəni ciddiyə alan NATO və onun aparıcı üzvü ABŞ isə Baltikyanı ölkələr və Polşa daxil, alyansa üzv olan Şərqi Avropa ölkələri ərazisində hərbi kontingenti artırmaqda, intensiv genişmiqyaslı təlimlər keçirməkdə, bu ölkələrin təhlükəsizliyinin təminatına yönəlik başqa ön tədbirlər görməkdədir. Hazırda Qara dənizdə davam edən NATO təlimləri də eyni hədəfə, Rusiyanı effektli şəkildə cilovlamağa yönəlib.

***

Lakin bir sıra siyasi və hərbi ekspertlər son zamanlar bu kimi addımların yetərli olmayacağı, Rusiya - NATO (ABŞ) qarşıdurmasının qaçılmaz olacağı haqda bədbin proqnozlar verməkdədirlər. Aparıcı motiv kimi belə bir toqquşmada Kremlin maraqlı olması göstərilir. İddialara əsasən, beynəlxalq sanksiyalarla küncə sıxışdırılan Rusiya bu cür qarşıdurma ilə, yaxud qarşıdurma təhdidi ilə özünü Qərbə, dünyaya fövqəlgüc kimi qəbul etdirmək, əvvəlki imicini qaytarmaq istəyindədir. Belə bir tənqid də səslənir ki, Qərb siyasətçiləri hərbi sahəyə daha çox investisiya qoymaqdansa, hərbi hərəkətlər barədə bəyanatlar verməkdədirlər.

**NATO silahlı qüvvələrinin baş komandanının keçmiş müavini, britaniyalı general Riçard Şirrefin yeni kitabında məhz bu barədə söz açılır. Kitabda deyilir ki, Qərb bir ildən sonra Rusiya ilə açıq müharibə vəziyyətində olacaq.** "Kreml Baltikyanı dövlətləri Latviyadan başlayaraq işğal edəcək və NATO buna reaksiya vermək istəyəndə isə onu nüvə silahı ilə hədələyəcək. Tərəddüdlü NATO fəlakətlə üzləşəcək. Güclü siyasi bəyanatların güclü hərbi qüvvəyə üstün gəldiyi an yetişəcək" - kitabda bildirilir.

General Şirrefə görə, Rusiya ilə müharibə gələn ilin mayında - düz bir il sonra baş verə bilər. Müəllif hesab edir ki, "aqressiv və fürsətçi Putin" Qərbin zəif siyasi liderliyindən istifadə edərək Rusiyanı bir daha qüdrətli dövlətə çevirəcək. Onun qənaətincə, 2008-ci ildəki 5 günlük Gürcüstan müharibəsi və 2014-cü ildə Krımın ilhaqı, ardınca Ukraynanın Şərqində separatçılığın qızışdırılması böyük Rusiya ekspansiyası planının yalnız başlanğıcıdır. General bunu da qeyd edir ki, keçmiş sovet respublikalarındakı dondurulmuş münaqişələr böyük planın icrasında Putinin işinə yaraya bilər. Lakin necə, bunu detallaşdırmır.

***

Doğrudur, generalın proqnozlarını ciddi qəbul etməyənlər var. Onların nəzərincə, Ukrayna "bataqlığına girən" və ağır sanksiyalarla üzləşən Moskvanın Baltik regionunda daha bir müharibədə maraqlı olması sual yaradır. Bu məqam da xüsusi qabardılır ki, Ukrayna və Gürcüstandan fərqli olaraq, Baltik dövlətləri NATO üzvüdür. Londonda Royal "United Services" İnstitutunda kitabı ilə bağlı etdiyi təqdimat çıxışında general Şiffrerin özü də proqnozuna düzəliş edərək deyib ki, müharibənin qarşısını almaq üçün NATO Şərqi Avropa və Baltik hövzəsində canlı qüvvə və hərbi texnika cəmləşdirməlidir - nəyi ki, artıq alyans həyata keçirir.

Ancaq gerçək gerçəkliyində qalır ki, NATO-Rusiya münasibətləri ən gərgin dönəmini yaşayır. Alyansın, ABŞ-ın Gürcüstanda hərbi cəhətdən xeyli fəallaşması, iyulun 8-də gözlənilən NATO sammiti, sammit ərəfəsində daha bir Avropa dövlətinin (Monteneqronun) ona üzv qəbul olunması münasibətlərə əlavə gərginlik qatmaqda, Moskvanı daha əsəbi eləməkdə və onu çıxış yolu axtarışına sövq eləməkdədir.

**Bu çıxış yolunun NATO-Rusiya qarşıdurması ola biləcəyi barədə ehtimallar isə artmaqdadır. Az öncə analoji xəbərdarlıqla Ukrayna mətbuatına açıqlamasında tanınmış rusiyalı hərbi ekspert Pavel Felqenqauer çıxış eləmişdi. Onun sözlərinə görə, Rusiyanın sərhədləri yaxınlığında müharibə ocaqları artır.** "Türkiyə və Suriyada olan böhranlar həlz bitməyib. Bundan əvvəl Donbas var idi, indi isə bura Pribaltika da əlavə olunub. Rusiyanın ya NATO ölkələrindən biri, yaxud ABŞ-la birbaşa hərbi qarşıdurması mümkündür. Çox güman ki, bu, yaxın illər ərzində baş verəcək" - ekspert vurğulamışdı.

***

Bu proqnozları təbii ki, Azərbaycan da ciddiyə almalıdır. Çünki Rusiya Dağlıq Qarabağ məsələsinin həllində əsas əngəlləyici siyasi-hərbi faktor olaraq qalır. Ancaq aydındır ki, Kreml NATO ilə qarşıdurmaya cəlb olunarsa, Dağlıq Qarabağ kimi münaqişə zonalarına əvvəlki diqqəti ayıra, Azərbaycan-Ermənistan müharibəsinə İrəvan tərəfdə cəlb oluna bilməyəcək. Buna risk eləməyəcək, əks halda NATO üzvü Türkiyə müharibəyə qoşulmaqla Moskvaya qarşı ikinci cəbhə aça bilər - hansı ki, NATO da artıq bunda maraqlı olacaq.

Ayrı sözlə, on illərdir əraziləri işğal altında qalan Azərbaycan üçün əslində unikal şans açıla bilər. Odur ki, Qarabağ ətrafında kifayət qədər həssas bir dönəmə daxil olduğumuzu ciddiyə alıb da daha da güclənməli, hərbi qüdrətimizi Türkiyə, İsrail, Pakistan, lap elə Rusiyanın özünün hesabına durmadan artırmalıyıq. Ermənistanın yaxşı ki, belə imkanı yoxdur, çünki iqtisadi durumu ağırdır. Böyük fürsət anına hər cəhətdən yaxşı hazırlaşmamız lazım!

Onu da yaddan çıxarmaq olmaz ki, 4 günlük müharibədə Qərb (ABŞ, NATO) Azərbaycan ordusunun təmizləmə əməliyyatına münasibətdə faktiki, neytral qalıb. Bu da yetərincə anlaşılandır. Hər necə olmasa, münaqişənin uzanmasından, Ermənistanın Kremlin əlində oyuncaq olmasından və Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsinə can-başla dəstək verməsindən Qərb də bezib və bir an öncə konfliktin həllini, Moskvanın bölgədən çəkilməsini istərdi.

Eyni zamanda rəsmi Bakının çevik diplomatiya yürütməsi də vacibdir ki, Azərbaycan Gürcüstan kimi Kremlin qəzəbinə tuş gəlməsin. Rusiyanı öz tərəfimizə çəkə bilməsək də, çalışmalıyıq ki, bütün variantlarda onun neytrallığını təmin edək. NATO-Rusiya savaşı olsa da, olmasa da, bu neytrallıq təmin olunarsa, torpaqlarımızın azad edilməsi yalnız zaman məsələsi olacaq.

❑ Analitik xidmət

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016

**Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının II fövqəladə qurultayında partiyaya yeni sədri seçilən yeganə namizəd, hazırkı nəqliyyat, dənizçilik və kommunikasiya naziri Binəli Yıldırımın quracağı hökumətdən gözləntilər kifayət qədərdir. Xüsusilə də Türkiyənin olduqca çətin bir situasiya ilə üz-üzə olduğu bir dönəmdə yeni baş nazirin ölkəni haraya aparacağı barədə kifayət qədər suallar var.**



# Binəli Yıldırım dönəmi Türkiyəyə nə vəd edir...

## Şahin Cəfərli: “Hər kəs Əhməd Davudoğlunun aqibətindən dərs alıb və nəticə çıxarıb”

Türkiyə mətbuatı artıq B.Yıldırımın Beştəpə sarayına gedərək yeni baş nazir kimi nazirlər kabinetinin yeni tərkibini prezidentə təqdim etdiyini yazır. “Narahat olmayın, 65-ci hökumət qısa müddət ərzində qurulacaq”- Yıldırım bəyan edib. B.Yıldırım dönəmində Rusiya-Türkiyə münasibətlərinin hansı məcrada inkişaf edəcəyi maraq doğurur. Modern.az xarici KİV-ə istinadən bildirir ki, bununla bağlı Rusiya Federasiya Şurasının Beynəlxalq Əlaqələr Komitəsinin sədr müavini Vladimir Cabbarov açıqlama verib.

**Jurnalistlərin “Rusiya-Türkiyə problemlərinin yeni hökumətlə həll olunması mümkündürmü” sualına cavab verən Cabbarov deyib:** “Təcrübə göstərir ki, Türkiyədə hökumətin dəyişməsi ilə heç bir dəyişiklik olmur. Türkiyə prezidenti Ərdoğan əvvəllər olduğu kimi, ölkədə prezident üsul-idarəsini möhkəmləndirməkdə qərarlıdır. Artıq hakimiyyətdən gedən Əhməd Davudoğlu bu plana qarşı çıxırdı. Türkiyə Konstitusiyasına görə, Binəli Yıldırımın yeni hökumət qurması və etibarlılıq səsi alması üçün öndə 1 həftəlik vaxt var. Yeni baş nazir Rəcəb Tayyip Ərdoğana yaxınlığı ilə tanınan şəxsdir. Buna görə onun Ərdoğanın qoyduğu qaydalarla hərəkət edəcəyi indidən bəllidir. Rusiya ilə Türkiyə arasında baş verən gərginlikdə isə Ərdoğanın daha da irəliləyərək münasibətləri pisləşdirdiyini bilirik. Vurulan təyyarəmizə görə nüfuzunu aşağı salmamaq üçün üzr istəmədi. Tam əksinə, bu müddətdə gərginliyi daha da artırdığını deyə bilərik. Beləliklə, Türkiyədə baş nazirin dəyişməsi ilə Rusiya-Türkiyə münasibətlərində dəyişiklik gözlənilmir”.

Bu arada yeni baş nazirlə bağlı Avropa Birliyindən reaksiya gəlib. Qeyd edək ki, ötən ilin sonlarında Avropa Birliyi ilə Türkiyə arasındakı danışıqlarda Ankaranı sabiq baş nazir Əhməd Davudoğlu təmsil etmişdi və anlaşmanı imzalamışdı. Davudoğlundan sonra qurumla əməkdaşlığın taleyinin necə olacağı ciddi maraq doğururdu. “Biz AB-Türkiyə sammiti və 18 martda AB ilə Türkiyə arasında imzalanmış müqaviləyə uyğun olaraq, regional və beynəlxalq problemlərin birgə həllinin davam edəcəyinə ümid edirik”. Avropa.info xəbər verir ki, bu barədə Avropa Birliyi liderlərinin AKP-nin yeni lideri Binəli Yıldırıma ünvanlanan məktubunda deyilir. Məktub AB-nin xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə Ali nümayəndəsi Federika Moqerini və avrokomissar Yohannes Xan tərəfindən imzalanıb. “Yıldırımı Türkiyə hökumətinin formalaşdırılması üçün aldığı mandata görə təbrik edirik. Bu hadisə nəinki Türkiyə, həmçinin AB və Ankara arasındakı münasibətlər baxımından əhəmiyyətlidir” - məktubda belə deyilir.



B.Yıldırım hökumətinin Türkiyə iqtisadiyyatı üçün nə vəd etdiyi də gündəmin müzakirə mövzularındandır. Hesab olunur ki, alim, ideoloq statusunda olan Əhməd Davudoğlundan fərqli olaraq Binəli Yıldırım daha çox istehsalat adamı olduğundan fərqli kursun şahidi olacağıq. Hətta iddialar var ki, prezident Ərdoğan son seçimi ilə fikir adamına deyil, təcrübəli istehsalçı kadra önəm verdiyini nümayiş etdirdi. Bu seçim Türkiyəyə nə vəd edir? Ümumiyyətlə, ölkə prezidentinə bağlı olan cənab Binəlinin baş nazirliyi nə qədər çəkə bilər?

**Politoloq Şahin Cəfərli “Yeni Müsavat”a açıqlamasında köhnə və yeni baş nazirlə bağlı maraqlı fikirlər söylədi:** “Ədalət və İnkişaf Partiyasının fövqəladə qurultayını diqqətlə izləyənlər Əhməd Davudoğlunun niyə istefaya məcbur edildiyini, məncə, daha aydın başa düşdülər. Qurultaya başdan sona qədər Rəcəb Tayyib Ərdoğan faktoru öz damğasını vurdu. Partiyanın liderinin məhz Ərdoğan olduğunu, AKP-nin Ərdoğanın partiyası olduğunu istər qurultaya sədrlik edən Bəkir Bozdağ, istərsə də partiyanın yeni sədri Binali Yıldırım dəfələrlə vurğuladılar. Ərdoğanın müraciəti oxunarkən bütün salonun ayağa qalxması görünməmiş hadisə idi. Partiyaya lider deyil, prezident Ərdoğana köməkçi seçiləcəyi həqiqətini hamı dərk edirdi. Hiss olunurdu ki, başda Binəli Yıldırım olmaqla, hər kəs Əhməd Davudoğlunun aqibətindən dərs alıb və nəticə çıxarıb. Əslində Davudoğlu da Ərdoğana sadiq idi, prezidentə hər hansı saygısızlığı olmamışdı. Yadınızdadırsa, Rəcəb Tayyib Ərdoğanın prezident seçilməsindən sonra AKP-nin başına Abdulla Gülün gəlməsi məsələsi aktuallaşmışdı. Ərdoğan bunun reallaşacağı təqdirdə, partiyaya nəzarəti itirəcəyini düşünərək başqa bir yüksək profilli şəxs - xarici işlər naziri Əhməd Davudoğlunu bu posta seçdirərək Gül təhlükəsini neytrallaşdırmış oldu. Lakin Davudoğlu da öz mövqeyi və dəst-xətti olan, müəyyən qədər müstəqil fikirli şəxsiyyət idi”. **Ş.Cəfərli qeyd etdi ki, Ə.Davudoğlu ətrafında yavaş-yavaş öz komandasını formalaşdırmağa başlamışdı. Belə bir baş nazir profili prezident Ərdoğanın görmək istədiyi profil deyildi:** “Ona elə bir baş nazir və partiya lideri lazım idi ki, dövlət başçısına sözsüz itaət etsin, onun kölgəsindən çıxmağa çalışmasın. Nəticədə Davudoğlunun ambisiyaları Binəli Yıldırım seçimi ilə əngəllənmiş oldu”.

**Politoloq hesab edir ki, B.Yıldırım prezidentin istədiyi rola uyğunlaşacaq “aşağı profilli” fiqurdur:** “O, Ərdoğanın cızdığı çərçivədən kənara çıxmayacaq və müti icraçı kimi fəaliyyət göstərəcək. Başqa yolu da yoxdur, çünki azacıq yolundan sapması halında dərhal başqa bir icraçı ilə əvəzlənəcəyini yaxşı bilir. Əhməd Davudoğlunun zamanında AKP bütün enerjisini və gücünü Ərdoğanın əsas siyasi layihəsi olan prezident üsul-idarəsinin bərqərar olmasına yönəldə bilmirdi. Binəli Yıldırımın dövründə isə, onun özünün də dediyi kimi, əsas diqqət məhz siyasi sistem dəyişikliyinə yönəldiləcək. Qarşıdakı aylarda yeni konstitusiya layihəsinin Böyük Millət Məclisinə təqdim olunacağı gözlənilir. Müxalifətin zəiflədiyi, öz içərisində ciddi problemlər yaşadığı bir dövrdə Ərdoğanın öz məqsədlərinə çatması elə də çətin görünmür”.

❑ **Cavid TURAN**

# ABŞ-ın Qarabağ məsələsində aktivləşməsinin sirri

## “Vaşinqton daha Cənubi Qafqazdakı prosesləri Rusiyanın inhisarına buraxmaq fikrində deyil”

**Qarabağ məsələsində ABŞ-ın son vaxtlar xeyli fəallaşdığı müşahidə olunur. Aprel ayında daha çox Rusiyanın aktiv oyunçu olduğu açıq-aşkar görünsə də may ayı başlayandan Amerikanın təşəbbüsü ələ almağa cəhd etdiyi sezilir. Mayın 20-də ABŞ-ın vitse-prezidenti Co Bayden Azərbaycan prezidenti İlham Əliyevə, sonra isə Ermənistan prezidenti Serj Sərkisyana telefonla zəng edib Qarabağ münaqişəsinin həll yollarını müzakirə etməsi ABŞ-ın hansı səviyyədə aktivləşməsini göstərən faktdır.**

ABŞ-ın nədən Qarabağ məsələsində fəallaşmasına gəlincə, **politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a bildirdi ki, ABŞ son zamanlar Rusiyanı həlqəyə almaq xətti götürüb. Baltik dənizindən Qara dənizə qədər bu iş başa çatmaq üzrədir. Həmçinin Cənubi Qafqazda da ABŞ-ın, eləcə də onun müttəfiqlərinin ciddi strateji marağı var. Bu strateji maraqlar həm neftə, təbii qaza söykənir, həm də bu regionun geosiyasi əhəmiyyətinə: “Çünki bu region qərblə şərqi birləşdirən böyük dəmiryolunun və şose yolunun keçdiyi ərazidir. Qərb hesab edir ki, Cənubi Qafqazı bütünlüklə Rusiyanın inhisarına buraxmaq olmaz. Son günlər ABŞ-ın Gürcüstanla birlikdə hərbi təlimlər keçirməsi və Gürcüstana gətirdiyi hərbi texnikanı hərbi baza kimi Gürcüstanda saxlaması onu göstərdi ki, artıq Gürcüstan NATO



dövləti olmasa da NATO dövləti statusuna yaxın statusda-ABŞ-ın hərbi bazasına malik olmaqla Rusiyadan xeyli uzaqlaşıb. Üstəlik, Dağlıq Qarabağ danışıqları prosesində Vyanadakı görüşlərdə, həm görüşün ərsəyə gəlməsində, həm də görüşün özünün gedişində ABŞ kifayət qədər fəal idi. Bu fəallığı Fransanın da ermənipərəst mövqeyini xeyli dərəcədə neytrallaşdırmışdı. Məsələn, Vyana görüşünün hazırlanması üçün Con Kerri 7 dəfə Rusiya xarici işlər naziri Lavrovla telefon danışıqları apardı. Çünki Lavrov yenə də Ermənistan və Azərbaycan prezidentlərini özünün əzəmətli villasında dincələn Putinin hüzuruna gətirmək istəyirdi. Amma bu alınmadı, görüş Vyanada keçirildi. Üstəlik də Kerri görüşdə kifayət qədər fəal idi”.

**Politoloqun sözlərinə görə, ABŞ tərəfi çox yaxşı başa düşür ki, problemlərin həll olunmamasının əsas səbəbi Ermənistanın həm işğalçı mövqeyində dayanması, Rusiyanın satelliti kimi bölgədə destruktiv rol oynaması, danışıqlar prosesində qeyri-konstruktiv mövqe tutması ilə bağlıdır:** “Məncə, ABŞ bunları əvvəl də bilirdi, amma indi bu məsələni reallaşdırmağa başlayıb. Çünki ABŞ strateqləri belə hesab edirlər ki, Azərbaycanda müəyyən əskiklərin olmasına baxmayaraq, Azərbaycana mütləq dəstək verilməlidir. Əvvəlcə Azərbaycanın ərazi bütövlüyünə dəstək verilməli, sonra isə Rusiyanın hər hansı bir məkrli niyyətlərindən, şantajından qorumaq lazımdır. Bu xətt ən yüksək səviyyədə müzakirə olunub və qəbul edilib. O xəttə uyğun olaraq da Azərbaycana, onun haqq işinə dəstək verilir. Bu dəstəyin bir forması da Ermənistana təzyiqdir. Amerikalılar yaxşı başa düşürlər ki, Ermənistan Vyana görüşlərini pozmağa çalışsa, bu, bölgədə sülh prosesinə ciddi zərbə vuracaq və Rusiyanın maraqlarına işləyəcək. Çünki bölgədə yenidən müharibənin alovlanması həm Bakı-Ceyhan-Tbilisi xətti, həm TANAP və TAP layihəsi, həm Bakı-Tbilisi-Qars dəmir yolu üçün təhlükədir. Bir sözlə, Qərbin strateji maraqlarını özündə ehtiva eləyən böyük iqtisadi layihələr üçün ciddi təhlükədir. Bunu nəzərə alan ABŞ öz müttəfiqlərinə də bu fikri təlqin etməklə Cənubi Qafqazda Azərbaycana ciddi dəstək vermək planını həyata keçirməyə başlayıblar. ABŞ daha Cənubi Qafqazdakı prosesləri Rusiyanın inhisarına buraxmaq fikrində deyil. Bu, son vaxtlar aydın müşahidə edilir”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016

# “Aşk ola içənə, rəhmət köçənə”

## Əməkdaşımız Türkiyə ələvilərinin dini mərasimindən yazır

### Əli Dədə: “Əməlsiz zənginin, kitabsız alimin, dini siyasət olanın mürşidi şeytan olur”

**Türkiyədə ələvilik mövzusu haqda ilk dəfə Azərbaycanda, necə deyərlər, oxucuların xahişi əsasında bir yazı hazırladım. O zaman daha çox təqdimat xarakterli material hazırlamaq üçün çoxlu sayda elektron mənbələrə baş vurdum və nəticədə ümumi bir məqalə alındı. Hələ o zaman da ağlımda nə zamansa canlı olaraq Ələvi mərasimlərində iştirak edib bu təlim haqda nəsə yazmağı düşünürdüm.**

Həmin zamanın gəlməsi üçün 8 il lazım oldu. Nəhayət, Ankarada bu fürsəti, türklər demiş, yaxalaya bildim. Elə də asan olmadı, çünki ələvi camaatı mənsubları xarici ölkənin qəzeti üçün reportaja şübhə ilə yanaşırlar. Amma universitet müəllimi, dosent, ələvilik mövzusunda dissertasiya müəllifi Özcan Güngörün yardımı ilə Ankara Bektaşi Ələvi camaatı ilə əlaqə qura bildik. Hocamızın təqdimatı ilə *(Türkiyədə bunsuz keçinmək mümkün deyil)* əvvəl Ankarada həftəlik cümə axşamları keçirilən Cəmə dəvət olundum, daha sonra isə məni Ankara ətrafında qədim ələvi kəndlərindən olan Karaşarda Cəm yığıncağına qonaq çağırdılar...

Karaşar Ankaradan 130 km məsafədə yerləşən iç Anadolunun ənənəvi ələvi-Bektaşi kəndlərindən biridir. Son illərdə seyrəlsə də, Karaşar, Saray və Köseler kəndləri ələvi kimliyini qoruyub saxlayır. Hazırda Ankarada yaşayan karaşarlılar tez-tez avtobus kirayə edərək kəndlərinə gedir və Cəm mərasimləri təşkil edirlər. Məni Karaşara yerli Cəm-in fəal üzvü “40-lar”dan *(“40-lar” haqda daha sonra bilgi verəcəyəm)* biri olan İbrahim bəy dəvət etdi, təbii ki, əvvəlcə Karaşar ələvi dədələrindən izn aldıqdan sonra.

Ümumiyyətlə, İbrahim bəy çox maraqlı adamdır. Cəmin fəalı və “40-lar”ın üzvüdür. Quran oxuyur, tədbirlərin fəal iştirakçısıdır. Təbii ki, inancına, mənsub olduğu təriqətə çox bağlıdır. Karaşarda keçirilən Cəm mərasimi kənd sakinlərindən biri, icmanın üzvü olan xanımın vəfatı münasibəti ilə təşkil olunurdu. Ələvi adətlərinə görə, dünyadan köçən insan üçün vida mərasimi - Cəm təşkil olunur. Bu Cəm “halallaşma” adlanır və icma üzvləri dünyadan köçən icma üzvü ilə vida mərasimi təşkil edir, dualar oxunur, Cəm ənənələrinə riayət olunmaqla 3 hissəli mərasim qeyd olunur.

Ələvilikdə dünyadan köçən insan üçün yalnız bir dəfə vida mərasimi - Cəm keçirilir, ehsan verilir və ən əsası halallaşma olur. İbrahim ağa deyir ki, keçmişdə ələvilərin bu mərasimi dünyadan köçən şəxslə bağlı yarımçıq qalan işlərin həllini nəzərdə tuturdu. Peyğəmbər (s.ə.s) zamanında olan adətlərə uyğun olaraq Ələvi icması üzvü dünyadan köçərkən təşkil olunan vida mərasimində salat (Ələvi namazı) və ya ayini-cəm qılınır, dualar oxunur, mərhumla halallaşma olur, eyni zamanda ölmüş şəxsin yetim qalan övladları varsa onlara qalan mirasın uşaqlar kiçikdirlərsə böyüyüb rəşid olana qədər qorunması, əgər mərhumun borcu varsa, Cəm üzvləri arasında zəkat toplanaraq borcların ödənilməsi həyata keçirilir. Lakin müasir dövrdə əsasən mərhumla halallaşma və dualar edilərək rəhmət oxunur, qurban kəsilir.

Yeri gəlmişkən, Karaşar çox gözəl təbiəti olan kənddir. Ankaradan uzaq, dağlar qoynundakı kənd iç Anadolunun ən füsunkar bölgələrindən biridir. Məşhur Anadolu mineral bulaqları, meşəlik dağlar burda yerləşir. Digər kəndlərdən fərqli olaraq Karaşar xeyli abad və evləri yenidir. Maraqlanıram, Karaşardan qürbətçi - yəni Almaniyaya iş dalınca gedən çox azdır, hətta yox deyiləcək qədər. Amma sakinlərin çoxu ən yaxın böyük şəhərə - Ankaraya yerləşib. Əsasən əsnaf və orta sahibkarlıq fəaliyyətləri ilə məşğul olurlar. Təbii ki, tez-tez kəndlərinə gedir, əksəriyyətin Ankarada və kənddə evləri var. Kəndin yaşlıları isə qışda Ankaraya övladlarının yanında gedir, yazın sonunda isə Karaşara gəlir və payıza qədər burda qalırlar. Mənimlə gələnlərin bir çoxu da məhz “yaylağa” gələnlər idi. Ümumilikdə isə həm avtobusda, həm də Cəm mərasimində əsasən yaşlı insanlar idi. Gənclər elə də gözə dəymirdi. Bunun səbəbi isə Ayini-Cəmə gənclərin girməsinin yasaq olması ilə bağlıdır. Çünki qaydalara görə, müsahibi olmayanlar Cəmə alınmazlar. Gənclər yalnız arxa xidmətləri edir, əsas zala daxil olmurlar. Yalnız müəyyən bir kamala çatıb, məqama yetişdikdən sonra Cəm ayininə qatıla bilərlər.

Ələvilər arasında qardaşlıq - Müsaiblik ənənələri geniş yayılıb. Hər Cəmdə salatdan sonra yanaşı olan icma üzvləri uyğun duanın ardınca qucaqlaşıb yanaqlarını bir birinə vuraraq qardaşlıq əqdi edirlər. Bu hadisənin kökü hicrətin ilk illərində Məkkədən Mədinəyə köçən ilk müsəlmanlar arasında müharic və ənsar qardaşlığı hadisəsinə söykənir. Tarixi mənbələrə görə, Məhəmməd (s.ə.s) Peyğəmbərin Məkkədən Mədinəyə hicrət etməsindən az sonra 95 nəfərlik Məkkə sakini müsəlman da Mədinəyə (o zaman Yəsrib) şəhərinə pənah gətirir. Məkkədən gələn mühacirləri yerləşdirmək üçün İslam Peyğəmbəri “mühacir və ənsar” qardaşlığı elan edir. Hər mədinəli bir məkkəlini qardaş olaraq qəbul edib ona yer verirdi. Ən son olaraq Həzrət Əli (ə) yalnız qalır və Həzrət Məhəmməd onu özünə axirət qardaşı olaraq elan edir.

Bu mərasim Cəm mərasimlərində təkrarlanır, icma üzvləri arasında qardaşlıq bağlanır. Bu zaman Gülbəng duası türkcə oxunur. Müsaiblik, yəni axirət qardaşlığı Ələvi inancında mühüm yerlərdən birini tutur.







**CƏM OLAQ...**

Bütün bu söhbətləri yolda və kənddəki evində İbrahim ağa ilə söhbətdə danışırıq. Daha sonra isə Cəmdə iştirak etmək üçün kənd mərkəzində yerləşən Cəm evinə gedirik. İki mərtəbəli binanın birinci mərtəbəsi mətbəx, yeməkxana və yardımçı otaqlardan ibarətdir. Üst mərtəbədə isə iki zal və iki kiçik otaq var. İç otaqda Karaşar ələvilərinin ruhani lideri Ali Dədə *(Karaşar ələviləri Baba deyir)* oturmuşdu. Yavaş-yavaş icma üzvləri də yığışırdı və 82 yaşlı Əli dədə Türkiyədə ələvilik, Pir Sultan Abdal, Hacı Bektaş Vəli, Əhməd Yəsəvidən danışır. Deyir ki, bizim mərasimlərimizi izləməkdə problem yoxdur, öyrənmək istəyənlər gəlib baxa, suallarını verə bilərlər.

Nəhayət, zaman gəlir və böyük zala keçib Cəm mərasiminə başlamaq işarəsi verilir. Hər kəs zalın qapısına gəlir, qapıda diz çökür, kandarda səcdə etdikdən sonra içəri daxil olur. Bu zaman əlləri sinədə cəmləmək və sağ ayağı sol ayağın uc tərəfdən üzərinə qoyub Dədədən giriş icazəsi alınır. Zalın mərkəzində üçbucaqlı qapı şəklində çərçivə qurulub, onun ortasında isə 12 şamdan var. Sağ tərəfdə İmam Əlinin (ə), sol tərəfdə isə Hacı Bektaş Vəlinin və Atatürkün böyük rəsmi var. Yeri gəlmişkən, Cəm ayinlərində dualarda tez-tez Atatürk yad edilir, Türkiyə dövləti və xüsusən də ordusu üçün dualar edilir.

Zalın baş tərəfində nisbətən hündür oturacaqlar düzülüb, dairəvi düzülmüş döşəklərdə “40-lar” oturur. Ən başda sağda isə mərasimin başçısı Əli Dədə, sol tərəfdə isə ikinci dədə və onların yanında digər dədələr, eləcə də kiçik xor qrupu əyləşib. “40-lar”a daxil olan daha iki nəfər “Bekçiler” adlanır, mərasim boyunca bayırda dayanıb keşik çəkirlər, daha iki nəfər qəssabdır.

“Bismi şah Allah, Allah” nidası ilə başlayır ələvi ibadət və duaları. Daha sonra isə Əli Dədə moizə edir. **"Allah qarşısında hər kəs bərabərdir, heç kəsi xor görə bilməzsən. Ələvilik bir yoldur, bu yolun bizə verdiyi ibadət, məhəbbət və əxlaqdır. Sayğısız sevgi olmaz"** - deyir Əli Dədə. Cəm evinə Allah dostları toplanır. Cəmin qaydalarından danışır.

Ardınca isə Cəmin mərkəzinə qurbanlıq qoç gətirilir. Dualar oxunduqdan sonra “40-lar”dan olan iki qəssab qurbanlıq heyvanı aparır və bir müddətdən sonra kəsilmiş əti gətirirlər. Xüsusi dualar oxunduqdan sonra Əli Dədə elan edir ki, qurbanlıq ət 18 parçaya bölünür. Zikr oxunur, 12 imamın adları yad edilir. Bundan sonra fasilə olur və Cəm mərasiminin ikinci mərhələsi başlayır.

Cəmin ikinci hissəsində daha çox ilahilər oxunur. Pir Sultan Abdal, Əhməd Yəsəvi, Yunus Əmrə, Şah Xətaidən şeirlər oxunur. Bu oxumalar dua və Allahla razı-niyaz adlandırılır.

İkinci hissədə 12 imam adına şam yandırılır. Bu zaman ələvi zikrləri, 12 imama salam, “Allah-Allah”, “Hüü” zikrləri deyilir. Bundan sonra “40-lar” məclisinə “İmam Əli səccadəsi” adlanan palaz gətirilir. Palazın bir küncü qatlanır və “40-lar”dan olan bir adam xüsusi ayinlə xalçanın künclərində səcdə edir və Dədə dua edir. Səccdənin qatlanan küncü “şəriət”, digər açıq küncləri isə “təriqət”, “mərifət” və “həqiqət” adlanır. Dədə zikr deyir: **“Əməlsiz zənginin, kitabsız alimin, dini siyasət olanın mürşidi şeytan olur. İnsanlar ölmək üçün deyil, olmaq, olqunlaşmaq üçün dünyaya gəlir”.**

Bundan sonra halallaşma olur. 3 dəfə Dədə halallıq istəyir, ardınca isə iştirakçılar görüşür, qardaşlıq əhdini təzələyirlər. “Fatihə” surəsi oxunur, zikr deyilir və ardınca mərhumun ailə üzvü olan (oğul və qızlar) 4 kişi və 4 qadın gələrək səcdə etdilər, Dədənin əlini öpüb xeyir-dua, camaatdan halallıq alırlar. Sonda Adəmdən Məhəmmədə (s.ə.s) qədər bütün peyğəmbərlərə iman gətirdiklərini, tövbə etdiklərini bəyan edir və növbəti-üçüncü mərhələ başlayır.

Cəm məclisi 3 mərhələdən ibarət olur. Sonuncu - üçüncü mərhələdə, Saqqaye Əli mərasimində iştirakçılara su, şərbət paylanır. Əvvəlcə isə “40-lar” üzvü olan 4 kişi meydana çıxır, dövrə vuraraq dua edir. Bundan sonra isə bir kişi ətrafında 6 qadınla ortaya çıxır və dövrə vurmağa başlayır, dualar edilir. Bu, Kərbəlada yalnız qalan İmam Zeynalabdinin (ə) qorunmasının yad edilməsidir.

Bundan sonra isə meydana çıxan 4 kişi arasında qardaşlıq əqdi bağlanır və ardınca Kərbəlada susuz qalan İmam övladları üçün ehsan olaraq şərbət paylanır. “Aşk ola içənə, rəhmət köçənə, yuh olsun münkirə, lənət Yezidə”. Şərbət içən ələvilərin zikri bununla müşayiət olunur. Bununla da mərasim bitir və camaat üzvləri qurban kəsilən qoçun ətindən bişirilmiş düyü plovu ehsan edilir.

Ələvə edək ki, Cəm mərasimini ələvilər hər həftənin cümə axşamı, dünyadan köçmüş şəxs üçün və ya bayram, eləcə də dini matəm günlərində qeyd edirlər.

❑ **Kənan RÖVŞƏNOĞLU**
❑ **Ankara-Karaşar-Ankara**





**"Yeni Müsavat"ın dövlət qurumlarının mətbuat xidmətlərindən reportaj rubrikası davam edir. Növbəti qonağımız Nəqliyyat Nazirliyinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəhbəri Namiq Həsənovdur. Son vaxtlar mətbuatda nadir hallarda görünən N.Həsənovla onun fəaliyyəti, gündəlik iş rejimi, mətbuatla bağlı fikirləri, şəxsi həyatının bilmədiyimiz tərəfləri və sairlə bağlı müsahibə almaq üçün çalışdığı dövlət qurumunun inzibati binasında görüşdük.**



# "Cənab nazirlə açıq söhbətimiz oldu..."

## Nəqliyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Namiq Həsənov:

### "10-a yaxı müğənnini, bir neçə aktyoru parodiya edə bilirəm"

*Bizi "Qəbul otağı"nda qarşılayan Namiq müəllim məzuniyyətini yarımçıq qoyub, müsahibə üçün etdiyimiz xahişi yerə salmayıb gəlmişdi. Səmimi qarşılanmanın ardından müsahibimiz suallarımızı da tam səmimi cavablandırdı. Şahmat və üzgüçülük həvəskarı, həvəskar parodiyaçı, ali təhsilli tarixçi, ABŞ-ın Nemraska ştatının fəxri vətəndaşı olan və peşə fəaliyyətinə jurnalistikadan başlayan Namiq Həsənovun bu müsahibədə səsləndirdiyi fikirlər bəlkə də onu tanımaq üçün yetərli olacaq.*

***- Namiq müəllim, Nəqliyyat Nazirliyinə bu vəzifəyə gəlişiniz necə oldu?***

- Mən bundan əvvəl də mətbuat xidmətinin rəhbəri olmuşam. Əvvəllər bir qəzetdə iqtisadiyyat şöbəsinin müdiri olmuşam. Sonra Vergilər Nazirliyində 1 il 10 ay müddətində ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri kimi çalışmışam. Daha sonra Lider TV-də 3 il aparıcı işləmişəm. Bəlkə də Azərbaycanda yeganə mətbuat xidmətinin rəhbəriyəm ki, mətbuatdan nazirliyə, sonra nazirlikdən mətbuata qayıtmışam.

Lider TV-dən isə Nəqliyyat Nazirliyinə dəvət olundum və 2003-cü ilin iyul ayından bəri burada fəaliyyət göstərirəm. Mənim televiziyada apardığım verilişi görüb, bəyənib məni dəvət etdilər. Artıq 13 ildir ki, buradayam.

***- Sizin üçün bir dövlət qurumunun mətbuat xidmətinin rəhbəri olmaq nə deməkdir? Bu, insandan hansı keyfiyyətlər tələb edir?***

- Mətbuat xidmətinin rəhbəri dövlət qurumu ilə cəmiyyət, mətbuat, müəyyən strukturlar arasında vasitəçidir. Şübhəsiz ki, burada ilk növbədə peşəkarlıq önəmlidir. Mətbuat xidmətinin rəhbəri o qədər peşəkar, o qədər hazırlıqlı olmalıdır ki, təmsil etdiyi qurumun rəhbərinin əvəzindən də danışa bilsin. Jurnalistin istənilən sualına cavab verə bilsin. Həmin sahədə nə baş verirsə, dərhal adekvat reaksiya bildirsin, mətbuatdan gələn zəngləri cavablandıra bilsin. Bu illər ərzində mən çalışmışam ki, bunu edim - televiziyada, mətbuatda çalışdığım qurumu təmsil edə bilim.

***- Nəqliyyat Nazirliyi mətbuatda ən çox tənqidlərə məruz qalan qurumlardandır. Həm də nəqliyyat elə bir sahədir ki, bütün gerçəkliyi ilə göz qabağındadır, burada nəyisə gizlətmək mümkün deyil. Bu tənqidlər sizin işinizə necə təsir edir, reaksiyanız necə olur?***

- Sağ olun ki, bu sualı mənə verdiniz. Əslində siz soruşmasaydınız da mən bu məsələyə toxunacaqdım. Çünki Nəqliyyat Nazirliyi üzdə olan qurumdur. İnsanların hər gün müraciət etdiyi bir xidmət sahəsinə nəzarət edir. İstər sərnişindaşımada, istər yükdaşımada nəqliyyatdan istifadə olunur. İnsan evindən çıxdığı andan nəqliyyatla əlaqəli olur deyə, bizim nazirlik həmişə üzdə olub, gündəmdə olub.

***- Namiq müəllim, çox zaman jurnalistlər arasında rəy sorğusu keçiriləndə sizi də mətbuatdan qaçan, asan tapılmayan mətbuat xidməti rəhbəri kimi təqdim edirlər. Bunun səbəbi nədir?***

- Çox təəssüf ki, mən bəzən müəyyən sualları cavablandırmağa, sadəcə, vaxt tapa bilməmişəm. Elə jurnalistlər olub ki, onların suallarını cavablandırmaq fiziki baxımdan mümkün olmayıb, vaxt qıtlığı yaşamışıq. Sonradan haqqımızda tənqid yazıblar ki, Namiq müəllimi tapmaq olmur. Amma mən hamı üçün açıq olmuşam. Mətbuatdan gəldiyim üçün bu ehtiyacın nə olduğunu bilirəm. Elə adam olub ki, mən onu ümumiyyətlə tanımıram. Hətta mənə zəng də vurmayıb. Ancaq hansısa saytda yazır ki, mən Namiq Həsənovu tapa bilmirəm. O yazandan sonra mən bilmişəm ki, belə bir jurnalist var imiş. Bəzən jurnalistlər deyirlər ki, biz Namiq müəllimi tapa bilmirik. Mən də bunun əksini deyə bilərəm ki, bəzən mən də jurnalist tapa bilmirəm. Peşəkar jurnalist çox azdır. Elə jurnalist var ki, heç Nəqliyyat Nazirliyinə aid olmayan sualları bizə verir.

Ümumiyyətlə, bizim sahə ən çox tənqid olunursa, deməli, burada iş var. Əgər bizim nazirliyin xətti ilə son 15 ildə həyata keçirilən işləri mən sadalamağa başlasam, saatlarla çəkər. İş olan yerdə təbii ki, tənqid də olmalıdır. Hamının xoşuna gəlmək mümkün deyil. Əgər hamının xoşuna gəlirsənsə, deməli, ümumiyyətlə, yaxşı işləməmisən.

***- Nazirliyin və ya sizin haqqınızda yazılan tənqidlərə reaksiya necə olur?***

**"Hətta cənab nazirə şikayət ediblər ki, sizin Namiq telefonumuza cavab vermir"**

- Mən, ümumiyyətlə, heç bir reaksiya vermirəm. Yazmaq jurnalistin haqqıdır. Ancaq mən istəyirəm ki, onu oxucu oxuyub qiymət versin, başqa bir peşəkar jurnalist oxuyub qiymət versin. Bəzən dostlarım da soruşur ki, sən niyə reytinqlərdə sonuncu olursan, niyə tapılmayan mətbuat xidmətlərindən biri deyirlər sənə. Deyirəm, təbii ki, o jurnalist məni tapa bilməyibsə, mən onun keçirdiyi sorğuda sonuncu olacağam. Mənim üçün fərqi yoxdur ki, bir mətbuat orqanı kimə qulluq edir. Mənim üçün jurnalist var və bir də söz var. Ona görə də reaksiyam normaldır, tənqidə çox dözümlüyəm. Bir dəfə də zəng edib deməmişəm ki, mənim haqqımda niyə bu qədər tənqid yazırsınız. Uzaq başı belə bir irad bildirirəm ki, yazanda bizim də fikrimizi öyrənin. Mənim reaksiyam bundan o yana getmir. Bizim fikrimizi öyrənmədən yazılan yazını da mən peşəkar yazı hesab etmirəm.

***- Telefonlara cavab verməditiniz, mətbuatdan qaçdığınız vaxtlar olubmu? Bunu nə üçün etmisiniz?***

- Telefonumu qapatmıram, ancaq elə olur ki, zənglərə cavab vermirəm. Müəyyən obyektiv səbəblər olur ki, telefon yanımda olmur, tədbirdə oluram və sair. Ancaq elə də olur ki, sadəcə, telefonu götürmək istəməmişəm. Çünki bilmişəm ki, zəng edən adam bu sahənin adamı deyil, jurnalist hesab olunmur. Mənim haqqımda yazan elə adam var ki, mən jurnalistikaya gələndə o, hələ anadan olmamışdı. Bu baxımdan etiraf edirəm ki, telefona cavab verməmişəm vaxtlar olub. Səhəri gün də həmin mətbuat orqanında haqqımda tənqid oxumuşam. Hətta cənab nazirə şikayət ediblər ki, sizin Namiq telefonumuza cavab vermir. Belə hallar olub.

**"Jurnalistlər deyirlər ki, biz səni tapa bilmirik. Mən də jurnalist tapa bilmirəm, peşəkar jurnalist çox azdır"**

***- Yəqin ki, arabir ən azı müşahidə məqsədilə ictimai nəqliyyatdan istifadə edirsiniz.***

- Təbii, istifadə edirəm. Hətta insanlar məni görəndə təəccüblənirlər ki, bunun metroda və ya avtobusda nə işi var (gülür). Mənim həyat tərzim çox sadədir, piyada da gəzirəm, ictimai nəqliyyatdan da istifadə edirəm. Həmişə tənqid etdiyim küçələrdən birində yaşayıram. Orada da avtobusların, taksilərin sıxlığı var, problemlər var. Sadəcə olaraq, mən də cəmiyyətin bir parçasıyam. İstərdim ki, bizim ictimai nəqliyyat da sivil qaydada olsun. Sürücü ilə sərnişin dalaşmasın, kimsə tıxacda qalıb əsəbiləşməsin. Bu həm də bizim işimizə birbaşa aidiyyəti olan məsələdir və mərkəzi icra orqanı olaraq biz əsas siyasəti həyata keçirən qurumuq. Biz də vətəndaşlar kimi problemlərin olmasını istəmirik.



**"...Hər dəfə müsahibə üçün cənab nazirdən icazə almıram"**

***- Siz bir məmur yox, sadə vətəndaş kimi Azərbaycan nəqliyyat sektorunu necə qiymətləndirərdiniz?***

- İstərdim bunu vətəndaşlar qiymətləndirsin. Mənim verdiyim qiymət bəlkə də subyektiv olar. Ancaq nəzərə alsaq ki, son 10 ildə Azərbaycanda hətta yüzillər boyu görülməyən işlər görülüb, körpülər, yollar tikilib, avtobus parkı yenilənib, sərnişin nəqliyyatında nə qədər işlər görülüb. Hətta biz Xınalığa yol çəkəndə cənab prezident demişdi ki, əgər biz buraya da yol çəkdiksə, Azərbaycanda nəqliyyat infrastrukturunun qarşısında heç bir manea dura bilməz. Bizim işimizə ölkə başçısı bu cür qiymət verib. Bu baxımdan peşəkarlar qiymət versə, daha yaxşı olar.

***- Bir ara nəqliyyat naziri Ziya Məmmədov çox tənqid olunurdu. İndi o ajiotaj bir qədər səngiyib. Bunu siz də hiss edirsinizmi? Sizcə, səbəb nədir?***

- Məsələ ondadır ki, hər bir yeni mövzu olanda ona diqqət də çox olur. Bu gün Azərbaycanda iqtisadi islahatlar gedir, idarəetmədə müəyyən təkmilləşdirmə işləri aparılır. Yeni dövlət qurumları yaradılır, bəziləri ləğv edilir, birinin səlahiyyətləri başqasına verilir. İnsanlar üçün daha asan olsun deyə bir ASAN xidmət yaradılıb. Söhbət vətəndaş cəmiyyətinin daha rahat nəfəs alması məqsədilə atılan addımlardan gedirsə, bu gün Nəqliyyat Nazirliyi də, bizim rəhbərlik də cənab prezident tərəfindən həyata keçirilən bütün islahatları dəstəkləyirik. Ajiotajın səngiməsinə gəlincə, Nəqliyyat Nazirliyinin səlahiyyətlərinin müəyyən hissəsi başqa qurumlar tərəfindən həyata keçirilir. Müraciətlərin də bir hissəsi onlara yönəlir. Bu baxımdan mənim də işim bir qədər yüngülləşib, asudə nəfəs alıram, jurnalistlərə daha çox cavab verə bilirəm. Məzuniyyətimi yarımçıq qoyub bu müsahibəyə gəldim. Çünki müəyyən məsələlər var ki, onu cəmiyyətə demək lazımdır. Mən mətbuatdan qaçan adam olmamışam. Amma sözün həqiqi mənasında, böyük hərflərlə yazılan mətbuatdan. Əgər kimsə desə ki, Azərbaycanda peşəkar jurnalistlərin sayı iki əlin barmaqlarına yerləşir, o, böyük qəbahətdir. Mənim jurnalist həmkarlarım bundan inciməsin. Jurnalist məmuru danışdıra bilirsə, bu, artıq qələbədir. Məmur çox vaxt jurnalistdən qaçır. Çünki bilir ki, ya verilən sual düzgün deyil, ya da başqa məqsədlə verilir. İnsan işində düz olmalıdır ki, heç kimdən çəkinməsin. Biz bunu nə qədər bacarmışıq, bunu yəqin ki, mətbuatdakılar deyər.

***- Namiq müəllim, biz mətbuat xidmətlərinin media ilə əlaqələrinin hansı səviyyədə olmasına bələdik. Çünki gözümüzün önündə baş verir. Ancaq bir mətbuat xidməti rəhbərinin o qurumun rəhbəri ilə münasibətlərinə, iş prosesinə bələd deyilik. Həmin məqamı bizim üçün aça bilərsinizmi?***

- Mən buraya işə gələndə cənab nazirlə çox açıq söhbətimiz oldu. Bizim nazir mətbuata çox açıq və demokratik adamdır. Mənə dedi ki, bu sahədən gəlmisən, iki təhsilin var. Jurnalistlərlə açıq ol, bütün sualları cavablındır, mənim əvəzimdən danış. Bizim belə bir söhbətimiz oldu. Bizim rəhbərliklə elə səmimi bir münasibətimiz var ki, mən hər dəfə müsahibə üçün cənab nazirdən icazə almıram. Bir dəfə mənim qarşımda bu tapşırığı qoyub və 13 ildir bu sistemlə gedirik. O, mənə arxayındır, mən də ona arxayınam ki, cənab nazir mənim müsahibəmi oxuyanda, hətta orada səhv də eləsəm, onu mənə irad tutmaz. Ancaq çalışıram ki, bunu etməyim. Mətbuat xidməti ondan ötrüdür ki, jurnalistlər hər dəfə naziri narahat etməsin. Bütün məlumatlar mənim masamın üstündədir. Kimə lazımdırsa, gəlsin, bölüşək. Bizim cənab nazirlə həm səmimi işçi-rəhbər münasibətlərimiz var, həm də müasir idarəçiliyə uyğun peşəkar münasibətlərimiz. Həftəlik olaraq, rəhbərliyə hesabat veririk.

***- Siz şəxsən gündəlik cənab nazirlə əlaqə saxlayırsınızmı?***

- Elə təcili hadisələr olur ki, biz gündə bir neçə dəfə cənab nazirlə əlaqə saxlamalı oluruq. Mənim üçün cənab nazirlə əlaqə saxlamaq problem deyil. Hətta bəzən özü bizimlə əlaqə saxlayır, tapşırıq verir. Bu 13 ildə bir dəfə də olmayıb ki, mən bu telefonla cənab nazirlə əlaqə saxlayım, o, cavab verməsin *(əli ilə stolun kənarındakı telefonlardan birini göstərir)*. İş belə qurulmalıdır, operativ şəkildə əlaqə saxlayıb tapşırıq almasan, işi yerinə yetirə bilməzsən.

***- Mətbuatla əlaqələrinizi şəxsi dostluq üzərində qurursunuz, yoxsa sırf peşəkar müstəvidə?***

- Bilirsiniz, "Yeni Müsavat"ın köşə yazarı Zamin Hacı ilə mənim heç bir tanışlığım yoxdur, ancaq hər gün işə onun yazılarını oxumaqla başlayıram. Onun yazıları mənə çox pozitiv əhval-ruhiyyə verir. Elə jurnalist də var ki, həyatda dostumdur, ancaq qələmi yoxdur, yaza bilmir. Mən bütün jurnalistlərə kitab oxumağı tövsiyə edirəm.

***- Xəbərləri hansı saytlardan oxuyursunuz?***

- Sizə müsahibə verdiyimə görə demirəm, elə birinci musavat.com-u açıram. Virtualaz.org-a, azadliq.info-ya da baxıram. Rəsmi qəzetləri oxuyuram.

***- Bizim tanımadığımız hansı tərəfləriniz var?***

- Belə bir istedadım var ki, 10-a yaxın incəsənət xadimini parodiya edə bilirəm. Bunu mətbuatda çoxları bilmir. Flora Kərimova, Polad Bülbüloğlu, mərhum aktyorlardan Əliağa Ağayev, Ağahüseyn Cavadov və digərlərini parodiya edə bilirəm. Mahnıları tərsinə oxuya bilirəm. Yaxşı üzürəm, velosiped sürürəm, şahmat oynayıram.

İki təhsilim var. Bakı Dövlət Universitetinin tarix fakültəsini fərqlənmə ilə bitirmişəm, AMEA-nın İqtisadiyyat İnstitutunun aspiranturasını bitirib elmi işçi kimi işləmişəm. Fizika, astronomiya, coğrafiya, kimya elmlərinə marağım var. Mən həm də ABŞ-ın Nemraska ştatının və həmin ştatın paytaxtı Linkoln şəhərinin fəxri vətəndaşıyam.

***- Şəxsi həyatınızdan nə danışa bilərsiniz?***

- Ailədə 6 uşaq olmuşuq. Ailəmiz çox kasıb olub. Ailədə yalnız mənim ali təhsilim var. Bir övladım var. Bir qədər gec evləndim, oğlum 9 yaşındadır. Həyat yoldaşım BDU-nun kimya fakültəsində işləyir.

❑ **Nərgiz LİFTİYEVA**
**Fotolar: Məğrur MƏRDİNDİR**

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016







# "Ölümündən bir neçə saat öncə zəng edib dedi ki..."

## Şəhid əsgər Natiq Tahirlinin Bakıda 7 mərasimi keçirilib; **atası:** "Oğlumla bağlı başqa xəyallar qurmuşduq..."

**Mayın 17-də qoşunların təmas xəttində erməni hərbi birləşmələrinin atəşkəsi pozması nəticəsində şəhid olan Azərbaycan ordusunun əsgəri Tahirli Natiq Namiq oğlunun yeddi mərasimi keçirilib. Öncə qeyd edək ki, Natiq Tahirli doğulduğu Lerik rayon Almu kəndində torpağa tapşırılıb. Dünən - mayın 23-də isə Nizami Rayon İcra Hakimiyyətinin dəstəyi ilə şəhidə yaşadığı binanın qarşısında ehsan süfrəsi açılıb. "Yeni Müsavat" əməkdaşı olaraq biz də yas mərasimində iştirak edib, şəhidin ailəsi ilə görüşdük.**

Şəhidimizi anmaq üçün yas mərasiminə gələnlərin ardı-arası kəsilmirdi. Onlar arasında bayrağa bürünən gənclər, şəhid əsgərin dostları, məktəblilər, ictimaiyyət nümayəndələri də var idi. Hər kəs şəhidi qürurla anırdı.

**Natiq Tahirlinin əmisi Ramin Tahirov** bizimlə söhbətdə bildirdi ki, qardaşı oğlu şəhid olmadan bir neçə saat öncə atası ilə telefonla danışıb: "Atışma səsi gəlirmiş. Atası soruşub ki, bu nə səsdir? Orada nə baş verir? Natiq bildirib ki, qorxulu heç nə yoxdur. Narahat olmayın, onlar atır, biz də cavab atəşi açırıq. Atası deyib ki, ehtiyatlı ol. Sonra sağollaşıblar. Daha sonra Natiq sanki ölümünü hiss edirmiş kimi sinif yoldaşına 3 ədəd fotosunu göndərib. Fotonu göndərəndə tapşırıb ki, bunları gedib çıxartdırıb, böyüdün. Natiq deyib ki, burada vəziyyət yaxşı deyil, ola bilər ki, şəhid olam. Deyib ki, atama deməsəm də, bura çox təhlükəli yerdir. Biz düşməni görürük, onlar da bizi görürlər. Elə həmin gecənin səhəri xəbər aldıq ki, uşaq şəhid olub. Ancaq orada nə baş verməsi barədə bizə dəqiq heç nə deməzdi. Yəqin görüb ki, ermənilər çox atırlar, ona görə dostuna şəkilləri göndərib. Natiq çox vətənpərvər uşaq idi. Elə xidməti zamanında da vətənpərvərliyi ilə seçilirdi. Təbii ki, onu itirmək bizim üçün ağırdır. Ancaq düşünəndə ki, Natiq vətənimiz üçün şəhid olub, qürur hissi keçiririk. Bu, bizim üçün kədər yox, qürurdur".

Yas mərasimində Nizami Rayon İcra Hakimiyyətinin başçısı Arif Qasımov, deputat Rasim Musabəyov da iştirak edirdilər. Onlar da şəhidimizə Allahdan rəhmət diləyib, şəhidin ailəsinə mənəvi dəstək olurdular. Şəhid atası Namiq Tahirov yas mərasiminə gələn qonaqları qəbul etdiyi üçün onunla mərasimin sonunda söhbət edə bildik. Bu zaman kəsiyində yas mərasiminə qatılan **Qarabağ döyüşçüsü, xalq hərəkatının fəal üzvlərindən biri, keçmiş bələdiyyə polisinin rəisi olmuş Mehdi Mehdiyevin** fikirlərini aldıq.

**Qeyd edək ki, Natiq Tahirli sosial şəbəkədə Mehdi Mehdiyevin bayrağımızın fonunda olan şəklini paylaşdığı üçün ilk olaraq hər kəs onun M. Mehdiyevin qohumu olduğunu düşünürdü. Mehdi Mehdiyev şəhidimizə Allahdan rəhmət diləyib bildirdi ki, artıq cəmiyyətimizdə şəhidə qarşı yanaşma fərqlidir:** "Natiq Tahirli mənim qohumum olmasa da, onu elə özümdən bilirəm. Bu, bizim hamımız üçün itkidir. Eyni zamanda hər birimizin qürur yeridir. Artıq şəhidlərimizə qarşı ictimaiyyətdə, cəmiyyətimizdə münasibət dəyişib. Əvvəlki kimi şəhidimizi ağlaşma ilə deyil, qürurla, bayraqla qarşılayırıq. Bütün bunlar qürurverici, çox müsbət haldır. 2-5 aprel döyüşlərindən sonra bizim sınmış qürurumuz az da olsa bərpa olundu. Hesab edirəm ki, hazırkı ruh yüksəkliyi ilə bütün torpaqlarımızı azad edə bilərik. İnşallah, yaxın zamanda o da baş verəcək. Allah şəhidimizə rəhmət eləsin".

**Yas mərasimində iştirak edən Respublika Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Nizami rayon filialının sədri, Qarabağ əlili Məhi Mehdiyev isə bunları söylədi:** "Tutduğu vəzifəsindən, siyasi mövqeyindən asılı olmayaraq hər kəs Qarabağ məsələsində birlik nümayiş etdirir. Eləcə də şəhidlərimiz olan zaman hər kəs onun cənazəsinin ətrafında birləşə bilir. Xalqımızın birliyi elə buradan görünür. Bu çox müsbət haldır. Nizami Rayon İcra Hakimiyyətinin nümayəndələri də rayonun bütün xeyir və şər işlərində yaxından iştirak edirlər. Bu gün də buradadırlar. Bu, bizim bilavasitə vətəndaşlıq borcumuzdur. Əgər biz gənc nəslə vətənpərvərlik aşılamaq istəyiriksə, onu bu cür məqamlarda etmək lazımdır. Bu gün şəhidimizin yas mərasiminə məktəb şagirdləri də gəlirdi. Ümumiyyətlə, aprel hadisələrində Azərbaycan xalqının birliyi açıq şəkildə göründü. Göründü ki, bu xalq torpağını, vətənini unutmayıb və hər an əldə silah vətənin müdafiəsinə hamılıqla qalxmağa hazırdır. Allah şəhidimizə rəhmət eləsin. Şəhidlər ölməz".



**Daha sonra şəhid atası Namiq Tahirovla görüşdük. N. Tahirov bildirdi ki, oğlunu evləndirməyə hazırlaşırmış. Hətta bir neçə gün öncə onun üçün qız da bəyənibmiş:** "Oğlum 7 ayın əsgəri idi. Ölümündən bir neçə saat əvvəl də onunla danışdım. Ancaq bilmirdim ki, belə olacaq. Biz başqa xəyallar qururduq. Düşünürdüm ki, buradakı evimizi sataq, gedib Zabratda torpaq alıb ev tikək. Çünki hərbi xidmətini bitirib geri döndükdən sonra Natiqi evləndirməyi düşünürdük. Düzdür, onun üçün bir qız bəyənsək də anasına deyib ki, özünün istədiyi var. Mən də bu məsələni biləndən sonra daha bu barədə ona heç nə demədim. Sevdiyinin kim olduğunu isə bilmədik. Natiqin ölümündən 5 gün əvvəl qardaşım qızını da maşın vurdu. O da dünyasını dəyişdi. Ailəmiz ard-arda itkilər verdi. Ancaq Natiq sıradan bir insan kimi dünyasını dəyişmədi. Oğlum şəhid oldu və bununla qürur hissi keçirirəm. Vətən sağ olsun".

**Mərasimdə olarkən onu da öyrəndik ki, Namiq Tahirovun da ürəyi xəstədir. O da təcili əməliyyat olunmalıdır. Eyni zamanda N. Tahirovun ikinci övladı anadangəlmə ağır xəstədir ki, onun da müalicəsinə ehtiyac var.**

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

❑ Əli RAİS
Fotolar müəllifindir

# Xristian ölkələrindəki müsəlman rəhbərlər...

## Onların fəaliyyəti İslam dünyasına nə üçün bəhrə vermir; **Natiq Miri:** "Əsas məsələ Amerikanın dövlət və milli maraqlarıdır"



Barak Obama



Sadiq Xan

**ABŞ prezidenti Barak Obamanın vəzifədən gedişinə aylar qaldı. Bu ilin noyabrındakı seçkilərdə Obama prezidentliklə vidaşalacaq. Müsəlman Obama dövlət başçısı gəldiyi vaxt bunun İslam dünyası üçün müsbət nəticələrinin olacağı deyilirdi.**

Amma 8 illik prezidentliyi dönəmində Obama müsəlman ölkələri üçün heç bir müsbət iş görmədi. Əksinə, bu ölkələrdə vəziyyət daha da gərginləşdi. Ümumiyyətlə, indiyə qədər müsəlman olan şəxslər müxtəlif xristian ölkələrdə rəhbərlikdə təmsil olunublar. Amma heç birinin İslam dünyası üçün faydası olmayıb. Son olaraq, dünyanın qabaqcıl şəhərlərindən olan Londonda ilk dəfə mer müsəlman seçildi. Pakistan əsilli Sadiq Xan bu postu tutdu. İstər Obama olsun, istərsə də Sadiq Xan, hər iki şəxsin vəzifəsi onlara müsəlman ölkələri üçün müsbət işlər görmək imkanları versə də, bundan heç biri hələ də faydalanmayıb.

Ekspertlər bu amili İslam ölkələri arasında birliyin olmaması ilə əlaqələndirirlər. Bu tipli şəxslərin böyüdükləri mühitin də bu məsələdə mühüm rol oynadığını düşünənlər az deyil.

**Politoloq Natiq Miri bildirdi ki, bir şəxsin hansı irqə, dinə aid olması siyasət aləmində həlledici rol oynamır:** "Obamanın müsəlman olması formal xarakter daşıyır. O, müsəlman insanı olmuş olsa belə, İslamdan gələn qaydalara riayət edəcək şəxs deyil. Amerika kimi bir dövlətin başçısı olmaq konkret məsuliyyət və səlahiyyətlər nəzərdə tutur. Bunu da Obama yerinə yetirmək məcburiyyətindədir. ABŞ kimi dövlətlərdə şəxslərin hansı irqə, dinə mənsub olmaları əhəmiyyətli deyil. Burada əsas məsələ Amerikanın dövlət və milli maraqlarıdır. Buna görə də prezidentlikdə müsəlman, xristian və yəhudinin olması Amerikanın dövlət siyasətini dəyişdirə bilməz. Bu, daim belə olacaq. Bunlar qırmızı xətt kimi tapdanası məsələ deyil. Əgər bu belə olmasaydı, Obama kimi şəxslərin prezident olması mümkünsüz idi. Tutaq ki, bir azərbaycanlı, yaxud türk hansısa ölkədə nazirdir, bu, hər hansı bir siyasi amil daşıyırmı? Qətiyyən yox. İran dövlətində minlərlə insan var ki, orduda qulluq edir, dövlətə xidmət edir, yüksək vəzifələrdə təmsil olunurlar. Amma onlar müsəlman dünyasına yox, İran dövləti və fars rejiminə xidmət edirlər. Çünki bu məsələdə milli faktor öndə deyil. Dünya siyasətində də belə məsələlərə önəm verilmir. Əsas olan yanaşma və düşüncə tərzidir. Milli mənsubiyyət şəxsləri bu istiqamətdə fəaliyyət göstərməyə heç zaman imkan verməyəcək. Çünki onlar başqa ruhda böyüyüblər. Bu baxımdan Obamanın müsəlmanlığı əsas faktor ola bilməz".

**Politoloq belə situasiyanın yaranmasının kökündə din faktorunun olmadığını söylədi:** "İndiyə qədər yüz milyardlarla qoyulan sərmayələrin nəticəsidir ki, İslam toplumu dünyada parçalanmış şəkildədir. Çünki "Parçala, hökm et" siyasəti Qərb və Şərqdə, Rusiyada tarix boyu əsas siyasət olub. Hazırda da bu belədir. Böyük ərəb dünyası onlarla kiçik dövlətlərə bölünüb ki, həmin ölkələr xristian dövlətləri tərəfindən asanlıqla idarə olunur. Ona görə milli mənsubiyyət deyil, maddi imkan burada mühüm rol oynayır".

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Moskva və ABŞ Qarabağ uğrunda yarışa girib, ancaq...

## Ekspertlər: "Azərbaycan hələ ki nə Rusiya, nə də Vaşinqtondan dəstək alır"

**Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyev və Serj Sərkisyanın gələn ay keçirilməsi nəzərdə tutulan görüşünün yeri və günü hələlik tam dəqiq deyil. Ancaq müşahidələr bunu deməyə əsas verir ki, növbəti görüşə ev sahibliyini Rusiya edəcək. Əslində aprel əməliyyatlarında atəşkəsə nail olmaqla Moskva prezidentlərin görüşündə moderatorluq etməyə haqq edib və bu görüşün hətta döyüşlərdən iki-üç həftə sonra baş tutacağı barədə də ehtimallar var idi. Lakin Rusiya XİN başçısı İrəvana səfəri zamanı bəyan etdi ki, hələlik bir az zamanın keçməsinə, danışıqlar mühitinin yaranmasına ehtiyac var. Görünür, çoxsaylı itkilərlə nəticələnən ağır döyüşlərdən sonra Kreml tezliklə keçirilən görüşün heç bir mənasının olmadığını dəqiqliklə hesablamışdı. Elə Vyana görüşündə də ciddi nəticənin olmaması bunu təsdiqlədi. Rusiya isə 5 apreldə atəşkəsə nail olmaqla öz imicinə müsbət xallar yazdırandan sonra nəticəsiz görüşə ev sahibliyi etmək istəməzdi.**

Lakin fakt budur ki, Moskva Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı konkret həll planına malik olduğunu bildirir. Hətta ortada "Lavrov planı"nın olduğu barədə də çoxsaylı məlumatlar dövriyyədədir. Belə olan təqdirdə Rusiya yalnız müzakirənin məqamı yetişən anda ortaya sənəd qoymağa qərarlı ola bilərdi. Bu isə müharibə ritorikasının nisbətən səngidiyi şəraitdə mümkündür.

Proseslərdə adətən seyrçi qalan ABŞ da son zamanlar aktivliyini artırmaqdadır. Hər halda, Azərbaycan prezidentinin ABŞ səfərindən sonra Vaşinqton Qarabağ ətrafında baş verənlərdən narahatlığını daha intensiv şəkildə bəyanlamaqda, həmçinin yüksək çinli Amerika rəsmiləri Bakıya zəng etməkdədir. Bu isə Qarabağ məsələsinin tənzimlənməsində ABŞ-Rusiya rəqabətinin olduğunu demək imkanı verir.

Elə Vyana görüşündən sonra Rusiya XİN başçısının dedikləri də bu qənaəti yaradır ki, Kreml Vyana görüşünü təşkil edən ABŞ-a cavab hazırlayır. Sergey Lavrov deyib ki, Rusiya iyun ayında növbəti görüşün vaxtını və yerini razılaşdıracaq və münaqişənin nizamlanması üzrə parametrlərin müzakirəsini davam etdirəcək. Ancaq bu rəqabət prosesi nə dərəcədə irəli aparacaq, demək çətindir.

**Politoloq Arzu Nağıyev bildirdi ki, konfliktin həlli istiqamətində ATƏT-in Minsk Qrupunun həmsədrlərinin verdikləri hər bir bəyanat onların təmsil etdikləri dövlətlərin mövqeləridir:** "Dövlətlər isə BMT-nin Təhlükəsizlik Şurasının beş daimi üzvündən üçüdür. Məlumdur ki, münaqişənin həllində və ya uzanmasında hər bir dövlətin öz marağı var. ABŞ-ın əsas marağı regionda nüfuzunu bərpa etməkdən ibarətdir. Fakt budur ki, Rusiya-Gürcüstan müharibəsindən sonra çox böyük çətinliklə ABŞ Gürcüstanda öz mövqelərini gücləndirməyə çalışır. Amerika Qarabağ münaqişəsinin həllində ikiqat səylər göstərməlidir ki, Azərbaycanda və regionda nüfuz sahibi olsun. Çünki Ermənistan Rusiyanın strateji tərəfdaşı və forpostudur, hətta bir hərbi blokda təmsil olunurlar. Azərbaycan isə heç bir hərbi blokun üzvü deyil və ən böyük qonşularından biri və NATO üzvü Türkiyə ilə tərəfdaş, həmçinin strateji tərəfdaşdır. ABŞ bunu nəzərə almalıdır".

**A.Nağıyev hesab edir ki, ABŞ bundan başqa, Avropadakı portnyorları ilə Avropanın enerji təhlükəsizliyinin təmin edilməsi üçün məhz regionda təhlükəsizliyin təminatına diqqət yetirməlidir:** "Bunun üçün isə Vaşinqton Qarabağ münaqişəsinin həllinin çox böyük əhəmiyyət kəsb etdiyini başa düşməlidir. Təbii ki, belə bir fonda da Rusiya öz siyasi addımlarını atır və münaqişənin həlli üçün Kazan prinsipini və bir sıra təklifləri irəli sürməklə regionda nüfuz sahibi olduğunu qabartmağa çalışır. Məlumdur ki, ABŞ-da bu il prezident seçkiləri də keçiriləcək, məhz buna görə də Obama və onun komandası özlərindən sonra miras kimi həll edilməyən bir sıra münaqişələri, o cümlədən Dağlıq Qarabağ münaqişəsini də dondurulmuş şəkildə qoymaq istəmirlər. Bu, özünü Vyana görüşlərində bir daha göstərdi. Təbii ki, rəqabətin olması müsbət haldır, lakin əsas məsələ bu rəqabətdən doğan nəticədir. Yəni münaqişə beynəlxalq hüquq normalarına uyğun və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Azərbaycan tərəfi Vyana görüşünə diktə edən, şərtlər qoyan tərəf kimi getdi və buna da haqqı var".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə Qarabağ münaqişəsinin həllində Rusiya ilə ABŞ arasında ciddi rəqabət aparıldığını düşünmür:** "Əksinə, hər ikisi Cənubi Qafqazda müharibədə maraqlı deyil. Rusiya ona görə müharibədə maraqlı deyil ki, Ukrayna və Suriyanın ardından Cənubi Qafqazda yeni enerji - fiziki və maliyyə itkisinə yol vermək istəmir. Amerika isə müharibədə ona görə maraqlı deyil ki, Azərbaycan bölgənin açar dövlətinə çevrilib və enerji resursları dünya bazarlarına çatdırılır. Müharibə isə bu planlara xətər yetirə bilər. Amerika həm də ondan ehtiyat edir ki, müharibə başlayarsa, İran Cənubi Qafqaza daha çox nüfuz etməyə çalışacaq".

**Ekspertə görə, Rusiya ilə Amerikanı Dağlıq Qarabağ probleminin ədalətli həllinə biganə qalmaları da birləşdirir:** "Hər ikisi, sadəcə, atəşkəsin qorunmasını istəyirlər. Ancaq Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması məqsədilə Ermənistana təzyiq etmək nə Moskvanın gündəmində var, nə də Vaşinqtonun. Rusiya prezidenti Vladimir Putindən fərqli olaraq, ABŞ prezidenti Barak Obamanın nə zaman Dağlıq Qarabağ ifadəsini tələffüz etdiyini heç xatırlamıram. Buna baxmayaraq, Vaşinqton Moskvanın konfliktin həllində təkbaşına vasitəçiliyinə də seyrçi qalmaq istəmir. 6 apreldə atəşkəsin əldə olunması Rusiya prezidentinin xidməti idi. Üstəgəl, bu müddətdə Bakı və İrəvana da səfər edənlər əsasən rusiyalı rəsmilər idi. Ona görə də Vaşinqton gec də olsa, prosesə qoşuldu. Barak Obamadan olsaydı, bəlkə də Vaşinqton əvvəlki tək passiv qalacaqdı. Ancaq Dövlət Departamentində və Pentaqonda gördülər ki, Cənubi Qafqaz əldən gedə bilər. Ona görə də Ağ Ev sahibini anlatdılar ki, Amerika prosesdən geri qalır. Nəticədə ABŞ dövlət katibi Con Kerri vəziyyətlə maraqlanmağa başladı, həm Azərbaycan və Ermənistan prezidentlərinə zəng etdi, həm də böyük ölçüdə Vyanadakı görüşün əsas təşəbbüskarlarından biri oldu".


Arzu Nağıyev


Elxan Şahinoğlu

**E.Şahinoğlu Vyana görüşündən bir nəticə hasil olmadığı yanaşması ilə də razıdır. Ancaq onun fikrinsə, ən azı Kerri prezidentlərin görüşündə iştirak etməklə ABŞ-ın da vəziyyətdən narahat olduğuna işarə vurdu:** "Daha sonra ABŞ vitse-prezidenti Cozef Baydenin Azərbaycan və Ermənistan prezidentlərinə telefon zəngi bir daha onu göstərdi ki, Vaşinqton Moskvanın təkbaşına vasitəçiliyində deyil, digər həmsədrlərlə birgə fəaliyyət göstərməsində maraqlıdır".

**Politoloq bu vəziyyətin Bakı üçün sərfəli olduğu qənaətindədir:** "Əlbəttə, Azərbaycanın da maraqlarına cavab vermir ki, Moskva münaqişənin həllində təkbaşına vasitəçilik etsin. Çünki Moskvanın münaqişənin həlli ilə bağlı Bakıya ağır şərtləri ola bilər. Bu şərtlər arasında Azərbaycan ərazisində yalnız rusiyalı sülhməramlı qüvvələrin yerləşdirəsindən tutmuş, "paket həll variantının" ağırlıq qazanmasına qədər bəndlər yer alır. Bu şərtlərin heç biri Azərbaycanın maraqlarına cavab vermir. ABŞ-ın özü də Azərbaycanda rusiyalı sülhməramlı qüvvələrin yerləşdirilməsini istəmir. Ona görə də Vaşinqtonun Moskvanın iştahasını neytrallaşdırması Azərbaycanın maraqlarına uyğundur. Ancaq bu amilin münaqişəsinin ədalətli həllini sürətləndirəcəyini söyləmək çətindir. Bizim üçün önəmli olan ilkin şərt irəli sürülmədən Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılmasıdır. Bu məsələdə biz nə Rusiya, nə də hələ ki Vaşinqtondan dəstək alırıq. Bu məsələni yalnız özümüz həll edə bilərik. Azərbaycanın cəbhə bölgəsində qazanacağı növbəti üstünlük Rusiya və ABŞ-ı reallığı qəbul etməyə məcbur edəcək. Yoxsa Rusiya ilə ABŞ-ı ortaq baxışları və ya rəqabət meylləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini yaxınlaşdırmayacaq".

***

"Sarkisyan həddindən artıq çaşqın idi. Hazırkı situasiyada nə etmək lazım olduğunu konkret bilmirdi. Onun mövqeyi əvvəlcədən formalaşmış bir mövqe deyildi. Belə olan halda çaşğınlıq onun sifətində daha çox hiss olunurdu". Bu sözləri isə ANS-ə Azərbaycan və Ermənistan prezidentlərinin Vyana görüşünü şərh edən **Prezident Administrasiyası rəhbərinin müavini Novruz Məmmədov deyib.**

**Ölkə rəsmisinin sözlərinə görə, Avropada, ABŞ-da, hətta Rusiyanın özündə belə bir fikir formalaşıb ki, bu münaqişəyə daha diqqətli olmaq lazımdır və məsələnin həllini ortaya qoymağın vaxtı gəlib çatıb:** "Əsas fikir isə ondan ibarət oldu ki, dünyada yeni bir qaynar nöqtə yaratmaq lazım deyil. Ermənistan tərəfi belə bir situasiyada düşünürdü ki, özünü o formada ortaya qoysun ki, onun mövqeyi tərəflər üçün, nümayəndə heyətlərinin rəhbərləri üçün qəbul edilən, inandırıcı olsun". **N.Məmmədov danışıqlardan sonra Ermənistan prezidentinin verdiyi açıqlamalara və bütün bu açıqlamalara cavab olaraq Azərbaycanın təvazökarcasına susqun mövqe tutmasına da toxunub. O, Ermənistan tərəfinin bu cür çıxışları adətən özlərinə haqq qazandırmaq, əsasən də daxili ictimaiyyətə öz mövqelərini yürütmək və özlərinə bəraət qazandırmaq üçün etdiyini qeyd edib:** "Soçi, Paris, Kazan görüşündən sonra olduğu kimi onlar bu dəfə də açıqlama vermək üçün bir daxili tələbat hiss etdilər. Biz bu cür bəyanatlarla münaqişənin həllinə gəlib çatmağı mümkünsüz hiss edirik. Bu bəyanatlar başqa məqsədlərə xidmət edir".

**N.Məmmədov deyib ki, aprel ayının əvvəlində baş verən hadisələr Ermənistan tərəfinin düşünülmüş və ya düşünülməmiş addımı olsa da, dünya ictimaiyyətinin, həmsədr dövlətlərin, müxtəlif beynəlxalq və regional təşkilatların diqqətini bir daha bu münaqişəyə cəlb etdi və nünümayiş etdirdi ki, bu münaqişə dondurulmuş münaqişə deyil:** "Eyni zamanda Avropada, Amerika Birləşmiş Ştatlarında, lap belə Rusiyanın özündə də helə bir fikir formalaşdı ki, bu münaqişəyə daha diqqətli olmaq lazımdır, bunun həllini ortaya qoymaq üçün artıq vaxt gəlib çatıb". **PA rəsmisi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin Vyana görüşündən sonra səlahiyyətlərinin artırılmasını şərh edərkən həmçinin qeyd etdi ki, Azərbaycan bununla bağlı rəsmi mövqe bildirib:** "Burada əsas ideya atəşkəs rejiminin mövhkəmləndirilməsi idi. Yəni aprelin əvvəllərindəki kimi və ondan sonra da Ermənistan tərəfi daim təxribatlarla məşğuldur. Bunların olmaması üçün bir neçə təklif irəli sürüldü, onlardan biri də ATƏT-in nümayəndəsinin monitorinq aparması üçün mandatının genişlənməsi idi. Prinsip etibarı ilə biz dedik ki, bu təklifləri həmsədr ölkələrinin təklifləri kimi qəbul edirik, yəni buna etiraz etmirik". N.Məmmədov əlavə edib ki, ATƏT-in nümayəndəsinin monitorinq imkanları bu vaxta qədər də olub: "Bizim istədiyimiz burda yalnız budur ki, monitorinq olursa-olsun, etiraz etmirik, müəyyən mənada genişləndirmə imkanları varsa da, genişləndirilsin. Amma bu ədalətli olsun, bununla bağlı, baş verən hadisələrlə bağlı nümayəndə heyəti düzgün fikir bildirsin, bəyanat versin, açıq-aydın desin". O deyib ki, baş verən hadisələrlə bağlı dəqiq, qərəzsiz, reallığı əks etdirən mövqenin ortaya qoyulması böyük bir problemdir.

Göründüyü kimi, rəsmi Bakı da tezliklə həll yolunun tapılacağına o qədər də ümid etmir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 112 (6433) 24 may 2016

# Ev dustağı edilənlərə nələr qadağandır

## Cəzanın bu növü barədə bilmədiklərimiz...

**Xəbər verdiyimiz kimi, bugünlərdə Naxçıvanın sabiq milli təhlükəsizlik naziri Vəli Əsgərovun barəsində həbs-qətimkan tədbiri seçilib. Ev dustaqlığında olan sabiq nazir barədə qərarın dəyişməsinə isə onun öz statusuna uyğun olmayaraq davranmasıdır. Belə ki, V.Əsgərovun ev dustağı olduğu halda vəkili ilə skayp-la danışması ev dustaqlığının şərtlərinin pozulması kimi qiymətləndirilib, məhkəmədə ev dustaqlığı haqda qərar dəyişdiriləkək, həbs-qətimkan tədbiri ilə əvəz edilib.**



Bu günə qədər Azərbaycanda tanınmış şəxslər arasında ev dustaqlarının sayı az olmayıb. "Yeni Müsavat" onların kimliyini xatırlatmadan öncə ümumiyyətlə, qanunvericilikdə bu məsələnin necə tənzimləndiyini yada salır.

Cinayət Prosessual Məcəllənin 163 bəndində ev dustaqlığı barədə bildirilib ki, ev dustaqlığı qətimkan tədbiri qismində təqsirləndirilən şəxsi həbsdə saxlamadan və cəmiyyətdən tam təcrid etmədən, lakin məhkəmənin qərarı ilə müəyyən edilmiş azadlıq və digər bir sıra hüquqlara məhdudiyyətlər qoyulmasından ibarətdir. Bundan başqa, ev dustaqlığının qətimkan tədbiri qismində seçilməsi məsələsinə məhkəmə tərəfindən yalnız müdafiə tərəfinin vəsatəti əsasında həbs-qətimkan tədbirinin seçilməsi haqqında qəbul olunmuş qərarın əvəz edilməsi kimi baxıla bilər.

Məcəllənin 3-cü bəndində yer alıb ki, ev dustaqlığını ayrı-ayrılıqda tətbiq olunan və ya mümkün məcmusu qaydasında aşağıdakı tədbirlər müşayiət edə bilər:

163.3.1. yaşayış yerindən tamamilə və ya müəyyən vaxtlarda çıxmağa qadağan qoyulması;

163.3.2. telefon danışıqlarına, poçt göndərişlərinə və digər rabitə vasitələrindən istifadəyə qadağan qoyulması;

163.3.3. müəyyən şəxslərlə ünsiyyətdə olmağa və evində hər hansı şəxsi qəbul etməyə qadağan qoyulması;

163.3.4. elektron nəzarət vasitələrinin tətbiqi, bu vasitələri gəzdirmək və onların işinə xidmət etmək vəzifəsinin qoyulması;

163.3.5. nəzarət telefon zənglərinə və ya digər nəzarət siqnallarına cavab vermək, təhqiqat orqanına və ya təqsirləndirilən şəxsin davranışına nəzarət edən digər orqana müəyyən edilmiş vaxtda zəng etmək, yaxud şəxsən gəlmək vəzifəsinin qoyulması;

163.3.6. təqsirləndirilən şəxsin və ya onun yaşayış yerinin müşahidə altına alınması, habelə evinin, mənzilinin və ya yaşayış üçün ona ayrılmış digər yerin polis tərəfindən mühafizə edilməsi;

163.3.7. təqsirləndirilən şəxsin lazımi davranışını və cəmiyyətdən natamam təcrid olunmasını təmin edən digər tədbirlər görülməsi.

163.4. Ev dustaqlığı, onun müddətinin müəyyən edilməsi və uzadılması, ev dustaqlığından azad etmə barədə qərarların qəbul edilməsi əsasları və qaydası bu Məcəllənin həbs qətimkan tədbirinə aid olan müddəaları ilə tənzimlənir.

163.5. Məhkəmə təqsirləndirilən şəxsin həbsdən azad edilməsi məsələsini həll edərkən ev dustaqlığının qətimkan tədbiri qismində seçilməsi və ya bundan imtina edilməsi barədə qərar qəbul edir.

Ev dustaqlığı qətimkan tədbirinin seçilməsi və ya bundan imtina edilməsi barədə məhkəmənin qərarından apelyasiya instansiyası məhkəməsinə şikayət və ya protest verilə bilər. İbtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror həmin qərarla razı olmadıqda:

163.5.1. ev dustaqlığı qətimkan tədbirinin seçilməsi barədə məhkəmənin qərarı yalnız apellyasiya instansiyası məhkəməsi tərəfindən təsdiq olunduqdan sonra qanuni qüvvəyə minir;

163.5.2. bu qərarın qanuniliyi və əsaslılığı məsələsinə apelyasiya instansiyası məhkəməsində baxılanadək birinci instansiya məhkəməsinin həbs qətimkan tədbiri kimi seçdiyi qərar ev dustaqlığı məsələsi həll edilənədək qüvvədə saxlanılır.

163.6. Ev dustaqlığı qətimkan tədbirinin tətbiqinə bu Məcəllənin 157.8-ci maddəsində nəzərdə tutulmuş hallarda müstəntiqin və ya ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun qərarına əsasən xitam verilə bilər.

Bu məsələ ilə bağlı detallarda isə qeyd olunub ki, ev dustağı olan şəxsin telefonla danışığı qadağan edilir, müəyyən insanlarla danışmasına icazə verilmir. Ev və mobil telefonları daim nəzarətdə saxlanılır. Ev dustaqlığına məhkum edilmiş şəxs evdən kənara çıxa bilməz. Həmin şəxs tam nəzarət altında olmalıdır.

Qanunvericiliyə əsasən, müəyyən şahidlər var ki, onlarla əlaqə saxlamağa icazə verilmir. Həmçinin poçt göndərişlərinə və digər rabitə vasitələrindən istifadəyə qadağa qoyulur. Ev dustaqlığına məhkum edilmiş şəxs öz evində qonaq qəbul edə, xeyir və şər məclislərində iştirak edə bilməz. Bu insanların yaşayış yerləri daim polis tərəfindən mühafizə olunur.

Tanınmış siyasətçilər, vəzifəlilər arasında ev dustağı olmuş şəxslərin sayı az deyil. Bunlardan ən yaddaqalanı keçmiş deputat Gülər Əhmədova olub. Həbsinə bir ay qalmış, konkret 2013-cü ilin yanvarında barəsində ev dustaqlığı qərarı verilən G.Əhmədova həmin vaxt mediaya açıqlamasında "mən hər gün Nəsimi Rayon Polis İdarəsinin əməkdaına, sahə müvəkkilinə evimdə olduğuma dair iltizam verirəm" demişdi. Amma bir ay sonra, 2013-cü ilin fevralında onu həbs etdilər.

Bundan başqa, 2015-ci ilin noyabrındakı baş verən MTN olaylarında da ev dustağı edilmiş bəzi şəxslər olub. Rəsmi açıqlama isə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi (MTN) Əməliyyat-Texniki İdarəsinin sabiq rəisi, general-mayor Natəvan Mirvətova barəsində verilib. Belə ki, ötən ilin noyabrında sabiq rəis haqqında başqa yerə getməmək barədə iltizam qətimkan tədbiri seçilib.

General-leytenant Hilal Əsədov ev dustağı edilməsi, onunla paralel MTN mərkəzi aparatının rəhbəri Fərhad Vahabov barədə də oxşar qərarın verilməsi yayılan məlumatlar sırasındadır. Halbuki bununla bağlı rəsmi qərar elan edilməyib. Eyni durumun eks nazir Eldar Mahmudov üçün də keçərli olduğu deyilir. Amma E.Mahmudovun statusu barədə dəqiq məlumat açıqlanmayıb. Bunlar sadəcə fərziyyə sayılır.

Bugünlərdə isə Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin həbsdə olan sabiq sədri Cahangir Hacıyevin barəsindəki həbs-qətimkan tədbirinin dəyişdirilməsi ilə bağlı Nərimanov Rayon Məhkəməsinə müraciət olunub. Vəkili bildirib ki, onun ev şəraitində müalicə olunmağa ehtiyacı var. Bu səbəbdən Cahangir Hacıyevin istintaq müddətində ev dustağı edilməsi və ev şəraitində müalicə olunması üçün Nərimanov Rayon Məhkəməsinə müraciət olunub.

Ümumiyyətlə, bu günə qədər bir çox məhbuslar, xüsusən də siyasi məhbus kateqoriyasında olanlar həbslərinin ev dustaqlığı ilə əvəz olunması ilə bağlı müraciət ediblər. Müraciətlərdə əsasən onların səhhəti, himayələrində azyaşlı uşaqların olması kimi detallar əsas gətirilib.

❑ **Sevinc TELMANQIZI**

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarının dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

**Yenilik! Rusiyada təhsil almış və Moskvada müdafiə etmiş**
tibb elmləri namizədi, təcrübəli həkim
**Darya İvanovna**
**varikoz və postvarikoz trofik yaraları, habelə diabetik yaraları özəl metodika ilə, cərrahi müdaxiləsiz müalicə edir.**
**Tel (051) 634-40-01**

**Elan**
**Bakı şəhəri Xətai rayon Levanevski keçəsi ev - 12D, Xüsusi mülkiyyət NZS qəsəbəsi, «Dalğa plaza» şadlıq sarayının arxası, 4 sotun içində 5 otaqlı ev, 200 m/kvadrat, yüksək keyfiyyətlə tikilmiş ev. Təcili satılır: 80.000 dollar.**
**Evin tikinti pasportu və kupçası var.**
**Əlaqə telefonu: 050 393-39-69. Sadiq.**

**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**
*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

# Ağcaqanadların yaydığı "Zika"dan necə qorunaq?

## Adil Qeybulla: ""Zika" virusu bədənə daxil olandan sonra səpkilər və qızdırma yaranır"

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) qızdırma və xəstəliyə səbəb olan "Zika" virusunun yayılma təhlükəsi haqda xəbərdarlıq edib. Bu virus Qara dəniz sahillərində, Rusiyada, Gürcüstanda, Abxaziyada və bir sıra Avropa ölkələrində, ilk növbədə isə Balkan yarımadasında ağcaqanad vasitəsilə yayılır.**

ÜST hesabatının müəlliflərindən biri Joao Pires insanlara müraciət edərək ağcaqanadların onları dişləməsinə imkan verməmələrini istəyib: "Uzunqollu paltar geyinin, repellentlərdən istifadə edin, ağcaqanadların sizi dişləməsinə imkan verməyin. Bu, hələlik "Zika" virusu və onun potensial fəsadları ilə mübarizədə ən yaxşı üsuldur".

**Tibb elmləri doktoru, professor Adil Qeybulla isə bu virusun ilkin əlamətlərinin qızdırma və səpki olduğunu və buna görə də qızdırması olan hər kəsin həkimə müraciət etməsinin vacib olduğunu bildirdi:** ""Zika" virusu ilk dəfə 1947-ci ildə Uqandada makaka meymunlarında tapılıb. 1968-ci ildə isə artıq insanda aşkar olunub. İlk dəfə bu virusa insanda Nigeriyada rast gəlinib. Bundan sonra virusun insanlarda olması faktları dalbadal qeydə alınıb. Nəzərə alsaq ki, 21-ci əsr virus əsridir və virusların hər dəfə bir növü ilə rastlaşırıq. Ona görə də bu barədə ehtiyatlı olmaq lazımdır. "Zika" virusu bədənə daxil olandan sonra səpkilər, qızdırma və sairə yaradır. Bu virus adətən çox ağır viruslar kateqoriyasına aid deyil. Yəni ölümlə nəticələnmə faktları qeydə alınmır. Amma istənilən halda bədənin zədələnməsi, problem yaratması, daxili orqanların funksiyalarının pozulması halları baş verir. Hamilə qadınlarda isə dölün zədələnməsi ehtimalı var. Ona görə də bu virusun Azərbaycana gəlməsi və burada bir yuva salmasına imkan verməK olmaz. Virus hava damcı yolu ilə yayılmır. Yalnız ağcaqanad dişləyən insandan insana keçir. Yəni qan vasitəsilə keçir".



**A.Qeybulla bu virusun Azərbaycanda yayılma ehtimalının böyük olduğunu dedi:** "Azərbaycan malyariyanın intensiv zonası olduğuna görə bu virusun yayılma ehtimalı var. Sadəcə olaraq, transsərhəd zonalarında qızdırması olan xəstələrin gediş-gəlişinə nəzarət etmək lazımdır. Onlar karantində saxlanmalıdır. Mümkün qədər xəstələrin ölkəyə daxil olmasının qarşısını almaq lazımdır. Əgər belə hal olarsa, həmin şəxs dərhal təcrid olunur. Tam sağalandan sonra o, ictimaiyyət arasına çıxa bilər. Yəni xəstə adamlar dərhal kollektivdən uzaqlaşdırılmalı, yataq rejiminə keçirilməlidir. Yəni konkret epidemioloji tədbirlər görüləcəyi təqdirdə Azərbaycana gəlməsinin və yayılmasının qarşısı alına bilər. İnsanlar bütün qızdırma hallarında həkimə müraciət etməlidir".

"Zika" virusunun ağcaqanad dişləməsi ilə yayıldığını nəzərə alsaq demək ki, ilk növbədə ağcaqanadlardan özümüzü qorumalıyıq. Məlum məsələdir ki, havalar isindikcə, xüsusən də yay aylarında Azərbaycanın istənilən bölgəsində, hətta paytaxtda belə ağcaqanadlara rast gəlinir. Bəs ağcaqanadlardan özümüzü necə qoruyaq?

Virusun yayılmasına səbəb olan Aedes ağcaqanadları nəinki öz nəsillərinin kəsilməsinə yardımçı olur, həmçinin onlardan törəyən sürfələr ultrabənövşəyi işıqda qırmızı rəngə çalırlar. Bununla alimlər bu üsulun effektivliyini də öyrənə bilirlər. Alimlər Pirasibaka küçələrinə içi su ilə dolu qablar düzüblər, bu qablara dişi ağcaqanadlar öz sürfələrini qoyublar və nəticədə məlum olub ki, sürfələrin 50 faizi geni dəyişdirilmiş ağcaqanadlardan olub. Ümumilikdə isə ağcaqanadların tüpürcəyində güclü allergen var. Hətta allergiyaya meylli olmayan insanda ağcaqanad dişləməsi qaşınmaya, şişkinliyə və qızartıya səbəb ola bilər. Bəzi hallarda ağcaqanadın dişləməsi qızdırma, dəri qızartısı və qaşınma, baş ağrısı, təngnəfəslik, qırtlağın şişkinliyi, quru öskürək, qıcolmalar kimi əlamətlərlə ağır allergik reaksiyaya gətirib çıxara bilər. Ağcaqanadlar insanın tərlədiyini çox yaxşı hiss etdiklərindən tez uçub gəlirlər. Qanla qidalandıqları üçün yalnız dişi ağcaqanadlar insanlar üçün təhlükəlidir. Ağcaqanadlardan qorunmaq üçün sintetik və təbii vasitələrdən istifadə etmək olar. Hələ qədim dövrlərdə insanlar kəskin qoxuların köməyi ilə ağcaqanadlarla mübarizə aparıblar.

❑ Günel MANAFLI

# Maliyyə Bazarlarına Nəzarət Palatası dollar kreditlərinə güzəşt edəcəkmi...

## Ekspertlər bunun vacibliyini vurğulayırlar, bank sektoru çətinliklə üz-üzədir...

**Ölkədə dolların kəskin bahalaşmasından, ilk devalvasiyadan 15 ay keçsə də, dollar kreditləri ilə bağlı problem hələ də həllini tapmayıb. Ekspetrlər kreditlərin vətəndaşın xeyrinə həll olunması üçün çoxsaylı təkliflər versələr də, rəsmi qurumlar bunların hamısını rədd edib. Aidiyyəti qurumlar, bütünlüklə hökumət probleminin həll edilməyəcəyini dolayısı və hətta açıq şəkildə bildirib. Ancaq müzakirələr yenə də bitmir.**



Maliyyə Bazarlarına Nəzarət Palatasının "10 min dolláradək kreditlərə kompensasiyanın ödənilməsi müzakirə edilə bilər" açıqlamasından sonra parlament də sözügedən məsələyə münasibət bildirib. Kompensasiyanın verilə bilməsi ilə bağlı nikbin açıqlamalara baxmayaraq, hələ ki Mərkəzi Bank tərəfindən bu istiqamətdə real addımlar atılmayıb. Ekspertlər bildirirlər ki, kreditlərə kompensasiyanın verilməsi tez-tez gündəmə gətirilsə də, Mərkəzi Bank bu məsələdə yenə də tərəddüd edir. Bu isə bank sektoru üçün ciddi çətinliklər yaradır. Banklar isə faizləri endirmək əvəzinə daha çox inzibati metodlardan istifadə etməyə çalışırlar və problemi daha da dərinləşdirirlər.

**Ekspert Vüqar Bayramov** bildirib ki, Mərkəzi Bank kreditlərə kompensasiya ödəməməklə maliyyə intizamının pozulmasına imkan yaradır: "Zamanında kompensasiya mexanizmi tətbiq olunsa, problemli kreditlərin həcmi bu qədər artmazdı və ödənişləri yubatmaq adiləşməzdi. Mərkəzi Bank bank sektorunda maliyyə intizamının daha da pisləşməsini arzulamırsa, o zaman qısa zamanda kreditlərə kompensasiya verməlidir. Əks halda, iqtisadiyyatın mühərriki hesab edilən bankları gözləyəcək problemləri proqnozlaşdırmaq çətin olmayacaq".

**Ekspert Əkrəm Həsənov musavat.com-a açıqlamasında qeyd edib ki, əslində Maliyyə Bazarlarına Nəzarət Palatasının, yaxud Milli Məclisin dollar kreditləri ilə bağlı müzakirə apardığını bildirməsi qeyri-adi bir iş deyil:** "Burada ziddiyyət görmürəm. Demirlər problemi həll edəcəyik, müzakirə edəcəyik. Milli Məclisin bəzi deputatları bu məsələni qaldırıblar, təşəbbüs var. Təbii ki, hökumət nümayəndələri deyə bilməz ki, Milli Məclisin qaldırdığı məsələni müzakirə də etmək istəmirik. Bu, bir az qanunvericilik nöqteyi-nəzərindən də düzgün çıxmaz. Çünki hökumət nümayəndələri xalq tərəfindən seçilməyiblər, ölkə başçısı tərəfindən təyin olunublar. Amma deputatları xalq seçib. Deputatlar deyirsə ki, müzakirə edirik, hökumət müzakirə etmədiyini deyə bilməz. Ancaq bu kimi fikirlərdən real nəticəni gözləmirəm. Sadəcə, Milli Məclisin yaz sessiyasının bitməsinə kimi yəqin ki, söz-söhbətlər gəzəcək. Ondan sonra məmurlar yay tətilinə gedəcəklər və söhbət də bununla bitəcək. Yəni müzakirələr keçən ildən var, ancaq nəticə yoxdur. İndi də real nəticə gözləmirəm. Çünki həm Rüfət Aslanlı, həm də maliyyə naziri fikirlərini qəti şəkildə bildiriblər ki, bu məsələ bankaların hesabına həll edilməlidir. Yəni banklar ötən il ərzində verdikləri kreditlərdən faiz əldə ediblər, buyursunlar, həmin gəlirlər hesabına bu problemi həll etsinlər. Hər iki məmur eyni mövqeni deyib, problemin dövlətin hesabına həll olunmasını istəmirlər. Mən onlardan şəxsən gözləmirəm ki, fikirlərini dəyişsinlər, dövlət büdcəsi hesabına nəsə edilsin. Ola bilsin, ölkə başçısı bu məsələyə qarışsın, onda vəziyyət dəyişə bilər. Problemin yaranmasından xeyli vaxt keçib, ortada heç nə yoxdur. Bunu onunla bağlayıram ki, Milli Məclisin sessiyası bitir, müəyyən aktivlik var, o da tezliklə bitəcək".

Qeyd edək ki, bir müddət əvvəl deputatlar Vahid Əhmədov və Əli Məsimli 14 səhifəlik, 8 maddədən ibarət təkliflər paketi hazırlayıblar. Bildirilir ki, bu təkliflər paketi müvafiq instansiyalara təqdim edilib.

Həmçinin Sivil Toplum Platforması da dollar kreditləri üçün güzəşt mexanizmi təklif edib. Onlar təklif edir ki, 21 fevral 2015-ci il tarixinə qədər xarici valyutada götürülən kreditlər üzrə: vətəndaşlar 1 dollar- 1,05 AZN məzənəsi ilə kredit ödənişləri etsin, hökumət isə ödənilən hər 1 dollara görə banklara 25 qəpik məbləğində kompensasiya ödəsin. 21 fevral- 21 dekabr 2015-ci il tarixi aralığında götürülən kreditlər üzrə vətəndaşlar 1 dollar- 1,20 AZN məzənnəsi ilə kredit ödənişləri etsin, hökumət isə ödənilən hər 1 dollara görə banklara 20 qəpik məbləğində kompensasiya ödəsin.

❑ Röya RƏFİYEVA

# YENİ MÜSAVAT

## Son səhifə

N 112 (6433) 24 may 2016


# Arıqlamaq istəyirsənsə... gündə bir dilim tort ye...

Səhər yeməyində bir dilim tort yemək arıqlamağa kömək edir. Bunu türkiyəli alimlər sübut edir. Onların bildirdiyinə görə, 90 kilo ağırlığında olan bir adam bu üsulu tətbiq edərək, 8 ayda 20 kilo arıqlaya bilər. İsraildə Hebrev Universiteti və Ariel Universitetinin mütəxəssisləri artıq çəkili 193 nəfər üzərində aparılan araşdırma zamanı müəyyən ediblər ki, səhərlər bir dilim tort yeyənlər digərlərinə nisbətən daha tez arıqlayır. İsrailli alimlər isə bildirib ki, insanların həzm sistemi səhərlər daha aktiv fəaliyyət göstərir. Onların gəldiyi nəticəyə görə, səhər yeməyində yeyilən tort gün ərzində keks və ya tort kimi qidalara olan tələbatı azaldır.





## Qardaş kimi doğuldular, indi iki bacı oldular

23 yaşındakı Ceymi və 20 yaşındakı Daniel Oherliyi bütün uşaqlıqları boyunca oğlan uşaqlarına xas davranmayıblar. İkisi də oğlan kimi doğulmaqdan və oğlan bədənindən razı olmayıb və bunu da heç kimə deyə bilməyiblər. Hətta bir-birilərinə belə. Amma keçən il bir gün bunu bir-birilərinə etiraf etdilər. Eyni problemi yaşadıqlarını öyrənən iki qardaş bir-birinə yardım edib. Onlar cinsiyyət dəyişdirmə əməliyyatına girməsələr də, həyatlarına qadın olaraq davam edirlər. Bir-birinə bunu etiraf etmələri üçünsə aradan 20 il keçməli imiş. Ötən ilin avqust ayında qardaşlar bir-birinə hər şeyi etiraf edib. İndi isə hər ikisi özünü daha xoşbəxt və mənən rahat hiss edir.



## Hinduşkasına qucaqlaşmağı öyrətdi

İnquşetiya sakini öz hinduşkasına insan kimi qucaqlaşmağı öyrədib. Bu görüşü videoya çəkən gənc onu internetdə də paylaşıb. Adı açıqlanmayan gənc oğlan klipdə hinduşkasına belə müraciət edir: “Gəl bura, mənim gözəlim”. Bunu deyən kimi hinduşka qanadlarını açaraq gəncə tərəf gəlir, qanadları ilə onu qucaqlayır və başını gəncin çiyninə qoyur. 2015-ci ilin dekabrında isə Dağıstandakı “Vasya” ləqəbli qaz yeni il gecəsində onu kəsməməsi üçün sahibini yola gətirmişdi. Belə ki, qaz sahibinin başına fırlanır, ayaqlarını qucaqlayırdı. “Mənim ona yazığım gəldi və onu kəsməməyə qərar verdim”, - bunu da sahibi Əhməd Abdullayev danışmışdı.

# Sürpriz etmək istədi, ağaca ilişib qaldı

Çinin İçan şəhər sakini sevdiyi qadına ilginc bir evlilik təklifi etmək istəsə də, uğursuzluğa düçar olub. Lenta.ru saytı yazıb ki, adı açıqlanmayan çinli gənc üzərində “Qou Xunyun, mənimlə evlən” sözləri yazılmış paraşütlə sevdiyinin yanına düşməli, ona güllər təqdim etməli idi. Amma külək romantik çinlini pərt edib və paraşüt ağaca ilişib. Gənc adam özbaşına yerə düşə bilməyib, xilasedicilərin hadisə yerinə gəlməsi isə bir saat çəkib. Sonuncular gələn kimi çinlini ağacdan endiriblər və o, pərt olmadan planının qalan hissəsini həyata keçirib: sevgilisinin yanına düşüb, dizi üstə çöküb və ona gül buketi təqdim edib. Amma şanssız çinli bu məqamda da pis vəziyyətə düşüb. Çünki qız ona heç bir cavab verməyib, sadəcə, üzünü çevirərək gedib. 21 mayda baş vermiş hadisə internetdə də ciddi müzakirəyə səbəb olub. Bir çox sosial şəbəkə istifadəçiləri qızı müdafiə ediblər. Onlar deyiblər ki, bu cür təkliflər publika üçün şou məqsədilə edilməməli, romantik atmosfetdə həyata keçirilməlidir.





## İntihar məqsədilə özünü şirlərin qəfəsinə atdı

Çilinin paytaxtı Santieqodakı bir zooparkda ilginc intihar hadisəsi baş verib. 20 yaşlı Franci Luis Ferrada adlı gənc çılpaq soyunaraq intihar etmək üçün özünü şirlərin qəfəsinə atıb. Şirlər 20 yaşlı gənci parçaladığına görə zoopark işçiləri onları güllələyərək öldürüb. Hadisənin şahidləri bildirib ki, şirlər qəfəslərinə girən gənclə öncə oynamağa başlayıb, daha sonra isə onu dişləyiblər. Heyvanlar onu dişləməyə başlayanda gənc dini sözlər deməyə başlayıb. Zoopark nümayənədələri öncə şirlərə sakitləşdirici iynələr vurmağa çalışıb. Ancaq iynələr səhvən Ferradanın boynuna dəyib. Bu səbəbdən də zoopark işçiləri şirləri gələnlərin gözləri qabağında vurmaq məcburiyyətində qalıb. 20 ildir zooparkda qalan bu heyvanların öldürülməsi oranın işçilərini də, rəhbərliyi də kədərləndirib. Ferrada isə hadisədən ağır yaralı olaraq qurtulub.




**QOÇ** - İxtiyarınızda olan bu şıltaq təqvim sizin üçün uğurlu olmalıdır. Odur ki, vaxtınızı boşa verməyin. Müxtəlif ünvanlara baş çəkməklə maddi və mənəvi rahatlıq qazana bilərsiniz.

**BUĞA** - İştirakçısı olduğunuz prosesləri gərginləşdirməyin. Qanqaraldan işlərə meyl etməsəniz, hörmətiniz artacaq. Günün ikinci yarısını bütünlüklə maliyyə məsələlərinə həsr edin.

**ƏKİZLƏR** - Həqiqətə yaxın olan arzularla yaşayın. Paxıl və bədxah adamlara fikir verməyin. Gələn ay üçün görəcəyiniz işləri indidən planlaşdırın. Uzaq səfərə çıxmağı isə təxirə salın.

**XƏRÇƏNG** - Daxili gərginliyiniz xeyli səngiyəcək. Bu isə başınıza yeni ideya və perspektivli fikirlərin gəlməsinə səbəb olacaq. Həlli mürəkkəb olan işlərə girişməyin. Sizə passivlik yaraşmır.

**ŞİR** - Hər bir məsələdə qanunauyğun addım atın. Saxta iş görmək, yalan vəd vermək, məsuliyyətsizlik sizi gözdən sala bilər. Elə edin ki, etibarlı müttəfiq imiciniz öz qüvvəsində qala bilsin.

**QIZ** - Daxili duyğularınızı tənzimləmək üçün fiziki işlərdən uzaq olun. Bu gün ulduzlar məclislərdə iştirakınızdan da xəbər verir. Dəvətləri qəbul etməyə çalışın. Səhhətinizə fikir verin.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir təqvim yaşayacaqsınız. Kiçicik gərginlikləri nəzərə almasaq, ətrafınızda cərəyan edən hər bir hadisə ürəyinizcə olacaq. Maraqlı görüşləriniz gözlənilir.

**ƏQRƏB** - Axşam saat 15-ə qədər nəzərdə tutduğunuz planları reallaşdırmaqda heç bir problemlə rastlaşmayacaqsınız. Sonrakı müddətdə isə ehtiyatlı olun. Axşam saatlarını evdə keçirməlisiniz.

**OXATAN** - Ümumi durumunuz qənaətbəxş olsa da, mənəvi problemlərə dözümsüzlüyünüz işləri korlaya bilər. İndi sizə enerji itirmək yox, güc toplamaq lazımdır. Axşam bir neçə sürprizə hazır olun.

**OĞLAQ** - Fəaliyyət zəminində uğurlarınız xeyli artacaq. Bu istiqamətdə sizə etibar etdiyiniz bəzi insanlar da kömək edə bilər. Amma nəzərə almalısınız ki, mənfi enerjili Ay səhər saatlarından bürcünüzdədir.

**SUTÖKƏN** - Taleyüklü məsələlərin həlli üçün perspektivli təqvimdir. Mövcud problemlərinizi aradan qaldırmaq üçün əhəmiyyət kəsb edən adamlarla görüşün. Məsuliyyətsizlik etməyin.

**BALIQLAR** - Müəmmalı bir tarixdir. Özünüzlə bağlı situasiyaları nəzarətdə saxlaya bilməyəcəksiniz. Yaxşı olar ki, etibar etdiyiniz adamların rəyi ilə hesablaşasınız. Sizə kömək göstərəcəklər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Bu muzeydə 2 min gəlincik var



Türkiyənin ən önəmli turizm mərkəzlərindən biri olan Kapadokya bölgəsində dünyanın ilk və tək gəlincik muzeyi açılıb. Muzey yerli və xarici turistlərin axınına uğrayıb. Nevşehirin Ürgüp bölgəsində yerləşən Mustafapaşa kəndindəki 170 illik tarixə malik Sinasos malikanəsində yerləşən muzeydə 2 minə yaxın gəlincik var. Bu, Türkiyənin ilk, dünyanın isə ilk təyinatlı gəlincik muzeyi sayılır.

Səhifəni hazırladı: SELCAN


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750